RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 158 (9325) 29 İYUL 2023-cü il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR






# Modern Azərbaycan energetikasının daha bir uğuru

## Prezident İlham ƏLİYEV: "Hər bir ölkənin energetika sistemi onun döyünən ürəyidir... Enerji olmayan yerdə inkişaf yoxdur"

**Azərbaycanda elektroenergetika sahəsi getdikcə daha sürətlə inkişaf edir. Son 20 il ərzində ölkədə 34 elektrik stansiyası inşa edilib və bu stansiyaların generasiya gücü təqribən 3400 meqavata bərabərdir.**

Hazırda ümumi generasiya gücümüz 7200 meqavatdır. Bunun 3400 meqavatı son iki onillikdə yaradılıb. Dövlətin bu məsələni prioritetlərdən biri kimi seçməsi ölkənin iqtisadi gücünə təkan verib, enerji təhlükəsizliyimizi təmin edib.

Ümumi gücü 800 MVt olan "Şimal" Elektrik Stansiyası Bakının Şüvəlan qəsəbəsində yerləşir. Son 20 il ərzində Xəzər dənizində suyun səviyyəsinin aşağı düşməsi ölkənin ikinci böyük elektrik stansiyası olan və paytaxtın 40 faizdən artıq ərazisini elektrik enerjisi ilə təchiz edən bu mühüm enerji obyektinin işində böyük çətinliklər yaratmışdı.

7

## Qarabağ və Şərqi Zəngəzur ərzaq təhlükəsizliyinə mühüm töhfələr verəcək

### Bu regionda ixracyönümlü məhsulların istehsalı üçün də böyük potensial var

Prezident İlham Əliyev tərəfindən həyata keçirilən aqrar islahatlar kənd təsərrüfatının daha böyük inkişafına yol açıb. Bu barədə faktlar nə deyir? Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, 2023-cü ilin yanvar-iyun ayları üzrə kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 5865,2 milyon manat təşkil edib. Bu məbləğin 2897 milyon manatı heyvandarlıq, 2968,2 milyon manatı isə bitkiçilik məhsullarının payına düşür.

9

## Azərbaycan Respublikası Dövlət Neft Şirkətində kadr dəyişiklikləri edilib

### Prezident İlham Əliyev bununla bağlı bir neçə sərəncam imzalayıb



2

## Peru Respublikasının Prezidenti zati-aliləri xanım Dina Ersilia Boluarte Zeqarraya

Hörmətli xanım Prezident!

Peru Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

İnanıram ki, Azərbaycan ilə Peru arasında dövlətlərarası münasibətlər xalqlarımızın mənafeləri naminə bundan sonra da inkişaf edəcək, beynəlxalq təsisatlar çərçivəsində əməkdaşlığımız daha da genişlənəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Peru xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 iyul 2023-cü il*

## Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Əlahəzrət Şeyx Məhəmməd bin Zayed Al Nəhyana

Əlahəzrət!

Qardaşınız - Əbu-Dabi Əmirinin Nümayəndəsi Şeyx Səid bin Zayed Al Nəhyanın vəfatı xəbəri bizi olduqca kədərləndirdi.

Bu ağır anlarda dərdinizi bölüşür, Sizə, ailənizin bütün üzvlərinə, Birləşmiş Ərəb Əmirliklərinin qardaş xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 iyul 2023-cü il*

## Ermənistanın siyasi spekulyasiyası

### İrəvan Qarabağın erməniəsilli sakinlərindən, sadəcə, çirkab alət kimi istifadə etməyə çalışır

Ermənilər Azərbaycanda separatizmin ayaqda qalması üçün Laçın yolundan istifadənin sərbəst olmasını israr edirlər. Ermənistan bunun üzərindən siyasi spekulyasiya və şantajlar edir. Məqsəd Azərbaycana qarşı qərəzli siyasi mövqe formalaşdırmaqdan ibarətdir.

Laçın sərhəd-buraxılış məntəqəsinə münasibətdə özünü söz sahibi kimi aparmaq cəhdi, bu məntəqənin ləğvini tələb etmək, giriş-çıxışı sərbəst formada terrorçuların, təxribatçıların ixtiyarına vermək Azərbaycanın suverenliyinə hörmətsizlikdir.

7

## İnsan qatillərinin yanında olmaq Hindistanın mövqeyinə xələl gətirir

Hindistan istehsalı olan silah sistemlərinin İran vasitəsilə Ermənistana daşınması barədə yayılan foto və videolar deyilənlərin təsdiqidir. Avtomobil karvanının Nurdüz (İran) sərhəd-buraxılış məntəqəsindən Ermənistana hərəkəti qeydə alınıb. Məlumatlara əsasən, İrandan Ermənistana daşınan yük hərbi təyinatlıdır və İranın Bəndər-Abbas limanına çatdırılıb. Son zamanlar Ermənistanla hərbi-texniki əməkdaşlığı sürətlə inkişaf etdirən Hindistan silahların tədarükçüsüdür.

8

## El yurda dönür

### Gülə-gülə qayıdan köç arzuların zirvəsinə doğru irəliləyir

Vətən müharibəsinin üzərindən ötən qısa müddət ərzində bu torpaqların sürətlə dirçəldilməsi və hər ötən gün bizə yurdlarımıza yeni qayıdışların xoş sorağını eşitmək nəsibi isə Azərbaycan dövlətinin qarşısına qoyduğu milli prioriteti - Böyük qayıdışı necə əzm və qətiyyətlə gerçəkləşdirməsindən xəbər verir. Birbaşa Prezident İlham Əliyevin nəzarəti altında Qarabağ və Şərqi Zəngəzurda aparılan sürətli tikinti-quruculuq işləri, həyata keçirilən nəhəng infrastruktur layihələri, bərpa edilən yaşayış məntəqələri imkan verir ki, Böyük qayıdış da uğurla həyata keçirilsin.

Artıq ötən ildən etibarən qayıdış prosesinə start verilib və yüzlərlə ailə yenidən bərpa olunmuş yurdlarına dönüblər.

10

## Hayastanın "humanitar fəlakət" tamaşası

### Məğlub ölkə süni gərginlik yaradaraq sülh sazişinin imzalanmasını uzatmaq üçün vaxt qazanmaq istəyir

Ermənistanın növbəti arzuolunmaz siyasi tamaşası ölkəmizin ərazi bütövlüyü və suverenliyinə hörmətsizlik, eləcə də Qarabağda məskunlaşmış ermənilərin təhlükəsizliyinə təhdiddir. Bu təxribat xarakterli davranışlar bölgədə separatizmi fəal şəkildə təşviq etməklə gərginliyin artmasına xidmət edir və ermənilərin cəmiyyətimizə reinteqrasiyasını gecikdirir.

Rəsmi İrəvan ölkəmizlə razılaşdırılmadan suveren ərazilərimizə "humanitar yük" adı altında avtomobil konvoyları göndərir.

7

# Bu yol Zəngəzura gedir



9

## Z.T.Mustafayevanın Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Ziba Tacəddin qızı Mustafayeva Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti təyin edilsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 iyul 2023-cü il*

## İ.F.Zərgərlinin Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. İsmayıl Fikrət oğlu Zərgərli Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti təyin edilsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 iyul 2023-cü il*

## Ə.E.İsayevin Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Əfqan Elçin oğlu İsayev Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti təyin edilsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 iyul 2023-cü il*

## F.B.Musayevin Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Fuad Bəkir oğlu Musayev Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti təyin edilsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 iyul 2023-cü il*

## B.E.Hüseynovun Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Babək Elbəniz oğlu Hüseynov Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti təyin edilsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 iyul 2023-cü il*

## A.S.Cavadovanın Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Arzu Sahib qızı Cavadova Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti təyin edilsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 iyul 2023-cü il*

## A.F.Məmmədovun Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Anar Fərruh oğlu Məmmədov Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti təyin edilsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 iyul 2023-cü il*

## "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 18-ci və 20-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

"Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 8, maddə 601; 2006, № 2, maddə 64, № 3, maddə 221; 2007, № 11, maddə 1078; 2008, № 8, maddə 710; 2010, № 3, maddə 172; 2014, № 7, maddə 763; 2019, № 5, maddələr 805, 811; 2022, № 1, maddə 3; 2023, № 4, maddə 453) 14-cü maddəsində aşağıdakı dəyişikliklər edilsin:

1. 14.3-cü maddədə "Hərbi xidmət" sözləri "Hərbi vəzifə və hərbi xidmət" sözləri ilə əvəz edilsin.

2. 14.4-cü maddədə "hərbi xidmətə qəbul edilmiş şəxslər və onların təhsil müəssisələrinin müdavimləri (kursantları) hərbi mükəlləfiyyət qeydiyyatından" sözləri "həqiqi hərbi xidmətə çağırılmış və ya könüllü daxil olmuş şəxslər hərbi qeydiyyatdan" sözləri ilə əvəz edilsin.

3. 14.8-ci maddədə "bu subyektlərdə müəyyən edilmiş həqiqi hərbi xidmət müddətlərini başa vurmuş hərbi qulluqçular" sözləri "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq bu subyektlərdə həqiqi hərbi xidmətdən buraxılaraq öz ehtiyatlarına keçirilmiş hərbi vəzifəlilər" sözləri ilə əvəz edilsin.

4. 14.9-cu maddədə "təlim toplanışı" sözləri "toplanış" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 iyun 2023-cü il*

## Azərbaycan Respublikasının Slovakiya Respublikasında (Bratislava şəhərində) Səfirliyinin təsis edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 2-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Azərbaycan Respublikasının Slovakiya Respublikasında (Bratislava şəhərində) Səfirliyi təsis edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 iyul 2023-cü il*

## "Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiya haqqında Əsasnamənin təsdiq edilməsi və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyanın tərkibi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 9 dekabr tarixli 224 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiya haqqında Əsasnamənin təsdiq edilməsi və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyanın tərkibi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 9 dekabr tarixli 224 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 12, maddə 704; 2002, № 1, maddə 22; 2004, № 6, maddə 436, № 7, maddə 534; 2005, № 10, maddə 910; 2006, № 7, maddə 588; 2007, № 3, maddə 229; 2014, № 9, maddə 1027; 2015, № 9, maddə 1015, № 11, maddə 1301; 2016, № 8, maddə 1384; 2017, № 5, maddə 772, № 8, maddə 1521; 2018, № 2, maddə 175; 2019, № 9, maddə 1487; 2020, № 2, maddə 105; 2022, № 4, maddə 303, № 12, maddə 1440) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1. "Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin rəisi" abzasından sonra aşağıdakı məzmunda yeni abzaslar əlavə edilsin:

"Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin rəisi

Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi".

2. "Xüsusi Dövlət Mühafizə Xidmətinin" sözləri "Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 iyul 2023-cü il*

## "Azərbaycan Respublikasının Avropa İttifaqı ilə əməkdaşlığı üzrə Dövlət Komissiyasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 1 iyun tarixli 834 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikasının Avropa İttifaqı ilə əməkdaşlığı üzrə Dövlət Komissiyasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 1 iyun tarixli 834 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 6, maddə 493, № 10, maddə 968; 2006, № 7, maddə 588, № 9, maddə 743; 2007, № 5, maddə 459; 2009, № 4, maddə 233; 2010, № 2, maddə 80, № 7, maddə 620; 2012, № 12, maddə 1291; 2013, № 3, maddə 292; 2014, № 2, maddə 112, № 5, maddə 477, № 11, maddə 1414; 2015, № 8, maddə 957; 2016, № 5, maddə 861, № 9, maddə 1518; 2017, № 11, maddə 2124; 2018, № 8, maddələr 1677, 1715; 2019, № 2, maddə 294; 2020, № 2, maddə 123; 2022, № 12, maddə 1516; 2023, № 3, maddə 391) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. "Mədəniyyət nazirinin birinci" sözləri "mədəniyyət nazirinin" sözləri ilə əvəz edilsin;

1.2. "Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi" sözləri "Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Müşahidə" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci hissəsi ilə edilən dəyişiklik barədə Avropa İttifaqı tərəfinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 iyul 2023-cü il*

## "İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ICESCO) üzrə Azərbaycan Respublikası Milli Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 13 mart tarixli 1937 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ICESCO) üzrə Azərbaycan Respublikası Milli Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 13 mart tarixli 1937 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 319; 2022, № 5, maddə 530) 1-ci hissəsində "Təhsil" sözü "elm və təhsil" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 iyul 2023-cü il*

## "Azərbaycan Respublikasının Heydər Əliyev Mükafatı Komissiyasının yeni tərkibinin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 8 aprel tarixli 499 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikasının Heydər Əliyev Mükafatı Komissiyasının yeni tərkibinin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 8 aprel tarixli 499 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 4, maddə 378; 2017, № 4, maddə 561; 2018, № 5, maddə 959; 2021, № 4, maddə 324; 2022, № 5, maddə 472; 2023, № 3, maddə 343) 1-ci hissəsinin "İsa Həbibbəyli - Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti" və "Tahir Salahov - Xalq rəssamı" abzasları ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 iyul 2023-cü il*

## Əlicançay su anbarının tikintisi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, habelə Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 iyul tarixli 2178 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2020-2022-ci illər üçün Tədbirlər Planı"na uyğun olaraq ölkədə su ehtiyatlarının artırılması, əhalinin içməli su təminatının yaxşılaşdırılması, əkinəyararlı torpaqlarda müasir təsərrüfatlar yaradılmasının təşviqi və əhalinin məşğulluğunun dəstəklənməsi məqsədilə **qərara alıram:**

1. Oğuz və Şəki rayonları ərazisində Əlicançay su anbarı tikilsin.

2. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi:

2.1. Əlicançay su anbarının tikintisi ilə bağlı müvafiq tədbirlər görülməsini təmin etsin;

2.2. Əlicançay su anbarının tikintisi nəticəsində içməli su ilə təmin ediləcək yaşayış məntəqələri və suvarma suyu ilə təmin edilməsi nəzərdə tutulan əkin sahələri üzrə prioritetləşdirmə aparmaqla, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və aidiyyəti yerli icra hakimiyyəti orqanları ilə razılaşdırılmış təkliflərini 5 (beş) ay müddətində "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 15 aprel tarixli 1986 nömrəli Sərəncamı ilə yaradılmış Komissiyaya (bundan sonra - Komissiya) təqdim etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Şəki Şəhər İcra Hakimiyyəti, Oğuz Rayon İcra Hakimiyyəti və digər aidiyyəti dövlət orqanları (qurumları) Əlicançay su anbarının tikintisindən irəli gələn məsələlərin həlli ilə bağlı zəruri tədbirlər görsünlər.

4. Komissiya bu Sərəncamın 2-ci və 3-cü hissələrində nəzərdə tutulmuş tədbirlərin əlaqələndirilməsi məsələlərini həll etsin.

5. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən su anbarının tikintisinin cari ildə və növbəti illərdə maliyyələşdirilməsi üçün aidiyyəti üzrə zəruri tədbirlər görsünlər.

6. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 iyul 2023-cü il*

## Y.A.Lətifovun Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Yaşar Aydın oğlu Lətifov Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti vəzifəsindən azad edilsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 iyul 2023-cü il*

## B.Ş.Bədəlovun Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Bədəl Şamil oğlu Bədəlov Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti vəzifəsindən azad edilsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 iyul 2023-cü il*

## D.Ə.İskəndərovun Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Daşqın Ələm oğlu İskəndərov Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti vəzifəsindən azad edilsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 iyul 2023-cü il*

## X.R.Məmmədovun Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Xalik Rəfi oğlu Məmmədov Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti vəzifəsindən azad edilsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 iyul 2023-cü il*

## S.M.Qasımovun Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Süleyman Mehrəli oğlu Qasımov Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti vəzifəsindən azad edilsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 iyul 2023-cü il*

# "İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 10, maddə 606; 2002, № 4 (I kitab), maddə 165; 2007, № 7, maddə 709, № 10, maddə 938; 2008, № 6, maddə 460; 2012, № 7, maddə 648; 2017, № 6, maddə 1017; 2018, № 2, maddə 144; 2019, № 1, maddələr 20, 43, № 11, maddə 1689; 2020, № 7, maddə 823) aşağıdakı dəyişikliklər edilsin:

1. Adında "İstehsalat və məişət tullantıları" sözləri "Tullantılar" sözü ilə əvəz edilsin.
2. Preambulada "istehsalat və məişət tullantılarının (bundan sonra - tullantıların)" sözləri "tullantıların" sözü ilə əvəz edilsin.
3. 3.2-ci maddədə "istehsalat və məişət tullantılarının" sözləri "tullantıların" sözü ilə əvəz edilsin.
4. 12-6-cı maddənin adında və birinci hissəsində, 13-cü maddənin üçüncü hissəsində "istehsalat və məişət tullantılarının, habelə" sözləri "tullantıların, o cümlədən" sözləri ilə əvəz edilsin.
5. Aşağıdakı məzmunda II-I fəsil əlavə edilsin:

**"II-I fəsil**
**NƏQLİYYAT VASİTƏLƏRİNİN UTİLİZASİYASI**

**Maddə 14-1. Nəqliyyat vasitələrinin utilizasiyası ilə bağlı ümumi müddəalar**

Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən və istehsal-buraxılış vaxtından 4 (dörd) il keçən minik avtomobillərinin (raritet minik avtomobilləri və gömrük ərazisinə müvəqqəti gətirilən minik avtomobilləri istisna olmaqla) gömrük rəsmiləşdirilməsi, həmçinin nəqliyyat vasitələrinin dövlət texniki baxışından keçirilməsi zamanı nəqliyyat vasitələrinin utilizasiyası fonduna utilizasiya haqqı ödənilir.

Minik avtomobillərinin gömrük ərazisinə gətirilməsinə görə utilizasiya haqqının bəyannaməçilər tərəfindən ödənilməsi gömrük orqanları tərəfindən təmin edilir.

Dövlət texniki baxışı üzrə utilizasiya haqqı nəqliyyat vasitəsi "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun 30-cu maddəsinin VI hissəsində nəzərdə tutulan müddətlərdə texniki baxışa faktiki təqdim olunan vaxt ödənilir.

Utilizasiya haqqının məbləği müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən nəqliyyat vasitəsinin istehsal-buraxılış ili üzrə müəyyən edilir.

Nəqliyyat vasitələrinin utilizasiyası fəaliyyətini bu Qanunun 14-4-cü və 14-5-ci maddələrində nəzərdə tutulan reyestrdə qeydiyyata alınmış şəxslər (bundan sonra - utilizatorlar) və digər şəxslər həyata keçirə bilər.

Utilizasiyaya verilmiş nəqliyyat vasitələri ilə bağlı bu Qanunun 14-7-ci və 14-8-ci maddələrinin tələbləri nəzərə alınmaqla, utilizatorlar tərəfindən özündə güzəştin məbləğini və birdəfəlik ödənişin həcmini əks etdirən təsdiqedici sənəd verilir.

Utilizatorlar tərəfindən nəqliyyat vasitələrinin utilizasiyaya qəbulu növbəlilik qaydasında və ödənişsiz həyata keçirilir.

Yeni istehsal olunmuş yerli nəqliyyat vasitələri təsdiqedici sənəd təhvil verilməklə satın alındıqda nəqliyyat vasitələrinin satıcıları tərəfindən güzəşt tətbiq edilir. Güzəştin məbləği müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

**Qeyd:**

Bu fəslin məqsədləri üçün nəqliyyat vasitələri dedikdə, "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun 27-ci maddəsinin II və III hissələrində nəzərdə tutulan nəqliyyat vasitələri başa düşülür. Digər nəqliyyat vasitələrinə bu fəslin müddəaları şamil edilmir və onlar mülki qanunvericiliyə uyğun olaraq bağlanmış müqavilə əsasında utilizasiyaya qəbul edilir.

Bu fəslin məqsədləri üçün nəqliyyat vasitələrinin satıcıları dedikdə Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq vergi ödəyicisi kimi uçota alınmaqla nəqliyyat vasitələrinin satışı üzrə sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki və ya hüquqi şəxslər başa düşülür.

**Maddə 14-2. Nəqliyyat vasitələrinin utilizasiyası üzrə operator**

Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən nəqliyyat vasitələrinin utilizasiyası üzrə operator (bundan sonra - operator) müəyyən edilir. Operator aşağıdakı funksiyaların icrasını təşkil və təmin edir:

nəqliyyat vasitələrinin utilizasiyası fondunun vəsaitlərinin idarə olunması;

utilizatorların reyestrinin (bundan sonra - reyestr) aparılması, saxlanılması və ona nəzarət;

bu Qanunun 14-9-cu və 14-10-cu maddələrində nəzərdə tutulan yazılı məlumatların alınması;

bu Qanunun 14-9-cu maddəsinin üçüncü hissəsinə uyğun olaraq təsdiqedici sənədlərin uçotunun aparılması.

Operator nəqliyyat vasitələrinin utilizasiyası fəaliyyəti ilə məşğul ola bilməz.

Operator ona təqdim olunmuş məlumatları ümumiləşdirərək hər növbəti təqvim ili fevralın 20-dək müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) yazılı məlumat verir.

**Maddə 14-3. Nəqliyyat vasitələrinin utilizasiyası fondunun yaradılması və fəaliyyəti**

Bu Qanunun 14-8-ci maddəsinə əsasən, güzəştin və birdəfəlik ödənişin maliyyələşdirilməsi, habelə nəqliyyat vasitələrinin utilizasiyası üzrə tədbirlərin stimullaşdırılması və təşviqi məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən nəqliyyat vasitələrinin utilizasiya fondu yaradılır.

Nəqliyyat vasitələrinin utilizasiyası fondu məqsədli büdcə fondudur və aşağıdakı müstəqil mədaxil mənbələri hesabına maliyyələşir:

utilizasiya haqqı;

kreditlər və qrantlar;

hüquqi və fiziki şəxslərin könüllü ianələri;

beynəlxalq təşkilatların və digər donorların ayırmaları;

qanunla qadağan olunmayan digər mənbələr.

Nəqliyyat vasitələrinin utilizasiyası fondunun vəsaitinin formalaşdırılması və istifadə qaydasını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) müəyyən edir.

**Maddə 14-4. Reyestrdə qeydiyyata alınmaq üçün tələblər**

Reyestrdə qeydiyyata alınmaq üçün ərizəçidən (hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs və ya hüquqi şəxs) aşağıdakılar tələb olunur:

vergi, məcburi dövlət sosial sığorta haqqı, icbari tibbi sığorta haqqı və işsizlikdən sığorta haqqı üzrə borcu olmamaq;

nəqliyyat vasitələrinin qəbulunu, saxlanılmasını və utilizasiyasını həyata keçirmək üçün mülkiyyətində, yaxud sahibliyində və ya istifadəsində müvafiq ərazilərə malik olmaq;

nəqliyyat vasitələrinin, o cümlədən utilizasiya nəticəsində əldə edilən materialların və hissələrin saxlanılması üçün onların zədələnməməsini təmin edən, üzəri dağılmayan və texniki mayeləri sızdırmayan material ilə örtülən (asfalt, beton, gil-beton, polimer beton) sahələrə malik olmaq;

təhlükəli tullantıların saxlanılması üçün normativ-hüquqi aktlarla nəzərdə tutulan tələblərə cavab verən sahələrə malik olmaq;

nəqliyyat vasitələrinin, onların hissələrinin (partlayıcı qabiliyyətli, o cümlədən təhlükəli tullantılara xas olan digər xüsusiyyətlərə malik hissələrin) təhlükəsiz qaydada sökülməsi üçün maddi-texniki bazaya malik olmaq;

nəqliyyat vasitələrinin təkrar istifadəyə yararlı hissələrinin yoxlanılması üçün maddi-texniki bazaya malik olmaq.

**Maddə 14-5. Reyestrin aparılması**

Reyestrin aparılması, saxlanılması və ona nəzarət operator tərəfindən həyata keçirilir.

Reyestrə aşağıdakı məlumatlar daxil edilir:

utilizatorlar barədə məlumatlar;

utilizatorların qeydiyyatı və ləğvi barədə məlumatlar;

qeydiyyata alınma və dəyişikliklər üçün təqdim edilmiş sənədlər, qeydiyyatın ləğvi üçün əsaslar və müvafiq faktı təsdiq edən sənədlər.

Reyestrə utilizatorlar barədə aşağıdakı məlumatlar daxil edilir:

hüquqi şəxs olan utilizatorun tam adı, təşkilati-hüquqi forması, hüquqi və faktiki ünvanı, əlaqə məlumatları;

hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan utilizatorun soyadı, adı, atasının adı, ünvanı, əlaqə məlumatları;

vergi ödəyicisinin eyniləşdirmə nömrəsi;

utilizatorun səlahiyyətli nümayəndəsinin (təmsilçisinin) soyadı, adı, atasının adı, ünvanı, əlaqə məlumatları.

Hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs və ya hüquqi şəxs reyestrdə qeydiyyata alınmaq üçün operatora ərizə ilə müraciət edir.

Ərizəyə aşağıdakı sənədlər əlavə olunur:

hüquqi şəxslərin dövlət reyestrindən çıxarışın, hüquqi şəxsin nizamnaməsinin və dövlət qeydiyyat şəhadətnaməsinin surəti;

hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxsin şəxsiyyətini təsdiq edən sənədin və vergi uçotuna alınması haqqında şəhadətnamənin surəti;

səlahiyyətli nümayəndənin (təmsilçinin) səlahiyyətini və şəxsiyyətini təsdiq edən sənədlərin surəti;

"Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq ətraf mühitə təsirin qiymətləndirilməsi sənədi və müsbət dövlət ekoloji ekspertiza rəyi;

texniki-iqtisadi əsaslandırma sənədi;

bu Qanunun 14-4-cü maddəsində nəzərdə tutulan tələblərə cavab verməsini təsdiq edən sənədlərin surətləri.

Ərizə və ona əlavə olunan sənədlər ərizəçi tərəfindən birbaşa və ya səlahiyyətli nümayəndə tərəfindən təqdim olunmalıdır. Ərizəyə daxil olduğu gündən 10 (on) iş günü müddətində baxılır.

Reyestrdə qeydiyyata alınmaq üçün nəzərdə tutulan sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda həmin sənədlər və ya məlumatlar ərizəçidən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.

Sənədlərdə və ya məlumatlarda çatışmazlıq və ya uyğunsuzluq olduqda ərizənin qəbul edildiyi gündən etibarən 3 (üç) iş günü müddətində bu barədə ərizəçiyə yazılı məlumat verilir. Bütün çatışmazlıq və uyğunsuzluqlar ərizəçiyə eyni anda bildirilməlidir.

Ərizəçi həmin məlumatı aldığı gündən 10 (on) iş günü müddətində çatışmazlıq və ya uyğunsuzluqları aradan qaldırmalıdır. Bu zaman ərizəyə baxılması ilə bağlı müddətin axımı dayandırılır. Çatışmazlıq və ya uyğunsuzluqların aradan qaldırılması barədə ərizəçinin müraciətindən sonra müddətin axımı bərpa olunur.

Ərizəçi sənədlərdə və ya məlumatlarda aşkar olunmuş çatışmazlıq və ya uyğunsuzluqları vaxtında aradan qaldırmadıqda ərizənin baxılmamış saxlanılması haqqında qərar qəbul edilir və 3 (üç) iş günü müddətində sifarişli poçt göndərişi vasitəsilə və ya elektron qaydada ərizəçiyə göndərilir. Çatışmazlıq və uyğunsuzluqlar aradan qaldırıldıqdan sonra ərizəçinin reyestrdə qeydiyyata alınmaq üçün yenidən müraciət etmək hüququ vardır.

Sənədlərdə və məlumatlarda çatışmazlıq və ya uyğunsuzluq olmadıqda ərizəçinin reyestrdə qeydiyyata alınması və ya ərizəçi reyestrdə qeydiyyata alınmaq üçün bu Qanunun 14-4-cü maddəsində nəzərdə tutulan tələblərə cavab vermədiyi hallarda onun reyestrdə qeydiyyata alınmasından imtina haqqında əsaslandırılmış qərar qəbul edilir və 3 (üç) iş günü müddətində sifarişli poçt göndərişi vasitəsilə və ya elektron qaydada ərizəçiyə göndərilir.

Ərizəçinin reyestrdə qeydiyyata alınması barədə qərar qəbul edildiyi gündən 3 (üç) iş günü müddətində ona dair məlumatlar reyestrə daxil edilərək bu barədə ərizəçiyə sifarişli poçt bildirişi ilə və ya elektron qaydada məlumat verilir.

Utilizatorlara vahid və təkrarolunmaz 11 (on bir) rəqəmdən ibarət qeydiyyat nömrəsi verilir və reyestrdə əks olunur.

Aşağıdakı hallarda utilizatorların qeydiyyatı ləğv edilir və onlar reyestrdən çıxarılır:

utilizatorun bu barədə ərizəsi olduqda;

hüquqi şəxs olan utilizator ləğv edildikdə;

fiziki şəxs olan utilizator öldükdə və ya qanuni qüvvəyə minmiş məhkəmə qərarı ilə ölmüş və ya itkin düşmüş elan edildikdə;

bu Qanunun 14-4-cü və 14-6-cı maddələrində nəzərdə tutulan tələblərin və vəzifələrin yerinə yetirilməməsi ilə bağlı bir təqvim ili müddətində 3 (üç) dəfədən artıq qanunla müəyyən olunan məsuliyyətə cəlb edilərək barəsində qanuni qüvvəyə minmiş inzibati tənbehvermə haqqında qərar olduqda.

Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) bu maddənin on dördüncü hissəsinin beşinci abzasında nəzərdə tutulan inzibati tənbehvermə haqqında qərarlar qüvvəyə mindiyi gündən 5 (beş) iş günü müddətində onların surətini operatora göndərir.

Utilizatorun qeydiyyatı ləğv edildikdə onun qeydiyyat nömrəsi silinmir, başqasına verilmir və bu barədə reyestrdə müvafiq qeyd aparılır.

Reyestrdə qeydiyyata alınmış utilizatorlar bu maddənin ikinci və üçüncü hissələrində nəzərdə tutulan məlumatlarda dəyişiklik baş verdiyi gündən 5 (beş) iş günü müddətində həmin dəyişikliyin reyestrə daxil edilməsi məqsədilə operatora məlumat verməlidirlər.

Dəyişikliklərin qeydiyyatı bu maddənin dördüncü hissəsində, beşinci hissəsinin ikinci - dördüncü abzaslarında və altıncı - on ikinci hissələrində nəzərdə tutulan qaydada həyata keçirilir.

Reyestrdə dəyişiklik edilərkən qeydiyyat nömrəsi dəyişilmir.

Utilizatorların reyestrdə qeydiyyatı və reyestrə daxil edilmiş məlumatlarda dəyişiklik edilməsi ödənişsiz həyata keçirilir.

Reyestr kağız (reyestr kitabı) və elektron formada tərtib edilir. Kağız və elektron daşıyıcılardakı qeydlər arasında uyğunsuzluq olduqda kağız daşıyıcılar üzərində olan qeydlərə üstünlük verilir.

Reyestr kitabı qaytanlanır, səlahiyyətli vəzifəli şəxs tərəfindən imzalanır və möhürlənir.

**Maddə 14-6. Nəqliyyat vasitələrinin utilizasiyası fəaliyyətini həyata keçirən şəxslərin vəzifələri**

Nəqliyyat vasitələrinin utilizasiyası fəaliyyətini həyata keçirən şəxslərin bu fəaliyyətlə bağlı aşağıdakı vəzifələri vardır:

utilizasiya prosesində ətraf mühitə zərərli maddələrin atılmasının qarşısının alınması üçün zəruri tədbirlər görmək;

"Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan hallarda tullantıların utilizasiyası sahəsində lisenziya və ya icazə tələb olunan müvafiq fəaliyyət növlərini və ya hərəkətləri müvafiq lisenziya və ya icazə alındıqdan sonra həyata keçirmək;

yanacaq çənini, partlayıcı xüsusiyyətə malik detalları (xüsusilə hava yastıqlarını), o cümlədən təhlükəli tullantılara xas olan digər xüsusiyyətlərə malik hissələri təhlükəsiz qaydada sökmək;

yanacaq, mühərrik və transmissiya yağı, hidravlik ötürücü sistemlərin mayeləri, soyuducu və əyləc mayeləri, kondisioner sistemindəki mayelər və digərləri daxil olmaqla mayeləri ayrı-ayrı hermetik qablara boşaltmaq;

təhlükəli tullantıları çeşidləyərək ayrı toplamaq və onlarla bağlı bu Qanunun tələblərinə uyğun tədbirləri həyata keçirmək;

toplanmış tullantıları onların təkrar emalını və ya zərərsizləşdirilməsini həyata keçirən ixtisaslaşmış şəxslərə satmaq və ya təhvil vermək;

birbaşa utilizasiya proseslərinə yalnız peşə hazırlığına malik olan işçi heyətini cəlb etmək;

birbaşa utilizasiya proseslərinə cəlb edilən işçi heyətinin əməyin mühafizəsi üzrə təlimatlandırılmasını və biliklərinin yoxlanılmasını təmin etmək.

Bu maddənin birinci hissəsində nəzərdə tutulan vəzifələrin və bu Qanunun 14-4-cü maddəsində nəzərdə tutulan tələblərin yerinə yetirilməsinə nəzarət müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.

**Maddə 14-7. Nəqliyyat vasitələrinin utilizasiyaya verilməsi**

Nəqliyyat vasitələri utilizasiyaya aşağıdakılar tərəfindən verilir:

nəqliyyat vasitələrinin sahibi və ya sərəncam vermək hüququ olan digər şəxs;

aşağıdakı nəqliyyat vasitələri üzrə "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun 27-ci maddəsinin II və III hissələrinə uyğun olaraq onların dövlət qeydiyyatını həyata keçirən aidiyyəti orqanlar (bundan sonra - dövlət qeydiyyatı orqanı):

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi ilə müəyyən edilmiş qaydada sahibsiz hesab edilən;

istismara yararsız vəziyyətdə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) mühafizə olunan dayanacağında saxlanılan, əgər nəqliyyat vasitəsinin sahibi və ya sərəncam vermək hüququ olan digər şəxs yazılı şəkildə imtina edibsə.

Nəqliyyat vasitələri utilizasiyaya verilməzdən əvvəl "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun 27-ci maddəsinin IX-I və IX-II hissələri ilə müəyyən edilən qaydada dövlət qeydiyyatı üzrə daimi uçotdan çıxarılmalıdır.

Nəqliyyat vasitələri utilizasiyaya verildikdə utilizatorlar tərəfindən aşağıdakı sənədlər tələb edilir:

nəqliyyat vasitəsinin utilizasiyası üçün ərizə;

nəqliyyat vasitəsini utilizasiyaya mülkiyyətçi adından digər şəxs verdikdə nəqliyyat vasitəsinə dair sərəncamvermə hüququnu təsdiq edən etibarnamə;

nəqliyyat vasitəsinin dövlət qeydiyyatı üzrə daimi uçotdan çıxarılması barədə aidiyyəti dövlət qeydiyyat orqanının yazılı məlumatı;

fiziki şəxsin şəxsiyyətini təsdiq edən, hüquqi şəxsin dövlət qeydiyyatını təsdiq edən sənədin surəti.

Ərizəyə baxılması və sənədlərdə hər hansı çatışmazlıq və ya uyğunsuzluq olduqda onun baxılmamış saxlanılması bu Qanunun 14-5-ci maddəsinin altıncı - onuncu hissələrində müəyyən edilmiş qaydada həyata keçirilir.

Göstərilən sənədlərdə hər hansı çatışmazlıq və ya uyğunsuzluq olmadıqda utilizasiyaya verilən nəqliyyat vasitəsinin təhvil alınması barədə akt (bundan sonra - akt) tərtib olunur və aktda aşağıdakılar göstərilir:

nəqliyyat vasitəsinin ümumi texniki vəziyyəti və komplektliyi barədə məlumat;

nəqliyyat vasitəsinin eyniləşdirmə məlumatları;

nəqliyyat vasitəsinin mövcud olmayan hissələri barədə məlumatlar;

güzəşt məbləği və birdəfəlik ödənişin həcmi barədə məlumat.

Akt ciddi hesabat blankıdır və 3 (üç) nüsxədə tərtib edilir. Aktın hər bir nüsxəsinə sayı beşdən az olmamaq şərtilə utilizasiyaya verilən nəqliyyat vasitəsinin fotoşəkilləri (ön, arxa, hər iki yandan və içəridən) əlavə edilir.

Nəqliyyat vasitəsi akt əsasında təhvil alındıqdan sonra 2 (iki) iş günü müddətində utilizator tərəfindən bu Qanunun 14-8-ci maddəsinin tələbləri nəzərə alınmaqla utilizasiyaya verilmə barədə təsdiqedici sənəd verilir. Təsdiqedici sənəd ciddi hesabat blankıdır və 3 (üç) nüsxədə tərtib edilir.

Aktın və təsdiqedici sənədin bir nüsxəsi utilizatorda, bir nüsxəsi nəqliyyat vasitəsini utilizasiyaya verən şəxsdə saxlanılır, bir nüsxəsi isə utilizator tərəfindən 3 (üç) iş günü müddətində operatora göndərilir.

Nəqliyyat vasitəsinin utilizasiyası üçün ərizənin, nəqliyyat vasitəsinin təhvil alınması barədə aktın və utilizasiyaya verilmə barədə təsdiqedici sənədin formaları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

Təsdiqedici sənədin, güzəştin və birdəfəlik ödənişin tətbiqi ilə bağlı müddəalar istisna olmaqla, bu maddənin tələbləri qoşqu və yarımqoşqulara, habelə nəqliyyat vasitələrinin utilizasiyası fəaliyyətini həyata keçirən digər şəxslərə də şamil olunur.

**Maddə 14-8. Təsdiqedici sənədin, güzəştin və birdəfəlik ödənişin tətbiqinin xüsusiyyətləri**

Utilizasiyaya verilən hər nəqliyyat vasitəsinə görə utilizatorlar tərəfindən yalnız bir təsdiqedici sənəd verilir və güzəştin tətbiqi satın alınacaq yeni istehsal olunmuş yerli nəqliyyat vasitəsinin kateqoriyası üzrə məhdudlaşdırılmır.

Təsdiqedici sənəd verildiyi gündən 3 (üç) il müddətində qüvvədə olmaqla, yalnız bir dəfə istifadə üçün nəzərdə tutulur. Təsdiqedici sənəd adsızdır və başqa şəxs tərəfindən də istifadə edilə bilər.

Utilizasiyaya verilən müxtəlif nəqliyyat vasitələrinə görə verilmiş, qüvvədə olan və istifadə edilməmiş təsdiqedici sənədlər əsasında əldə edilən güzəşt məbləğlərinin cəmlənməklə istifadəsinə yol verilir.

Nəqliyyat vasitəsinin utilizasiyaya verilməsi barədə təsdiqedici sənəd əsasında yeni istehsal olunmuş yerli nəqliyyat vasitəsinə güzəştin tətbiqindən nəqliyyat vasitələrinin satıcısı tərəfindən imtina edilə bilməz.

Yeni istehsal olunmuş yerli nəqliyyat vasitələrinin satışı təsdiqedici sənədlər əsasında güzəşt tətbiq edilməklə həyata keçirildikdə nəqliyyat vasitələrinin satıcıları 3 (üç) iş günü müddətində alqı-satqını rəsmiləşdirən sənədlərin və təsdiqedici sənədlərin surətlərini, habelə onların tətbiq edildiyi nəqliyyat vasitələri barədə məlumatları (ban, şassi, mühərrik nömrəsi) operatora göndərirlər.

Operator nəqliyyat vasitələrinin satıcıları tərəfindən bu maddənin beşinci hissəsində qeyd olunan sənədlər təqdim edildiyi gündən 30 (otuz) iş günü müddətində müvafiq güzəşt məbləğinin nəqliyyat vasitələrinin utilizasiyası fondundan nəqliyyat vasitələrinin satıcılarının hesabına köçürülməsini təmin edir. Tətbiq edilən güzəşt məbləği satın alınan nəqliyyat vasitəsinin müqavilə üzrə satış dəyərindən çox olduqda güzəşt məbləğinin artıq olan hissəsi nəqliyyat vasitələrinin satıcılarına ödənilmir.

Təsdiqedici sənədə malik şəxs öz seçimi əsasında yeni istehsal olunmuş yerli nəqliyyat vasitəsinin satın alınması üçün güzəştin əvəzinə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən daha az həcmdə birdəfəlik ödəniş ala bilər.

Aşağıdakı nəqliyyat vasitələri üzrə birdəfəlik ödəniş məbləğləri dövlət büdcəsinə köçürülür:

- dövlət adından yaradılan publik hüquqi şəxslərə, dövlət idarə, müəssisə və təşkilatlarına məxsus olan;
- bu Qanunun 14-7-ci maddəsinin birinci hissəsinin üçüncü abzasına uyğun olaraq aidiyyəti dövlət qeydiyyat orqanı tərəfindən utilizasiyaya verilən.

Operator müvafiq təsdiqedici sənəd ona təhvil verildiyi gündən 30 (otuz) iş günü müddətində birdəfəlik ödəniş məbləğinin nəqliyyat vasitələrinin utilizasiyası fondundan aidiyyəti üzrə təsdiqedici sənədi təqdim edən şəxsin hesabına və ya dövlət büdcəsinə köçürülməsini təmin edir və ödənişin həyata keçirilməsi barədə sənədi təsdiqedici sənədi təqdim edən şəxsə verir.

**Maddə 14-9. Təsdiqedici sənədlər üzrə məlumatların verilməsi**

Utilizatorlar verdikləri təsdiqedici sənədlərlə bağlı hər növbəti təqvim ili yanvarın 20-dək operatora yazılı məlumat verirlər.

Nəqliyyat vasitələrinin satıcıları təsdiqedici sənədlərin uçotunu aparırlar və bununla bağlı hər növbəti təqvim ili yanvarın 20-dək operatora yazılı məlumat verirlər.

Operator təsdiqedici sənədlərin uçotunun aparılmasını təmin edir.

**Maddə 14-10. Utilizasiya nəticəsində əldə edilmiş yararlı material və əşyalar**

Utilizatorlar tərəfindən utilizasiya edilmiş nəqliyyat vasitələrindən əldə olunan yararlı materiallar və əşyalar mülki qanunvericiliyə uyğun olaraq bağlanılmış müqavilə əsasında ehtiyat hissələrinin emalı və satışı ilə məşğul olan sahibkarlıq subyektlərinə satılır.

Utilizatorlar bağlanılmış müvafiq müqavilənin və təhvil-təslim sənədlərinin surətlərini əlavə etməklə bu barədə hər növbəti təqvim ili yanvarın 20-dək operatora yazılı məlumat verirlər.".

6. Aşağıdakı məzmunda 25-ci maddə əlavə edilsin:

**"Maddə 25. Keçid müddəa**

Bu Qanunun 14-1-ci maddəsinin birinci-dördüncü hissələri və 14-3-cü maddəsi 2024-cü il fevralın 1-dən, II-I fəslinin digər müddəaları 2024-cü il sentyabrın 1-dən qüvvəyə minir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 iyun 2023-cü il*

## "İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 iyun tarixli 928-VIQD nömrəli Qanununun tətbiqi və "İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 26 oktyabr tarixli 3 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 iyun tarixli 928-VIQD nömrəli Qanununun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Tullantılar haqqında" Azərbaycan Respublikası Qanununun 14-1-ci maddəsinin dördüncü hissəsində və səkkizinci hissəsinin ikinci cümləsində, 14-2-ci maddəsinin birinci hissəsinin birinci abzasının birinci cümləsində və üçüncü hissəsində, 14-3-cü maddəsinin birinci və üçüncü hissələrində, 14-5-ci maddəsinin on beşinci hissəsində, 14-6-cı maddəsinin ikinci hissəsində, 14-7-ci maddəsinin birinci hissəsinin beşinci abzasında və doqquzuncu hissəsində, 14-8-ci maddəsinin yeddinci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 14-2-ci maddəsinin birinci hissəsinin birinci abzasının birinci cümləsində və 14-3-cü maddəsinin birinci hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

1.3. həmin Qanunun 14-1-ci maddəsinin dördüncü hissəsində və səkkizinci hissəsinin ikinci cümləsində, 14-3-cü maddəsinin üçüncü hissəsində və 14-8-ci maddəsinin yeddinci hissəsində nəzərdə tutulmuş orqanın (qurumun) səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla həyata keçirir;

1.4. həmin Qanunun 14-7-ci maddəsinin doqquzuncu hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.5. həmin Qanunun 14-2-ci maddəsinin üçüncü hissəsində, 14-5-ci maddəsinin on beşinci hissəsində və 14-6-cı maddəsinin ikinci hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi nəzərdə tutulur;

1.6. həmin Qanunun 14-7-ci maddəsinin birinci hissəsinin beşinci abzasında "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi nəzərdə tutulur;

1.7. həmin Qanunun 14-2-ci maddəsinin birinci hissəsinin birinci abzasının birinci cümləsində "nəqliyyat vasitələrinin utilizasiyası üzrə operator" dedikdə "Təmiz şəhər" Açıq Səhmdar Cəmiyyəti nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. üç ay müddətində:

2.1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 iyun tarixli 928-VIQD nömrəli Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.1.2. "Tullantılar haqqında" Azərbaycan Respublikası Qanununun 14-3-cü maddəsinin birinci hissəsinə uyğun olaraq, nəqliyyat vasitələrinin utilizasiyası fondunun yaradılması ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.1.3. aşağıdakı normativ hüquqi aktları Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin:

1. "Tullantılar haqqında" Azərbaycan Respublikası Qanununun 14-1-ci maddəsinin dördüncü hissəsinə və səkkizinci hissəsinin ikinci cümləsinə, 14-8-ci maddəsinin yeddinci hissəsinə uyğun olaraq, utilizasiya haqqının məbləğini, güzəşt məbləğini və birdəfəlik ödənişin həcmini;

2. həmin Qanunun 14-3-cü maddəsinin üçüncü hissəsinə uyğun olaraq, nəqliyyat vasitələrinin utilizasiyası fondunun vəsaitinin formalaşdırılması və istifadə qaydasını;

2.1.4. həmin Qanunun 14-7-ci maddəsinin doqquzuncu hissəsinə uyğun olaraq, nəqliyyat vasitəsinin utilizasiyası üçün ərizənin, nəqliyyat vasitəsinin təhvil alınması barədə aktın və utilizasiyaya verilmə barədə təsdiqedici sənədin formalarını təsdiq edib Azərbaycan Respublikası Prezidentinə məlumat versin;

2.2. "İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 iyun tarixli 928-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

3. "Təmiz şəhər" Açıq Səhmdar Cəmiyyəti "İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 iyun tarixli 928-VIQD nömrəli Qanunundan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

4. "İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 26 oktyabr tarixli 3 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 10, maddə 611; 2003, № 10, maddə 546; 2007, № 2, maddə 87, № 6, maddə 601; 2012, № 7, maddə 681; 2016, № 1, maddə 51; 2019, № 1, maddə 67; 2020, № 7, maddə 869; 2021, № 7, maddə 726) aşağıdakı dəyişikliklər edilsin:

4.1. adında və preambulada "İstehsalat və məişət tullantıları" sözləri "Tullantılar" sözü ilə əvəz edilsin;

4.2. 2-ci hissə üzrə:

4.2.1. 2.1-ci bənddə "İstehsalat və məişət tullantıları" sözləri "Tullantılar" sözü ilə və "və 12-2-ci maddəsinin ikinci hissəsinin ikinci cümləsində" sözləri ", 12-2-ci maddəsinin ikinci hissəsinin ikinci cümləsində, 14-1-ci maddəsinin dördüncü hissəsində və səkkizinci hissəsinin ikinci cümləsində, 14-2-ci maddəsinin birinci hissəsinin birinci abzasının birinci cümləsində və üçüncü hissəsində, 14-3-cü maddəsinin birinci və üçüncü hissələrində, 14-5-ci maddəsinin on beşinci hissəsində, 14-6-cı maddəsinin ikinci hissəsində, 14-7-ci maddəsinin birinci hissəsinin beşinci abzasında və doqquzuncu hissəsində, 14-8-ci maddəsinin yeddinci hissəsində" sözləri ilə əvəz edilsin;

4.2.2. 2.1-1-ci və 2.1-2-ci bəndlər müvafiq olaraq 2.1-3-cü və 2.1-4-cü bəndlər hesab olunsun və aşağıdakı məzmunda 2.1-1-ci, 2.1-2-ci və 2.10-1-ci bəndlər əlavə edilsin:

"2.1-1. həmin Qanunun 14-2-ci maddəsinin birinci hissəsinin birinci abzasının birinci cümləsində və 14-3-cü maddəsinin birinci hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

2.1-2. həmin Qanunun 14-1-ci maddəsinin dördüncü hissəsində və səkkizinci hissəsinin ikinci cümləsində, 14-3-cü maddəsinin üçüncü hissəsində və 14-8-ci maddəsinin yeddinci hissəsində nəzərdə tutulmuş orqanın (qurumun) səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla həyata keçirir;";

"2.10-1. həmin Qanunun 14-7-ci maddəsinin birinci hissəsinin beşinci abzasında "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi nəzərdə tutulur;";

4.2.3. 2.1-3-cü bəndə "cümləsində" sözündən sonra "və 14-7-ci maddəsinin doqquzuncu hissəsində" sözləri əlavə edilsin;

4.2.4. 2.12-ci bəndə "dördüncü hissəsində" sözlərindən sonra ", 14-2-ci maddəsinin üçüncü hissəsində, 14-5-ci maddəsinin on beşinci hissəsində və 14-6-cı maddəsinin ikinci hissəsində" sözləri əlavə olunsun və həmin bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin;

4.2.5. aşağıdakı məzmunda 2.13-cü bənd əlavə edilsin:

"2.13. həmin Qanunun 14-2-ci maddəsinin birinci hissəsinin birinci abzasının birinci cümləsində "nəqliyyat vasitələrinin utilizasiyası üzrə operator" dedikdə "Təmiz şəhər" Açıq Səhmdar Cəmiyyəti nəzərdə tutulur.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 iyul 2023-cü il*

## Sosial müdafiəyə xüsusi ehtiyacı olan bir sıra şəxslərin təhsil haqqının dövlət büdcəsi vəsaiti hesabına ödənilməsi mexanizminin təkmilləşdirilməsi və "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş və Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan, hərbi əməliyyatla əlaqədar itkin düşən və məhkəmə tərəfindən ölmüş elan edilən vətəndaşların uşaqlarının təhsil xərclərinin ödənilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 18 mart tarixli 347 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş və Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan, hərbi əməliyyatla əlaqədar itkin düşən və məhkəmə tərəfindən ölmüş elan edilən vətəndaşların uşaqlarının təhsil xərclərinin ödənilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 18 mart tarixli 347 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 3, maddə 292; 2016, № 7, maddə 1297; 2019, № 3, maddə 443; 2020, № 8, maddə 1065) aşağıdakı dəyişikliklər edilsin:

1.1. adına "uşaqlarının" sözündən sonra ", həmçinin Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etdiyinə görə "Müharibə veteranı" adı almış şəxslərin" sözləri əlavə edilsin;

1.2. 1-ci hissədən ", Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində" sözləri çıxarılsın və həmin hissədə "2010-cu il 25 iyun tarixli 120 nömrəli qərarı ilə təsdiq edilmiş" sözləri "təsdiq etdiyi" sözləri ilə əvəz edilsin;

1.3. aşağıdakı məzmunda 1-1-ci hissə əlavə edilsin:

"1-1. Azərbaycan Respublikasının ali təhsil müəssisələrində bakalavriat və magistratura (əsas (baza ali) tibb təhsili və rezidentura) təhsil səviyyələrində və orta ixtisas təhsili müəssisələrində ödənişli əsaslarla təhsil alan Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etdiyinə görə "Müharibə veteranı" adı almış şəxslərin təhsil müddəti ərzində təhsil haqqı 2023/2024-cü tədris ilindən etibarən Azərbaycan Respublikası Nazirlər Kabinetinin təsdiq etdiyi təhsil xərcləri miqdarında dövlət büdcəsi vəsaiti hesabına ödənilsin.".

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti sosial müdafiəyə xüsusi ehtiyacı olan bir sıra şəxslərin təhsil müəssisələrində ödənişli əsaslarla təhsil aldıqları müddətdə təhsil haqqının dövlət büdcəsi vəsaiti hesabına ödənilməsi ilə əlaqədar normativ hüquqi aktların təkmilləşdirilməsinə dair təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

3. Bu Sərəncam 2023-cü il sentyabrın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 iyul 2023-cü il*

## "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 18-ci və 20-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

"Hərbi vəzifə və hərbi xidmət haqqənda" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 2, maddə 56; 2015, № 2, maddə 92, № 5, maddə 496, № 7, maddə 821; 2016, № 6, maddələr 999, 1007; 2017, № 10, maddə 1769; 2018, № 7 (I kitab), maddə 1425, № 11, maddələr 2204, 2205; 2019, № 2, maddə 187, № 4, maddə 579, № 5, maddə 797, № 6, maddə 986; 2020, № 7, maddə 831, № 11, maddə 1338; 2021, № 3, maddə 210; 2022, № 5, maddələr 433, 440; 2023, № 2, maddə 190) aşağıdakı dəyişikliklər edilsin:

1. 2.0.5-ci maddənin birinci cümləsindən "yaşayış yeri və ya olduğu yer üzrə" sözləri və ikinci cümləsi çıxarılsın.

2. 4-cü maddə üzrə:

2.1. 4.4-cü maddədə "orqanından ehtiyata" sözləri "orqanının ehtiyatına" sözləri ilə əvəz edilsin və həmin maddəyə "aparılır" sözündən əvvəl "mərkəzləşdirilmiş qaydada" sözləri əlavə edilsin;

2.2. aşağıdakı məzmunda 4.5-ci maddə əlavə edilsin:

"4.5. Müvafiq icra hakimiyyəti orqanında müddətli həqiqi hərbi xidmətdən ehtiyata buraxılmış, həmçinin müvafiq icra hakimiyyəti orqanında həqiqi hərbi xidmətdən buraxılıb həmin orqanın ehtiyatına keçirilməmiş və ya hərbi qeydiyyatından çıxarılmış hərbi vəzifəlilər bu Qanunun 4.2-ci maddəsində nəzərdə tutulmuş qaydada hərbi qeydiyyata alınırlar.".

3. 7-ci maddə üzrə:

3.1. 7.1-ci maddəyə "Vətəndaşlar" sözündən sonra "(bu Qanunun 4.4-cü maddəsində nəzərdə tutulmuş hərbi vəzifəlilər istisna olmaqla)" sözləri əlavə edilsin;

3.2. 7.2-ci maddəyə "Hərbi vəzifəlilər" sözlərindən sonra "(bu Qanunun 4.4-cü maddəsində nəzərdə tutulmuş hərbi vəzifəlilər istisna olmaqla)" sözləri əlavə edilsin.

4. 8.2.1-ci maddəyə "qeydləri" sözündən sonra ", bu Qanunun 4.4-cü maddəsində nəzərdə tutulmuş hərbi vəzifəliləri isə onların hərbi qeydiyyat sənədlərində hərbi qeydiyyatda olmaları barədə müvafiq icra hakimiyyəti orqanının qeydi" sözləri əlavə edilsin.

5. 28.6-cı maddənin ikinci cümləsində "orqanından ehtiyata" sözləri "orqanının ehtiyatına" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 iyun 2023-cü il*

## "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 13 iyun tarixli 914-VIQD nömrəli Qanununun tətbiqi və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti haqqında Əsasnamə"nin təsdiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 fevral tarixli 593 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 13 iyun tarixli 914-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 4.5-ci maddəsində (birinci halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti həyata keçirir;

1.2. həmin Qanunun 4.5-ci maddəsində (ikinci halda) və 8.2.1-ci maddəsində (ikinci halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti və Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti həyata keçirirlər.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 4.5-ci maddəsinə uyğun olaraq, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətində müddətli həqiqi hərbi xidmətdən ehtiyata buraxılmış, həmçinin Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətində və ya Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidmətində həqiqi hərbi xidmətdən buraxılıb həmin orqanın ehtiyatına keçirilməmiş və ya hərbi qeydiyyatından çıxarılmış hərbi vəzifəlilərin hərbi qeydiyyata alınması prosedurunun müəyyən edilməsi məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 26 sentyabr tarixli 213 nömrəli Qərarı ilə təsdiq edilmiş "Çağırışçıların və hərbi vəzifəlilərin hərbi qeydiyyatının aparılması Qaydası"nda üç ay müddətində müvafiq dəyişikliklər edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 13 iyun tarixli 914-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

3. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti haqqında Əsasnamə"nin təsdiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 fevral tarixli 593 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 2, maddə 82; 2015, № 2, maddə 138, № 7, maddə 831, № 11, maddə 1320; 2016, № 6, maddə 1034, № 10, maddə 1612; 2017, № 12 (I kitab), maddələr 2282, 2294; 2018, № 11, maddə 2258; 2019, № 5, maddə 847; 2020, № 7, maddə 878, № 11, maddə 1349; 2021, № 1, maddə 36; 2022, № 4, maddələr 314, 324, № 8, maddə 871; 2023, № 1, maddə 84, № 3, maddə 344, № 4, maddə 471) 5-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 5.2-ci bənddən "2.0.5-ci maddəsinin ikinci cümləsində," sözləri çıxarılsın və həmin bənddə "28.6-cı maddəsinin ikinci" sözləri "28.6-cı maddəsinin üçüncü" sözləri ilə əvəz edilsin;

3.2. aşağıdakı məzmunda 5.2-1 - 5.2-3-cü bəndlər əlavə edilsin:

"5.2-1. həmin Qanunun 2.0.5-ci və 7.3-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli baş idarə, idarə, şöbə və bölmələri və öz ehtiyatına keçirilmiş hərbi vəzifəlilərə münasibətdə Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti və Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti həyata keçirirlər;

5.2-2. həmin Qanunun 4.4-cü, 4.5-ci (ikinci halda), 8.2.1-ci (ikinci halda) maddələrində və 28.6-cı maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti və Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti həyata keçirirlər;

5.2-3. həmin Qanunun 4.5-ci maddəsində (birinci halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti həyata keçirir;";

3.3. 5.4-cü bənddən "2.0.5-ci maddəsinin birinci cümləsində," sözləri çıxarılsın, həmin bənddə ", 7.3-cü maddələrində" sözləri "maddəsində" sözü ilə əvəz olunsun və həmin bəndə "8.2.1-ci" sözlərindən sonra "(birinci halda)" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 iyul 2023-cü il*

## "Azərbaycan Respublikasının Elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 fevral tarixli 936 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikasının Elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 fevral tarixli 936 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 2, maddə 94) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1. "Ramiz Mehdiyev" sözləri "İsa Həbibbəyli" sözləri ilə əvəz edilsin.

2. "Əbülfəs Qarayev" sözləri "Adil Kərimli" sözləri ilə əvəz edilsin.

3. "Oqtay Şirəliyev" sözləri "Teymur Musayev" sözləri ilə əvəz edilsin.

4. "Ceyhun Bayramov - Azərbaycan Respublikasının Təhsil naziri" sözləri "Emin Əmrullayev - Azərbaycan Respublikasının elm və təhsil naziri" sözləri ilə əvəz edilsin.

5. "İbrahim Quliyev" sözləri "Arif Həşimov" sözləri ilə əvəz edilsin.

6. "İsa Həbibbəyli - Azərbaycan Milli Elmlər Akademiyasının birinci vitse-prezidenti" sözləri "İbrahim Quliyev - Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti" sözləri ilə əvəz edilsin.

7. "Ömər Eldarov" sözləri "Natiq Əliyev" sözləri ilə əvəz edilsin.

8. "Natiq Əliyev - Xalq rəssamı" sözləri "Ömər Eldarov - Xalq rəssamı" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 iyul 2023-cü il*

# Baş nazir Əli Əsədovun sədrliyi ilə Nəqliyyatı Əlaqələndirmə Şurasının iclası keçirilib





İyulun 28-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun sədrliyi ilə Nəqliyyatı Əlaqələndirmə Şurasının iclası keçirilib.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda ölkədə yol və nəqliyyat infrastrukturunun yaxşılaşdırılması, Bakı şəhərində tıxac probleminin həlli, ictimai nəqliyyatda əlçatanlığın artırılması və ictimai nəqliyyatın idarəedilməsi sisteminin optimallaşdırılması, Bakı Metropoliteninin inkişaf etdirilməsi, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi və digər məsələlər müzakirə olunub.

Şuranın sədri, Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyevin məruzəsi dinlənilib.

Azərbaycan Respublikası Prezidentinin tapşırığına uyğun olaraq, ölkədə nəqliyyat mobilliyinin transformasiyası və Bakı Metropoliteninin potensialının qiymətləndirilməsi proqramlarının icrasına dair təqdimatlar keçirilib.

İclasda həmçinin ölkədə, xüsusilə də Bakı şəhərində nəqliyyat sisteminin təkmilləşdirilməsi və işinin səmərəli təşkili ilə bağlı aidiyyəti qurumların rəhbərlərinin məruzələri dinlənilib, müvafiq tapşırıqlar verilib.

# Kolumbiyanın ölkəmizdəki yeni səfiri Azərbaycanın sülh səyləri haqqında məlumatlandırılıb

İyulun 28-də xarici işlər naziri Ceyhun Bayramov Kolumbiya Respublikasının ölkəmizə yeni təyin edilmiş səfiri Luis Fernando Kuartas Ayala ilə görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, Kolumbiya səfiri etimadnaməsinin surətini nazir Ceyhun Bayramova təqdim edib. Nazir Ceyhun Bayramov Luis Fernando Kuartas Ayalanı Azərbaycana səfir təyin olunması münasibətilə təbrik edib və ona gələcək fəaliyyətində uğurlar arzulayıb.

Görüş zamanı tərəflər ikitərəfli əlaqələrin əhəmiyyəti, siyasi məsləhətləşmələr mexanizminin tətbiq edilməsi, qarşılıqlı səfərlərin faydası və parlamentlərarası əlaqələrin genişləndirilməsinin vacibliyini qeyd edərək, təhsil və turizm sahələrində əməkdaşlığın daha da gücləndirilməsinin əhəmiyyətini vurğulayıblar.

Görüşdə nazir Ceyhun Bayramov qarşı tərəfə Ermənistanın Azərbaycan ərazilərini 30 ilə yaxın işğal altında saxlaması, bu torpaqlardakı qanunsuz fəaliyyəti, etnik təmizləmə siyasəti, postmünaqişə dövründə Azərbaycanın sülh səyləri haqqında ətraflı məlumat verib. Hazırda bölgədə sülh səylərinə baxmayaraq, Ermənistanın təxribatlarının prosesə maneçilik törətdiyi bildirilib.

Görüşdə tərəflər həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# Azərbaycan və İsrail auditorları arasında kadr hazırlığı sahəsində təcrübə mübadiləsi müzakirə edilib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin proqram xarakterli göstərişlərini rəhbər tutaraq, müstəqil maliyyə nəzarəti sahəsində mütərəqqi dünya təcrübəsini öyrənmək və milli iqtisadiyyatın xüsusiyyətlərini nəzərə almaqla ölkəmizdə tətbiqini genişləndirmək və beynəlxalq təcrübədən daha səmərəli bəhrələnmək məqsədilə iyulun 28-də Auditorlar Palatası ilə İsrailin Sertifikatlaşdırılmış İctimai Mühasiblər İnstitutu arasında anlaşma memorandumunun imzalanmasına dair tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, Auditorlar Palatasının sədri professor Vahid Novruzov 1931-ci ildə yaradılmış, BMF-nin qurucularından biri olan və 1977-ci ildən həmin beynəlxalq qurumun üzvü olan İsrailin Sertifikatlaşdırılmış İctimai Mühasiblər İnstitutunun peşəkar milli qurum olaraq İsrailin bütün ərazisində mühasibatlıq və audit peşələrinin inkişafında həlledici rol oynadığını deyib. Bildirib ki, Ümummilli Lider Heydər Əliyevin adı ilə bilavasitə bağlı olan müstəqil auditin ölkəmizdə formalaşdırılması və onun normativ-hüquqi bazasının yaradılması qısa zaman kəsiyində maliyyə nəzarətinin bu müstəqil növünün uğurlu inkişafına imkan yaradıb. Ölkəmizdə auditor fəaliyyətinin dövlət tənzimlənməsi Auditorlar Palatası tərəfindən həyata keçirilir. Palatanın fəaliyyəti dövründə ölkədə beynəlxalq audit standartlarının tətbiqi reallaşdırılmış, auditor kadrlarının hazırlanması, normativ-metodiki bazanın yaradılması, auditorların fəaliyyətinə effektiv nəzarətin qurulması sahəsində xeyli iş görülüb. Palata beynəlxalq və regional peşə qurumlarında, o cümlədən Beynəlxalq Mühasiblər Federasiyası və Avropa Mühasiblər və Auditorlar Federasiyası kimi çox nüfuzlu mötəbər təşkilatlarda 2008-ci ildən ölkəmizi layiqincə təmsil edir.

Vahid Novruzov qeyd edib ki, hər iki qurum arasındakı əməkdaşlıq iqtisadi inkişafın müasir mərhələsində şəffaflığın təmin edilməsində və hesabatlılığın yüksək səviyyədə qurulmasında, kölgə iqtisadiyyatının aradan qaldırılmasında, dövlət və qeyri-dövlət nəzarətinin, o cümlədən müstəqil auditin rolunun getdikcə artırılmasına, bu sahədə mövcud olan problemlərin və qarşıda duran vəzifələrin yerinə yetirilməsinə geniş imkanlar yaradacaq: "Bu sahədə İsrailin böyük nailiyyətlərindən bizim xəbərimiz var və biz ölkə iqtisadiyyatında şəffaflığı artırmaq üçün bu müsbət təcrübədən istifadə etmək və qeyri-dövlət maliyyə nəzarətinin səviyyəsini yüksəltmək, rəqəmsallaşmanı geniş tətbiq etmək istəyirik. Ümidvaram ki, israilli həmkarlarımız da auditin innovativ inkişafı, kölgə iqtisadiyyatına qarşı mübarizə və auditdə rəqəmsallaşmanın tətbiqi sahəsində bizim əldə etdiyimiz nəticələrdən bəhrələnə biləcəklər".

İsrailin Sertifikatlaşdırılmış İctimai Mühasiblər İnstitutunun (ICPAI) prezidenti Çen Şrayber qurumlar arasındakı əməkdaşlığın tərəflərin fəaliyyət göstərdiyi ərazilərdə mühasiblərin, auditorların və digər bu kimi peşə sahiblərinin inkişafında, təşkilatların üzvlərinin peşə səviyyəsinin yüksəldilməsində, tərəflərin mütəxəssisləri arasında işgüzar əlaqələrin yaradılmasında böyük rol oynayacağını vurğulayıb. Eyni zamanda Çen Şrayber İsrailin Sertifikatlaşdırılmış İctimai Mühasiblər İnstitutunun fəaliyyəti barədə iştirakçılara geniş məlumat verib və qeyd edib ki, Azərbaycan Respublikasının Auditorlar Palatası ilə İsrailin Sertifikatlaşdırılmış İctimai Mühasiblər İnstitutu arasında bundan sonra əlaqələr daha sıx şəkildə olacaq və qurumlarımız arasında istər audit, istərsə də mühasibatlıq sahəsində təcrübə mübadiləsi aparılacaq.

Sonra Azərbaycan Respublikasının Auditorlar Palatası ilə İsrailin Sertifikatlaşdırılmış İctimai Mühasiblər İnstitutu arasında anlaşma memorandumu imzalanıb.

Hesablama Palatasının sədri Vüqar Gülməmmədov hər iki qurumun gələcək fəaliyyətlərinə uğurlar arzulayıb və bildirib ki, imzalanacaq bu saziş ölkələrimizin auditorları və mühasibləri üçün uğurlu əməkdaşlığa, birgə fəaliyyətə və bütövlükdə audit peşəsinin inkişafına mühüm töhfə verəcəkdir.

V.Gülməmmədov bildirib ki, maliyyə sahəsində, o cümlədən audit və mühasibat uçotu ilə bağlı kadr potensialının gücləndirilməsi dövlət maliyyəsinin idarəedilməsi üzrə islahatların uğurla reallaşdırılmasına xidmət edir. Hesabat ilində ilk dəfə həyata keçirilən qurum səviyyəsində konsolidə edilmiş maliyyə hesabatlarının auditinin ilkin nəticələri maliyyə uçotu və hesabatlılığının beynəlxalq standartlara uyğun aparılmasında qurumların tabeliyində olan bəzi müəssisələrinin birləşdirilmiş hesabatda nəzərə alınmaması, tabe qurumları tərəfindən uçotun köhnə mühasibat uçotu əsasında aparılması və yalnız birləşdirilmiş hesabatın tərtibi zamanı beynəlxalq standartlara uyğunlaşdırılması, qurumdaxili əməliyyatların konsolidasiyanın aparılması zamanı diqqətə alınmaması, bəzi müəssisələrin debitor borclarının göstəricilərinin hesabatlılıqda əks olunmaması kimi bəzi problemlərin olduğunu göstərir. Bu, həm konsolidasiyanın fəlsəfəsinin başa düşülməməsindən, həm də peşəkar potensial boşluqlarının olmasından irəli gəlir. Bu sahədə hüquqi bazanın təkmilləşdirilməsi, təkmil IT infrastrukturun qurulması və IT sistemlərin inteqrasiyası əhəmiyyətlidir.

Tədbirdə Azərbaycan və İsrail auditinin mövcud problemləri, onların həlli yolları, auditor peşəsinin inkişafı və kadr hazırlığı sahəsində təcrübə mübadiləsi və əməkdaşlıq istiqamətləri üzrə ətraflı müzakirələr və geniş fikir mübadiləsi aparılıb.

# Prezidentin göstərişi ilə bölgələrdə vətəndaşların qəbulu keçirilir

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Zaqatala rayonunda Zaqatala və Balakən rayonlarının sakinləri ilə görüşüb.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, qəbul zamanı vətəndaşlar aktiv məşğulluq proqramlarına, o cümlədən özünüməşğulluq proqramına cəlb edilmə, ünvanlı sosial yardım, mənzil təminatı, əlillik və s. məsələlərlə bağlı müraciət ediblər. Müraciət edənlər sırasında şəhid ailələrinin üzvləri və müharibə iştirakçıları da olub.

Hər bir müraciət fərdi qaydada araşdırılaraq nəticəsinə uyğun tədbirlər görülüb.

Vətəndaşlar müraciətlərinə əsasən aktiv məşğulluq proqramlarına, o cümlədən özünüməşğulluq, ictimai işlər proqramlarına, reabilitasiya xidmətlərinə cəlb edilmələri üçün qeydiyyata alınıblar. Sorğu xarakterli müraciətlərlə bağlı müvafiq mövzularda izahatlar verilib.

# Mərkəzi Çağırış Komissiyasının növbəti iclası



İyulun 28-də Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Aparatında vətəndaşların müddətli həqiqi hərbi xidmətə çağırılması ilə bağlı Mərkəzi Çağırış Komissiyasının iclası keçirilib.

Qurumdan AZƏRTAC-a bildiriblər ki, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi Mürsəl İbrahimovun sədrliyi ilə keçən iclasda Azərbaycan Prezidentinin "Azərbaycan Respublikası vətəndaşlarının 2023-cü il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında" Sərəncamının icra vəziyyəti və gündəliyə çıxarılan məsələlər müzakirə olunub.

Dövlət Xidməti sərəncamın icrasını müvəffəqiyyətlə davam etdirir və silahlı qüvvələrin müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları ilə keyfiyyətlə komplektləşdirilməsini həyata keçirir. Çağırışçıların silahlı qüvvələr üzrə bölgüsü prosesində operativliyin və şəffaflığın təmin edilməsi məqsədilə kompleks tədbirlərin görüldüyü diqqətə çatdırılıb. Çağırışçıların tibb müəssisələrində əlavə müayinələrdən keçirilməsinə nəzarətin gücləndirilməsi və tibbi şəhadətləndirmə işinin keyfiyyətinin artırılmasının əhəmiyyəti vurğulanıb.

Azərbaycan Prezidenti İlham Əliyevin ali rəhbərliyi ilə reallaşdırılan strateji kursun və dövlət siyasətinin prioritetlərinə uyğun olaraq müddətli həqiqi hərbi xidmətə çağırış sahəsində şəffaflığın daha da artırılması, korrupsiyaya şərait yaradan halların qarşısının alınması, korrupsiyaya qarşı mübarizə ilə bağlı görülən tədbirlərin davamlılığının təmin edilməsi ilə bağlı xidmət tərəfindən qısa müddətdə zəruri işlərin görüldüyü qeyd olunub.

Qeyd edək ki, Mərkəzi Çağırış Komissiyası Nazirlər Kabinetinin müvafiq qərarı ilə yaradılıb və rayon (şəhər) Çağırış komissiyalarının fəaliyyətinə nəzarət edir.

# Bakıda AHİK və TÜRK İŞ-in birgə toplantısı olub

İyulun 28-də Bakıda Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK) və Türkdilli dövlətlərin həmkarlar ittifaqlarının iştirakı ilə birgə toplantı keçirilib.



AZƏRTAC xəbər verir ki, tədbirdə AHİK, Türkiyənin İşçi Həmkarlar İttifaqları Təşkilatları Konfederasiyası ("Türk-İş"), Qazaxıstan Həmkarlar İttifaqları Federasiyası, Qırğızıstan Həmkarlar İttifaqları Federasiyası və Özbəkistan Həmkarlar İttifaqları Federasiyasının rəhbərliyi iştirak edib.

Tədbirdən əvvəl Fəxri xiyabanda Ulu Öndərin məzarı, Şəhidlər xiyabanı və "Türk şəhidliyi" abidəsi ziyarət olunub.

Sonra "Fairmont Baku" hotelində Ergün Atalayın sədrliyi ilə TÜRK İŞ-in İdarə Heyətinin səyyar iclası keçirilib. İclasda təşkilati məsələlərə baxılıb, müvafiq qərarlar qəbul olunub. Həmçinin quruma üzv təşkilatların rəhbərlərinin ötən dövr ərzində görülən işlərlə bağlı hesabatları dinlənilib, gələcək fəaliyyət planı müzakirə edilib.

Daha sonra Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və Türkiyənin İşçi Həmkarlar İttifaqları Təşkilatları Konfederasiyasının birgə toplantısı öz işinə başlayıb. Tədbirdə əvvəlcə Vətən uğrunda şəhid olmuş oğul və qızlarımızın, həmçinin bu il Türkiyədə baş vermiş zəlzələ nəticəsində həyatını itirən insanların əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Tədbiri giriş sözü ilə açan Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Azərbaycanla Türkiyə arasında mövcud olan qardaşlıq münasibətlərindən, həmçinin iki ölkənin həmkarlar ittifaqları arasında əlaqələrdən, əməkdaşlığın daha da möhkəmləndirilməsi istiqamətində görülən işlərdən və perspektivlərdən danışıb.

Şuşa Bəyannaməsinin əhəmiyyətini qeyd edən S.Möhbalıyev qardaş Türkiyənin 44 günlük Vətən müharibəsində olduğu kimi, postmüharibə dövründə Qarabağda və Şərqi Zəngəzurda aparılan bərpa və quruculuq işlərində fəal iştirakına diqqət çəkib.

Ölkələrimiz arasında əlaqələrin gündən-günə daha da dərinləşdiyini vurğulayan AHİK sədri Azərbaycan və Türkiyənin həmkarlar ittifaqları arasında münasibətlərin mövcud vəziyyətinə də toxunub. Vurğulanıb ki, münasibətlərimizin dayanıqlığı və formalaşmış qarşılıqlı inam həmkarlar ittifaqlarımız arasında da sıx əlaqələrin qurulmasına xidmət edir. Əlaqələrimiz təkcə konfederasiyalarımız arasında deyil, həm də sahə həmkarlar ittifaqları arasında, hətta yerli həmkarlar ittifaqı səviyyəsində də təmin olunmalı və inkişaf etdirilməlidir.

Azərbaycanla Türkiyə arasında bütün sahələrdə mövcud olan uğurlu əməkdaşlıqdan söz açan TÜRK İŞ-in rəhbəri Ergün Atalay isə ölkələrimiz arasında həmrəyliyin vacibliyini qeyd edib. Bildirib ki, hər iki ölkənin niyyəti bölgədə sülh və sabitliyi təmin etmək, region ölkələri arasında əlaqələri, xüsusən iqtisadi əməkdaşlığı dərinləşdirməkdir. O, həmçinin Zəngəzur dəhlizinin açılmasının bütün region dövlətləri üçün faydalı olacağına əminliyini ifadə edib.

E.Atalay Kahramanmaraşda baş verən zəlzələdə Azərbaycanın maddi və mənəvi dəstəyini yüksək qiymətləndirib və bu kontekstdə Heydər Əliyev Fonduna xüsusi təşəkkürünü bildirib. Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının bu işdə köməyini qeyd edən türkiyəli qonaq Türkiyə və Azərbaycan arasında sahə və yerli həmkarlar ittifaqları səviyyəsində əlaqələrin qurulması və inkişaf etdirilməsinin vacibliyini vurğulayıb.

Tədbirdə digər çıxışlar da dinlənilib və fikir mübadiləsi aparılıb.

# Moldova Azərbaycanla hüquqi əməkdaşlığın genişləndirilməsində maraqlıdır

Dünən ədliyyə naziri Fikrət Məmmədov ölkəmizdə səfərdə olan Moldovanın baş prokuroru vəzifəsini icra edən İon Muntyanunun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Bu barədə Ədliyyə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a məlumat verilib.

Azərbaycan və Moldova arasında səmərəli dostluq və əməkdaşlıq münasibətlərini vurğulayan nazir digər sahələrlə yanaşı, hüquqi əlaqələri qeyd edib, imzalanmış ikitərəfli sənədlərin əhəmiyyətindən danışıb.

Ölkələrimiz arasında əlaqələrin inkişafından məmnunluğunu ifadə edən qonaq hüquqi sahədə əməkdaşlığın genişləndirilməsinə hazır olduğunu söyləyib, ölkəsində prokurorluq və məhkəmə sistemində islahatların aparıldığını bildirərək Azərbaycan təcrübəsinə maraq göstərib.

Nazir bu il 100 illiyini qeyd etdiyimiz Ümummilli Lider Heydər Əliyev tərəfindən təməli qoyulan və Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə müasir çağırışlara uyğun aparılan və beynəlxalq aləmdə təqdir olunan məhkəmə-hüquq islahatları barədə ətraflı məlumat verib, nümayəndə heyətinin maraq doğuran çoxsaylı suallarını cavablandırıb.

Eyni zamanda hər iki ölkədə korrupsiyaya qarşı mübarizənin prioritet olduğu vurğulanaraq F.Məmmədov vitse-prezidenti olduğu və Azərbaycanın aktiv iştirak etdiyi Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyanın fəaliyyətindən bəhs edib. Bu ərəfədə ölkəmizin təşkil etdiyi qlobal antikorrupsiya mübarizəsinə həsr olunan və bütün qitələri əhatə edən geniş beynəlxalq vebinarda moldovalı mütəxəssislərin fəal iştirakını qeyd edib.

Baş prokuror verilən məlumatları minnətdarlıqla qarşılayaraq təcrübə mübadiləsi məqsədilə ikitərəfli görüşlərin, məsləhətləşmələrin keçirilməsinin əhəmiyyətini vurğulayıb.

Söhbət zamanı azad edilmiş ərazilərimizdə aparılan bərpa-quruculuq işlərinə toxunularaq, bu prosesə ciddi əngəl törədən torpaqlarımızın büsbütün, hətta müharibədən sonra minalanması qeyd olunub, 300-dən çox insanın minaya düşərək yaralandığı və ya həlak olduğu bildirilib, bununla bağlı qonağa xüsusi broşür təqdim edilib.

Nümayəndə heyəti nazirlikdə Ədliyyə tarixi muzeyi ilə tanış olub.

Tədbirdə hər iki ölkənin səfirləri iştirak ediblər.

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 241 **QƏRAR** Bakı şəhəri, 26 iyul 2023-cü il

## “Texnoloji biznes inkubatoru rezidentlərinin qeydiyyatının, həmçinin texnologiyalar parkı rezidentlərinin və texnoloji biznes inkubatoru rezidentlərinin reyestrinin aparılması Qaydası”nın, “Texnologiyalar parkının və texnoloji biznes inkubatorunun qeydiyyat şəhadətnamələrinin Forması”nın və “Texnologiyalar parkının rezidenti kimi qeydiyyatdan keçmək üçün ərizənin Forması və ona əlavə edilən sənədlərin Siyahısı”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 8 iyul tarixli 257 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 8 iyul tarixli 257 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 7, maddə 888) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - "Texnologiyalar parkının və texnoloji biznes inkubatorunun qeydiyyat şəhadətnamələrinin Forması"nın "Texnologiyalar parkının qeydiyyat şəhadətnaməsinin Forması" yeni redaksiyada verilsin *(əlavə olunur)*.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 26 iyul tarixli 241 nömrəli Qərarı ilə yeni redaksiyada verilmişdir.*

## Texnologiyalar parkının qeydiyyat şəhadətnaməsinin FORMASI

Üz tərəfi

_______________________________________
(texnologiyalar parkının idarəedici təşkilatının adı və ünvanı)

_______________________________________
(texnologiyalar parkının adı)

**_____________ tarixli ____ nömrəli**
**QEYDİYYAT ŞƏHADƏTNAMƏSİ**

**QEYDİYYAT №-si** _________________________

Arxa tərəfi

_______________________________________
(hüquqi şəxsin tam adı / fiziki şəxsin soyadı, adı, atasının adı)

_______________________________________
(hüquqi şəxsin / fiziki şəxsin fəaliyyət ünvanı (ünvanları)

_______________________________________
(vergi ödəyicisinin eyniləşdirmə nömrəsi)

Qeydiyyata alındığı tarix ____________________

Əsas ____________________________________
(texnologiyalar parkının idarəedici təşkilatının adı)

_______________ tarixli _______________ nömrəli qərarı

_______________ _______________ _______________
(məsul şəxsin vəzifəsi) (imzası) (soyadı, adı)
M.Y.

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 242 **QƏRAR** Bakı şəhəri, 27 iyul 2023-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 24 may tarixli 75 nömrəli Qərarı ilə təsdiq edilmiş “Dövlət büdcəsinin tərtibi və icrası Qaydaları”nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Büdcə sistemi haqqında", "İşsizlikdən sığorta haqqında" və "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 29 noyabr tarixli 655-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 24 may tarixli 75 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 5, maddə 391; 2005, № 4, maddə 377, № 6, maddə 548; 2007, № 2, maddələr 197, 201; 2008, № 2, maddə 105, № 9, maddə 862; 2009, № 11, maddə 936; 2012, № 1, maddə 44; 2014, № 2, maddə 201; 2016, № 5, maddə 955, № 9, maddə 1596; 2017, № 6, maddə 1237, № 10, maddə 1934, № 11, maddələr 2153, 2159; 2018, № 4, maddə 782, № 10, maddə 2181, № 12 (II kitab), maddə 2750; 2019, № 3, maddə 539, № 6, maddə 1143, № 7, maddə 1337, № 12, maddə 2079; 2020, № 4, maddə 492; 2023, № 2, maddə 293) ilə təsdiq edilmiş "Dövlət büdcəsinin tərtibi və icrası Qaydaları"nın 5.36-cı bəndinə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Hüquqi şəxs yaratmadan təsis edilmiş büdcədənkənar dövlət fondlarının (dövlət sosial müdafiə fondu və işsizlikdən sığorta fondu istisna olmaqla) maliyyə əməliyyatları barədə illik hesabatları dövlət büdcəsinin icrası barədə hesabatla birgə təqdim olunur.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 243 **QƏRAR** Bakı şəhəri, 27 iyul 2023-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Azərbaycan Respublikası Ailə Məcəlləsinin tətbiqi ilə əlaqədar bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında” 2001-ci il 1 mart tarixli 52 nömrəli, “Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı Qaydası”nın təsdiq edilməsi haqqında” 2003-cü il 31 oktyabr tarixli 145 nömrəli, “Adın, ata adının və soyadın verilməsi və dəyişdirilməsi Qaydaları”nın təsdiq edilməsi barədə” 2011-ci il 12 may tarixli 79 nömrəli və “Sosial müavinətlərin, təqaüdlərin və kompensasiyaların təyin olunması üçün təqdim edilən sənədlərin və məlumatların rəsmiləşdirilməsi, baxılması və saxlanılması Qaydaları”nın təsdiq edilməsi haqqında” 2015-ci il 21 sentyabr tarixli 311 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının 1994-cü il 8 fevral tarixli 782 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsul Nizamnaməsi"ndə və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 2 dekabr tarixli 666-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Azərbaycan Respublikası Ailə Məcəlləsinin tətbiqi ilə əlaqədar bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 1 mart tarixli 52 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 3, maddə 209; 2002, № 3, maddə 148, № 10, maddə 635; 2005, № 7, maddə 678; 2006, № 5, maddə 472, № 10, maddə 902; 2010, № 3, maddə 264; 2012, № 12, maddə 1360; 2014, № 12, maddə 1662; 2017, № 12 (II kitab), maddə 2526; 2018, № 12 (II kitab), maddə 2737; 2019, № 8, maddə 1478; 2020, № 6, maddə 804, № 11, maddə 1417, № 12 (V kitab), maddə 1584; 2021, № 10, maddə 1185; 2022, № 7, maddə 820, № 8, maddə 974) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1-ci hissədə "aktlarının qeydində" sözləri "akt qeydlərində" sözləri ilə əvəz edilsin;

1.2. həmin Qərarla təsdiq edilmiş "Vətəndaşlıq vəziyyəti akt qeydlərində dəyişiklik, bərpa və ləğv qaydalarını müəyyən edən əsas müddəalar" üzrə:

1.2.1. preambulaya "Naxçıvan Muxtar Respublikası" sözlərindən əvvəl "Naxçıvan Muxtar Respublikasının ərazisində" sözləri əlavə edilsin;

1.2.2. 3-cü bəndin beşinci abzasında "doğulması haqqında qeydə" sözləri "doğumu haqqında akt qeydinə" sözləri ilə, "aktın" sözü "akt" sözü ilə əvəz edilsin;

1.2.3. 9-cu bənddə, 10-cu bəndin birinci abzasında, 29-cu bənddə "qeydin" sözü "akt qeydinin" sözləri ilə əvəz edilsin;

1.2.4. aşağıdakı məzmunda 10-2-ci bənd əlavə edilsin:

"10-2. Vətəndaşlıq vəziyyəti akt qeydlərində dəyişiklik "Elektron məhkəmə" informasiya sistemindən Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin informasiya sisteminə ötürülmüş məhkəmə qətnaməsindən çıxarışa əsasən aparıldıqda maraqlı şəxs müraciət etdikdə ona müvafiq şəhadətnamə və ya arayış verilir.";

1.2.5. 16-cı bənddə "aktların itirilmiş" sözləri "itmiş akt" sözləri ilə, "qeydin" sözü "akt qeydinin" sözləri ilə əvəz edilsin;

1.2.6. 18-ci bəndin ikinci abzasında "aktın" sözü "akt" sözü ilə əvəz edilsin;

1.2.7. 19-cu və 20-ci bəndlərdə "itirilmiş qeydin" sözləri "itmiş akt qeydinin" sözləri ilə əvəz edilsin;

1.2.8. 24-cü bənddə "qeydin" sözü "akt qeydinin" sözləri ilə əvəz edilsin;

1.3. həmin Qərarla təsdiq edilmiş "Akt kitablarının saxlanması qaydası və müddətləri" üzrə:

1.3.1. 1-ci bəndin birinci cümləsinə (birinci halda) "Naxçıvan Muxtar Respublikası" sözlərindən əvvəl "Naxçıvan Muxtar Respublikasının ərazisində" sözləri əlavə edilsin;

1.3.2. 2-ci bənddə "itirilmiş qeyd" sözləri "itmiş akt qeydi" sözləri ilə əvəz edilsin;

1.4. həmin Qərarla təsdiq edilmiş "Vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyat kitablarının formaları və bu kitablardakı qeydlər əsasında verilən şəhadətnamələrin formaları" üzrə:

1.4.1. birinci abzasa "Naxçıvan Muxtar Respublikası" sözlərindən əvvəl "Naxçıvan Muxtar Respublikasının ərazisində" sözləri əlavə edilsin;

1.4.2. 2 nömrəli əlavə üzrə:

1. adında "aktının" sözü "akt" sözü ilə əvəz edilsin;

2. 13-cü bəndə "Bərpa" sözündən sonra "akt" sözü əlavə edilsin;

1.4.3. 3 nömrəli əlavənin adında "aktının" sözü "haqqında akt" sözləri ilə əvəz edilsin;

1.4.4. 4 və 7 nömrəli əlavələrin adında "aktın" sözü "akt" sözü ilə əvəz edilsin;

1.4.5. 5 nömrəli əlavə üzrə:

1. adı aşağıdakı redaksiyada verilsin:

"Atalığın müəyyən edilməsi haqqında akt qeydi";

2. "Uşaq haqqında məlumatlar" üzrə cədvəlin 6-cı bəndində "aktın" sözü "akt" sözü ilə əvəz edilsin;

1.4.6. 6 nömrəli əlavə üzrə:

1. adı aşağıdakı redaksiyada verilsin:

"Adın, ata adının və soyadın dəyişdirilməsi haqqında akt qeydi";

2. 5-ci bənddə "aktın" sözü "akt" sözü ilə əvəz edilsin;

3. 9-cu bənddə "Soyadın, adın və ata adının" sözləri "Adın, ata adının və soyadın" sözləri ilə əvəz edilsin;

1.4.7. 8 nömrəli əlavə üzrə:

1. adında "aktın" sözü "akt" sözü ilə əvəz edilsin;

2. "Qeyd.1" aşağıdakı redaksiyada verilsin:

"Qeyd.1. 1 yaşa qədər uşaqların ölümü haqqında akt qeydinin 5-ci və 10-cu bəndlərinə ölüm haqqında tibbi şəhadətnamədə anaya aid göstərilmiş məlumatlar yazılır.";

1.4.8. 11 və 15 nömrəli əlavələrdə "soyadın, adın, ata adının" sözləri "adın, ata adının və soyadın" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 31 oktyabr tarixli 145 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 10, maddə 627; 2005, № 7, maddə 678; 2006, № 2, maddə 185, № 4, maddə 378, № 5, maddə 470, № 9, maddə 819, № 10, maddə 902; 2007, № 5, maddə 546, № 10, maddə 1026; 2008, № 2, maddə 114; 2010, № 7, maddə 700; 2011, № 7, maddə 737; 2012, № 2, maddə 178, № 11, maddələr 1203, 1212, № 12, maddə 1359; 2013, № 3, maddə 348, № 5, maddə 580; 2014, № 5, maddə 554, № 8, maddə 1005; 2015, № 5, maddə 669; 2016, № 2 (II kitab), maddə 389, № 7, maddə 1343, № 9, maddə 1585, № 11, maddə 1976; 2017, № 7, maddə 1499, № 12 (II kitab), maddə 2525; 2018, № 12 (II kitab), maddə 2760; 2019, № 3, maddə 516, № 4, maddələr 763, 781, № 8, maddə 1478; 2020, № 3, maddə 369, № 9, maddə 1206, № 10, maddələr 1273, 1304; 2021, № 2, maddə 207, № 3, maddə 274, № 9, maddə 1069; 2022, № 4, maddə 423, № 7, maddə 820, № 8, maddə 974) ilə təsdiq edilmiş "Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.4-cü bənddə "qeydləri" sözü "akt qeydlərini" sözləri ilə əvəz edilsin;

2.2. 1.9-cu bəndin birinci abzasına "alınmasına" sözündən sonra "(qeydiyyat "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə daxil olmuş məhkəmə qətnaməsindən çıxarışa əsasən aparıldıqda şəhadətnamənin verilməsinə)" sözləri əlavə edilsin;

2.3. 1.11-1-ci bənddə "aktlarının akt qeydi" sözləri "akt qeydləri" sözləri ilə əvəz edilsin;

2.4. aşağıdakı məzmunda 1.12-1-ci bənd əlavə edilsin:

"1.12-1. Vətəndaşlıq vəziyyəti akt qeydi "Elektron məhkəmə" informasiya sistemindən Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin informasiya sisteminə ötürülmüş məhkəmə qətnaməsindən çıxarışa əsasən aparıldıqda, akt qeydi üzrə şəhadətnamə və ya arayış barəsində akt qeydi tərtib edilmiş şəxs müraciət etdikdə verilir.";

2.5. 1.14-cü bəndin birinci cümləsində "aktının" sözü "akt" sözü ilə əvəz edilsin;

2.6. 1.20-ci, 12.1-ci, 12.4-cü bəndlərə, 12.6-cı bəndin ikinci abzasına, 12.8-ci, 12.9-cu, 13.1-ci, 13.3-cü, 13.4-cü bəndlərə "Naxçıvan Muxtar Respublikasının" sözlərindən əvvəl "Naxçıvan Muxtar Respublikasının ərazisində" sözləri əlavə edilsin;

2.7. 2.1-ci bəndin ikinci cümləsində "doğulmasının" sözü "doğumunun" sözü ilə əvəz edilsin;

2.8. 2.6-cı bənddə "doğulması" sözü "doğumu" sözü ilə əvəz edilsin;

2.9. 2.8-ci bənddə, 2.8.1-ci yarımbəndin birinci abzasında, 2.8.3-cü yarımbəndin birinci cümləsində, 2.8.4-cü yarımbənddə, 2.14-cü bənddə, 3.16-cı bəndin ikinci cümləsində "aktın" sözü "akt" sözü ilə əvəz edilsin;

2.10. 2.20-ci bəndin ikinci cümləsi ləğv edilsin və birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"2.20. Uşaq ölü doğulduqda yalnız doğum haqqında akt qeydi tərtib olunur və akt qeydinin 8-ci bəndində "Ölü doğulmuşdur" sözləri yazılır.";

2.11. 2.23-cü bənd üzrə:

2.11.1. birinci abzasın birinci cümləsində "uşaqların doğulduğu yerdə və ya valideynlərin, yaxud onlardan birinin yaşadığı" sözləri "ərizəçinin seçdiyi" sözləri ilə əvəz edilsin;

2.11.2. ikinci abzasda "itirilmiş" sözü "itmiş" sözü ilə, "aktlarının" sözü "akt qeydlərinin" sözləri ilə əvəz edilsin;

2.12. 4.1-ci bənd ləğv edilsin;

2.13. 4.2-ci və 4.3-cü bəndlər aşağıdakı redaksiyada verilsin:

"4.2. Övladlığa götürmənin dövlət qeydiyyatı Azərbaycan Respublikası Ailə Məcəlləsinin 118.20-ci maddəsinə uyğun olaraq "Elektron məhkəmə" informasiya sistemindən Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin informasiya sisteminə daxil olmuş uşağın övladlığa götürülməsi barədə qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsindən çıxarışa (məhkəmə qətnaməsinin nəticə hissəsinə) əsasən qətnamənin çıxarıldığı yer üzrə qeydiyyat şöbəsi və konsulluq idarəsi tərəfindən aparılır.

4.3. Qeydiyyat şöbəsi və konsulluq idarəsi tərəfindən övladlığa götürmə haqqında akt qeydi məhkəmə qətnaməsinin nəticə hissəsində qeyd olunan məlumatlar (övladlığa götürülənə soyadı və ata adı verilməsi, habelə onun adının dəyişdirilməsi, övladlığa götürülmüş uşağın doğulduğu yerin və ya tarixin dəyişdirilməsi, övladlığa götürənlər valideyn kimi yazıldıqda bu barədə məlumat) əsasında tərtib edilir.";

2.14. 4.4-cü və 4.6-1-ci bəndlər ləğv edilsin;

2.15. 4.7-ci bəndin birinci cümləsində "qeydi" sözü "akt qeydini" sözləri ilə, "qeydlərdə" sözü "akt qeydində" sözləri ilə əvəz edilsin;

2.16. 4.9-cu bənd aşağıdakı redaksiyada verilsin:

"4.9. Azərbaycan Respublikası Ailə Məcəlləsinin 130.5-ci maddəsində nəzərdə tutulmuş hal istisna olmaqla, övladlığa götürənlərin, onlar öldükdə isə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin razılığı olmadan övladlığa götürmə haqqında hər hansı məlumat vermək, habelə vətəndaşlıq vəziyyəti akt qeydlərindən bu barədə çıxarışlar, şəhadətnamələr və ya arayışlar vermək qadağan edilir.";

2.17. 5.7-ci bənddə "nikahın pozulması haqqında aktların qeydiyyat kitabında nikahın pozulması barədə akt qeydlərini aparır" sözləri "akt qeydi tərtib etməklə qeydə alır" sözləri ilə əvəz edilsin;

2.18. 6.5-ci bənddə "atalığın müəyyən olunması haqqında aktların qeydiyyat kitabında atalığın müəyyən olunması barədə akt qeydləri" sözləri "atalığın müəyyən edilməsi haqqında akt qeydi" sözləri ilə əvəz edilsin;

2.19. 6.15-ci bəndin ikinci cümləsində "itirildiyi" sözü "itdiyi" sözü ilə, "doğum akt qeydi" sözləri "doğum haqqında akt qeydi" sözləri ilə əvəz edilsin;

2.20. 9.3.5-ci yarımbənddə "aktının qeydini aparan" sözləri "akt qeydini tərtib edən" sözləri ilə, "aparılma" sözü "tərtib edilmə" sözləri ilə əvəz edilsin;

2.21. 9.15-ci bəndə "Naxçıvan Muxtar Respublikasının" sözlərindən əvvəl "Naxçıvan Muxtar Respublikasının ərazisində" sözləri əlavə edilsin;

2.22. 10.1-ci bəndin birinci abzasında "Vətəndaşlıq vəziyyəti aktlarının bütün qeydlərinin" sözləri "Bütün vətəndaşlıq vəziyyəti akt qeydlərinin" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 12 may tarixli 79 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 5, maddə 451; 2012, № 12, maddə 1361; 2013, № 5, maddə 589, № 10, maddə 1205; 2018, № 8, maddə 1800; 2022, № 7, maddə 820, № 8, maddə 974) ilə təsdiq edilmiş "Adın, ata adının və soyadın verilməsi və dəyişdirilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.1-ci bənddə "konsulluqlar (bundan sonra - konsulluq)" sözləri "Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin xaricdəki konsulluq idarələri (bundan sonra - konsulluq idarəsi)" sözləri ilə, "konsulluq" sözü "konsulluq idarəsi" sözləri ilə əvəz edilsin;

3.2. 5.4-cü bəndin birinci və ikinci cümlələrində, 5.6-cı bəndin birinci və üçüncü cümlələrində, 5.7-ci (hər iki halda), 5.8-ci, 5.9-cu (hər iki halda) bəndlərdə, 5.10-cu bəndin birinci cümləsində, 6.2-ci, 6.6-cı, 6.10-cu bəndlərdə, 6.11-ci bəndin birinci cümləsində, 6.12-ci, 6.14-cü (hər iki halda), 6.17-ci, 6.18-ci (hər iki halda), 6.19-cu (hər iki halda), 6.20-ci (hər iki halda), 6.21-ci, 6.22-ci (hər iki halda) və 6.29-cu bəndlərdə ismin müvafiq hallarında "konsulluq" sözü ismin müvafiq hallarında "konsulluq idarəsi" sözləri ilə əvəz edilsin;

3.3. 6.12-ci bənddə "aktların" sözü "akt qeydlərinin" sözləri ilə əvəz edilsin;

3.4. 6.13-cü bəndin ikinci cümləsində "itirilmişdirsə" sözü "itmişdirsə" sözü ilə, "itirilmiş" sözü "itmiş" sözü ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 21 sentyabr tarixli 311 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 10, maddə 1225; 2016, № 7, maddə 1343, № 11, maddə 1977; 2017, № 12 (II kitab), maddə 2552; 2018, № 2, maddə 354, № 12 (II kitab), maddə 2730; 2019, № 5, maddə 983, № 7, maddələr 1318, 1330; 2020, № 5, maddə 633, № 10, maddə 1269, № 11, maddə 1411; 2021, № 3, maddələr 281, 287, 289, № 4, maddə 404, № 5, maddə 525, № 9, maddə 1080, № 10, maddə 1163; 2022, № 8, maddə 973, № 9, maddə 1100, № 11, maddə 1339, № 12, maddə 1552; 2023, № 3, maddə 434) ilə təsdiq edilmiş "Sosial müavinətlərin, təqaüdlərin və kompensasiyaların təyin olunması üçün təqdim edilən sənədlərin və məlumatların rəsmiləşdirilməsi, baxılması və saxlanılması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. 3.1-1-ci bəndin birinci cümləsində "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə təqdim edildiyi" sözləri "Elektron məhkəmə" informasiya sistemindən Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mərkəzləşdirilmiş elektron informasiya sisteminə ötürüldüyü" sözləri ilə əvəz edilsin;

4.2. 6.7-ci bənddən "rayon (şəhər)" sözləri çıxarılsın;

4.3. həmin Qaydalara 7 nömrəli əlavə - "Müavinət, təqaüd və kompensasiyanın təyin edilməsi üçün tələb olunan sənədlərin siyahısı"nın 2.1-2.2-ci və 2.3-2.2-ci yarımbəndləri ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Ermənistanın siyasi spekulyasiyası

## İrəvan Qarabağın erməniəsilli sakinlərindən, sadəcə, çirkab alət kimi istifadə etməyə çalışır

**Azərbaycan bu ilin aprelində Laçın-Xankəndi yolundan qanunsuz daşımaların qarşısının alınması üçün beynəlxalq hüquqa əsaslanaraq öz ərazisində sərhəd-keçid məntəqəsi qurduqdan sonra Ermənistan bununla bağlı müxtəlif yalan və əsassız məlumatlar yayır. Məqsəd beynəlxalq aləmin diqqətini cəlb etməkdir.**





Dörd aya yaxındır ki, rəsmi İrəvan müxtəlif beynəlxalq instansiyalara, təşkilatlara müraciət edərək Azərbaycanın Laçın yolunu blokadada saxlaması ilə bağlı iddialar irəli sürür. Bununla bağlı Ermənistan Beynəlxalq Ədalət Məhkəməsinə dəfələrlə müraciət etsə də, məhkəmə Azərbaycanın təqdim etdiyi sübutlar və gətirdiyi arqumentlərlə tam razılaşaraq onların vəsatətini yekdilliklə rədd edib.

Əslində, bu müddət ərzində Laçın sərhəd-keçid məntəqəsindən erməni sakinlərin gediş-gəlişinə və humanitar yüklərin daşınmasına, həmçinin Beynəlxalq Qırmızı Xaç Komitəsinə (BQXK) məxsus nəqliyyat vasitələrinin hərəkətinə lazımi şərait yaradılıb. Bununla belə ötən müddətdə Dövlət Sərhəd Xidmətinin əməkdaşları tərəfindən BQXK-yə aid nəqliyyat vasitələrində dəfələrlə qanunsuz yolla müxtəlif növ qaçaqmalın keçirilməsi cəhdləri də aşkarlanıb.

Azərbaycan dövləti erməni sakinlərinin ehtiyaclarının qarşılanması üçün Ağdam-Xankəndi yolunu təklif etsə də, ermənilər israrla bununla razılaşmır və növbəti təxribatlara cəhd edirlər. Belə ki, Ermənistan Azərbaycanın icazəsi olmadan humanitar ad altında yük maşınlarını sərhəd məntəqəsinə yığıb. Həm də bu təxribatlarda ermənilərin Avropadakı havadarları əsas vasitəçi olublar. Bunu iyulun 27-də Fransanın Avropa və Xarici İşlər Nazirliyinin yaydığı Azərbaycanın Laçın yolunu blokadada saxladığı barədə iddianın yer aldığı bəyanatdan da aydın görmək mümkündür.

Bunun cavabında Azərbaycan XİN bəyan edib ki, ölkəmizin sərhəddə nəzarət və şəffaflıq tətbiq etməklə, Laçın yolundan qeyri-qanuni məqsədlərlə istifadənin qarşısının alınması, yoldan sui-istifadə hallarına yol verilməməsi öhdəliyi və səlahiyyəti mövcuddur. Bütün səylərə baxmayaraq, Ermənistan tərəfi yenə təxribat törətməkdən əl çəkməyib, sərhəd-buraxılış məntəqəsinə atəş açıb, qaçaqmalçılığa cəhd göstərib və Azərbaycanın icazəsi olmadan əraziyə yük avtomobilləri göndərməyə çalışıb. Azərbaycan tərəfi bu təxribatlara baxmayaraq, yenə də Beynəlxalq Qızıl Xaç Komitəsi vasitəsilə erməni sakinlərin məntəqədən keçidinə şərait yaradıb.

Böyük həcmdə yüklərin əraziyə daşınması üçün isə "Ağdam-Xankəndi" daxil olmaqla, alternativ yollar təklif edilsə də, Azərbaycanın suveren ərazisində bu qərarına uzun müddət ərzində nümayiş etdirilən hörmətsizlik humanitar vəziyyət ilə bağlı səslənən iddiaların yalnız spekulyasiya olduğunu göstərir.

"Ümumiyyətlə, Ermənistan tərəfinin manipulyasiyalarına aldanıb məsələ ilə bağlı qərəzli bəyanatlar verməzdən öncə, Azərbaycan əleyhinə bu kimi bəyanatların nəyə xidmət etdiyini bir daha düşünməyə, bu kimi bəyanatların bölgədə sülh və sabitliyə xidmət etmədiyini anlamağa çağırırıq", - deyə XİN-in məlumatında qeyd olunub.

Məsələ ilə bağlı Milli Məclisin deputatlarının fikirlərini öyrəndik.

### Ermənistan separatizmin ayaqda qalması üçün çalışır

Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu qəzetimizə açıqlamasında deyib ki, Ermənistanın Laçın-Xankəndi yolundan istifadədə israrlı olması bir əsas məqsədə xidmət edir ki, bu da Azərbaycana qarşı təxribatlar törədilməsidir.

Ermənistan və onun Avropadakı havadarları, həmçinin Beynəlxalq Qızıl Xaç Komitəsi hər vasitə ilə Azərbaycanın Laçın yolunda hərəkəti məhdudlaşdıraraq bununla dünyaya yolun "blokada"da olmasını göstərməyə çalışırdılar: "Çünki bu yol vasitəsilə Ermənistan separatçılara silah-sursat daşıyır, Azərbaycan ərazisində separatizmi ayaqda saxlayırdılar. Ona görə də Azərbaycan bu yolda müəyyən məhdudiyyətlər tətbiq etdi. Bildiyimiz kimi, məntəqədə humanitar məqsədlər üçün istifadəyə imkanlar yaradılıb. Qaldı ki, Laçın nəzarət-buraxılış məntəqəsinin qurulmasına, bu, Azərbaycanın haqqıdır".

Deputat bildirib ki, ermənilər Azərbaycanda separatizmin ayaqda qalması üçün Laçın yolundan istifadənin sərbəst olmasını israr edirlər. Ermənistan bunun üzərindən siyasi spekulyasiya və şantajlar edir. Məqsəd Azərbaycana qarşı qərəzli siyasi mövqe formalaşdırmaqdan ibarətdir. Yük maşınlarının Azərbaycanın icazəsi olmadan sərhədə gəlməsi də əvvəlcədən düşünülmüş, iştirakçılar arasında Avropa qeyri-siyasi dairələrinin, təşkilatların yer aldığı planlaşdırılmış təxribatdır. Onlar dünyaya göstərmək istəyirlər ki, Azərbaycan ermənilərin yaşadığı ərazilərdə guya humanitar böhrana səbəb olacaq addımlar atır. Məqsəd də bundan sonrakı mərhələdə Azərbaycana qarşı mövqelərin formalaşdırılmasına və yaxud təzyiqlərin göstərilməsinə nail olmaqdır. Məsələnin digər tərəfi odur ki, Paşinyan Azərbaycan - Ermənistan arasında sülh sazişinin imzalanmasına maneə törətmək istəyir. Bir tərəfdən intensiv olaraq sülhə hazır olduğunu bildirir, digər tərəfdən də təxribatlar törədilməsinə nail olaraq sülhdən yayınır. Yəni Azərbaycan ərazisində yaşayan ermənilərin guya ağır vəziyyəti barədə məsələni Ermənistan və havadarları şantaj alətinə çeviriblər.

Deputat deyib ki, Paşinyan bununla özünün siyasi karyerasını qurmağa çalışır: "Hakimiyyətdən gedəcəyini dərk edən Paşinyan heç olmazsa, hansısa bir məsələni aktual saxlamağa çalışır. Yəni Paşinyanın hakimiyyətdəki ömrü Azərbaycanla Ermənistan arasında indiki şərtlər daxilində sülh sazişinin imzalanacağı vaxta qədər olacaq. Çünki 2020-ci ildən sonra Ermənistanda sosial-iqtisadi böhranla yanaşı, həm də siyasi böhran yaşanır. Ötən üç il ərzində Paşinyan hakimiyyətinə qarşı ciddi təhdidlərin mövcudluğu şəraitində Ermənistanı idarə edir. Artıq Ermənistanın işğalçılıq siyasətinin siyasi hakimiyyətə necə ağır başa gəldiyini müşahidə edirik. Bu, ermənilər üçün dərs olmalıdır".

E.Mirbəşiroğlu vurğulayıb ki, bu gün Azərbaycan ərazilərində yaşayan ermənilər üzərindən spekulyasiyalar həyata keçirilir. Ərazilərimizdə yaşayan ermənilərin vəziyyətini əsas müzakirə predmetinə çevirməyə çalışırlar ki, sülh müqaviləsinin imzalanması prosesi qeyri-müəyyən vaxta qədər təxirə salınsın. İkinci məqam odur ki, Paşinyanı Qərbdə dəstəkləyən siyasi dairələr də bütün fürsətlərdən istifadə edərək təsir imkanlarını təmin etməyə çalışırlar. Məsələn, Makron da, Şarl Mişel də Azərbaycan ərazisində yaşayan ermənilərin hüquq və təhlükəsizliklərini beynəlxalq mexanizmlərin tətbiqi ilə təmin olunması fikirlərini səsləndiriblər. Paşinyan da eyni mövqedən çıxış edir. Göründüyü kimi, burada düşünülmüş təxribat planı var.

Deputat planın içində Avropanın yer almasından təəssüflənərək qeyd edib ki, Avropa İttifaqının Xarici siyasət və Təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsi Cozep Borrell də Azərbaycanın təklif etdiyi Ağdam-Xankəndi yolunun Laçın yoluna alternativ olmadığını bildirib. Təbii ki, bu, tamamilə əsassız yanaşmadır, həm də onu göstərir ki, C.Borrell də Ermənistan vasitəsilə Azərbaycan ərazisində separatizmin mövcudluğunda maraqlıdır. Bu mövqeyi yalnız ona aid etmək doğru olmaz, bunu bütövlükdə Avropanın yanaşması kimi qəbul etmək lazımdır. Bir çox hallarda nədənsə Fransanı Avropa İttifaqından kənarda qəbul edirik, sanki Aİ-nin mövqeyi onun mövqeyi deyildi.

### "Ağdam-Xankəndi" yolundan imtina etmək anti-Azərbaycan fəaliyyətin bir hissəsidir

Milli Məclisin deputatı Bəhruz Məhərrəmov qeyd edib ki, Ermənistan tərəfindən nəqliyyat vasitələrinin Laçın dövlət sərhədinin keçid məntəqəsində cəmləşdirilməsi, Aİ-nin təxribatçı missonerlərinin yaxınlıqda mövqe tutub azərbaycanlıların erməniləri necə "blokadada saxlaması", "beynəlxalq hüququ necə pozması" və digər əsassız iddiaları qeydə almağa hazırlaşması məqsədi güdür. Bu, siyasi spekulyasiya və növbəti təxribata cəhddir.

Deputat bildirib ki, əgər Ermənistanı və şounun digər iştirakçılarını humanitar vəziyyət maraqlandırırsa, Ağdam-Xankəndi yolunu həm daha effektiv və etibarlı, həm də qarşılıqlı etimad mühitinin yaradılması baxımdan səmərəli alternativ kimi təşviq etməlidir: "Reallıqda humanitar böhran çevik yanaşma tələb etməlidir və əgər Qarabağda humanitar böhran varsa, bu məqsədlərlə 330 kilometr uzaqlıqda yerləşən İrəvana üz tutmağı təşviq etməkdənsə, 70-75 km-lik məsafədəki müasir şəhərlər olan Bərdəyə, Tərtərə, 150 km məsafədəki Gəncəyə istiqamətlənmək daha effektiv olmazmı? Üstəlik, işğaldan sonra yenidən qurulmaqda olan Bərdə-Ağdam yolu texniki və təbii göstəriciləri ilə qat-qat üstün və təhlükəsizdir, malların daha sürətli və rahat şəkildə ünvana çatdırılmasına imkan yaradır. Lakin bu yoldan imtina edilir".

O vurğulayıb ki, proseslər humanitar böhran şousunun səbəbsiz olmadığını göstərir və ermənilərin Ağdam-Xankəndi yolundan israrla imtina etmələrinin kökündə hansısa "qürurlu davranış" dayanmır, baş verənlər sadəcə bir mərkəzdən idarə olunan anti-Azərbaycan fəaliyyətin bir hissəsidir. Xarici səfirliklərin, o cümlədən Avropa İttifaqının təxribatçı missionerlərinin bölgəyə gəlişinin bir məqsədi var: hədəf Azərbaycanın iradəsinin qırılması, Laçın sərhəd-buraxılış məntəqəsinin ləğvidir. Amma onların bu arzuları ürəklərində qalacaq. Laçın-sərhəd buraxılış məntəqəsinə münasibətdə özünü söz sahibi kimi aparmaq cəhdi, bu məntəqənin ləğvini tələb etmək, giriş-çıxışı sərbəst formada terrorçuların, təxribatçıların ixtiyarına vermək Azərbaycanın suverenliyinə hörmətsizlikdir. "Azərbaycan Konstitusiyasının 11-ci maddəsinə görə ərazimiz vahiddir, toxunulmazdır və bölünməzdir. BMT Nizamnaməsinin 2-ci maddəsinin 4-cü bəndi, Beynəlxalq hüququn prinsipləri haqqında 1970-ci il Bəyannaməsi və Avropada təhlükəsizlik və əməkdaşlıq üzrə 1975-ci il 1 avqust tarixli Helsinki Yekun Aktında müəyyən olunmuş prinsiplərə görə dövlətlərin ərazi bütövlüyü və dövlət sərhədlərinin toxunulmazlığı əsas şərtdir", - deyə deputat əlavə edib.

B.Məhərrəmov söyləyib ki, Ermənistan və onun havadarları qarşılarında 1990-cı illərin Azərbaycanı olmadığını və belə şoularla hansısa nəticə əldə etməyin mümkünsüz olduğunu anlamalıdırlar. İstənilən təxribatın cavabı artıqlaması ilə veriləcək. Qarabağın erməniəsilli sakinləri də anlamalıdırlar ki, onlardan sadəcə çirkab alət kimi istifadə edirlər. Bu təxribatçı səylərin məqsədi hansısa erməninin haqları yox, hüquq və azadlıqlar pərdəsi altında Sorosun işğal edə bilmədiyi dövlətlərə peşəkar xaç yürüşlərinin təşkil olunmasıdır.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Hayastanın "humanitar fəlakət" tamaşası

## Məğlub ölkə süni gərginlik yaradaraq sülh sazişinin imzalanmasını uzatmaq üçün vaxt qazanmaq istəyir

Tarix boyu Ermənistanın çirkin əməllərinə, terror, təxribat və soyqırımları törətmələrinə şahidlik edən Qarabağ bu gün ermənilərin yeni "humanitar fəlakət" tamaşasının izləyicisinə çevrilib. Ermənistanın siyasi rəhbərliyi səhnələşdirdiyi yeni şouda Azərbaycanın mənfi obrazını formalaşdırmaqla beynəlxalq ictimaiyyəti manipulyasiya etməyə, ölkəmiz əleyhinə müxtəlif təzyiq vasitələrini işə salmağa cəhd edir. Bu günə qədər heç bir razılaşmaya və öhdəliyə riayət etməyən Hayastan indi də guya, Qarabağın erməni sakinlərə münasibətdə Azərbaycanın təzyiq üsullarından istifadə etməklə bölgədə humanitar böhran yaratması iddiasını qaldırır.

Əgər iddia edildiyi kimi olsaydı, ötən gün Beynəlxalq Qırmızı Xaç Komitəsinin vasitəçiliyi ilə Qarabağın erməni əhalisinin "Laçın" dövlət sərhəd-buraxılış məntəqəsindən sərbəst keçidinə növbəti dəfə şərait yaradılmaz, Xankəndidən Gorus istiqamətində hərəkət edən 7 nəqliyyat vasitəsi və 34 şəxsin buraxılış məntəqəsində yoxlanıldıqdan sonra Ermənistana keçidi təmin edilməzdi.

Demək, dövlət sərhədinin buraxılış məntəqəsində Azərbaycan tərəfindən hər hansı maneə yaradılmır. Bu, bir daha sübut edir ki, Ermənistan tərəfinin bugünədək müxtəlif beynəlxalq platformalarda verdiyi vədlərdən boyun qaçıraraq həyata keçirdiyi anti-Azərbaycan kampaniyası bir işə yaramır.

### Ermənistanın hay-küyü humanitar yardımlarla əlaqədar deyil

Ermənistanın növbəti arzuolunmaz siyasi tamaşası ölkəmizin ərazi bütövlüyü və suverenliyinə hörmətsizlik, eləcə də Qarabağda məskunlaşmış ermənilərin təhlükəsizliyinə təhdiddir. Bu təxribat xarakterli davranışlar bölgədə separatizmi fəal şəkildə təşviq etməklə gərginliyin artmasına xidmət edir və ermənilərin cəmiyyətimizə reinteqrasiyasını gecikdirir.

Rəsmi İrəvan ölkəmizlə razılaşdırılmadan suveren ərazilərimizə "humanitar yük" adı altında avtomobil konvoyları göndərir. Azərbaycanın Xarici İşlər Nazirliyinin açıqlamasında da qeyd olunduğu kimi, "Bu təxribat bir daha göstərir ki, Ermənistanın "bölgədə gərgin humanitar vəziyyət" iddiaları bu ölkənin qeyri-qanuni fəaliyyətləri davam etdirmək, əsassız siyasi manipulyasiya yolu ilə gərginlik yaratmaq niyyətindən başqa bir şey deyil".

Sosial şəbəkələrin Ermənistan seqmentində yayılan məlumatlarda, eləcə də bir sıra erməni siyasətçilərinin açıqlamalarında da qeyd edilir ki, ermənilərin yaşadığı Qarabağ kəndlərində bu gün vəziyyət qənaətbəxşdir, ərazilərdə humanitar fəlakətdən söhbət belə getmir. Nəzərə almaq lazımdır ki, Azərbaycan ötən müddət ərzində humanitar yardımların daşınmasına əngəl törətsəydi, Qarabağdakı ermənilərə lazım olan dərman vasitələri, ərzaq məhsulları və zəruri olan digər humanitar xarakterli yüklər çoxdan tükənmiş olardı. Buradan bir daha aydın olur ki, ermənilərin hay-küy salmaqda məqsədi heç də humanitar yardımlarla bağlı deyil.

Əgər məqsəd doğrudan da Qarabağda yaşayan ermənilərə yardımla bağlıdırsa, onda bunun Ağdam-Xankəndi, yaxud Xankəndi-Laçın yolu ilə göndərilməsinin rəsmi İrəvan üçün heç bir fərqi olmamalıdır. Ermənistanın siyasi rəhbərliyinin əsas dərdi Laçın yolunun "dəhliz" statusunun aradan qaldırılması və Azərbaycanla sülh müqaviləsinin imzalanmasıdır. Ona görə də radikal çirkin niyyətlərini işə salmaqla, müxtəlif təzyiq üsullarından istifadə etməklə məkrli planlarını həyata keçirməyə çalışır, regionda sülh və sabitliyin bərqərar olmasına maneçilik törədir. İrəvan bölgədə süni gərginlik yaradaraq beynəlxalq ictimaiyyətə öz gündəmini diktə edə bilmək və sülh sazişinin imzalanmasını bacardığı qədər uzatmaq üçün özünə vaxt və fürsət qazanmaq istəyir.

### Erməni riyakarlığının siması

Azərbaycan Qarabağda yaşayan ermənilərin ərzaq və humanitar yardım tədarükü üçün Ağdam-Xankəndi yolundan istifadə olunmasını təklif edir. Ermənistan hökuməti isə humanitar yüklərlə dolu maşın karvanlarını Laçın istiqamətinə yönəldir, Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi ərazilərdə aksiyalar keçirir və Ağdam-Xankəndi yolunun açılmaması üçün yolu beton bloklarla bağlatdırır.

Lakin unudurlar ki, Azərbaycanın həyata keçirdiyi legitim tədbirləri Laçın yolunun bağlanması kimi təqdim etmək, ölkəmizi növbəti hiyləgər planın qurbanına çevirmək cəhdləri kökündən yanlış və əbəsdir. Xarici ölkələrdən gətirilən yüklərin Azərbaycan tərəfinin müəyyənləşdirdiyi məntəqədən keçirilərək Ermənistana daşınmasını tələb etmək bizim suveren hüququmuzdur. Çünki ölkəmizə xaricdən gətirilən mallara görə Ermənistanın dövlət büdcəsinə vergi ödənilməsi heç bir məntiqə sığmır.

Həmçinin nəzərə almaq lazımdır ki, Ağdamdan Xankəndiyə gedən yol tamamilə təhlükəsiz və rahatdır, beynəlxalq standartlara cavab verir. Əks halda Brüsseldə keçirilən görüş zamanı irəli sürülən bu təklif Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel tərəfindən də yüksək dəyərləndirilməzdi. Belə olan halda qondarma rejimin təmsilçilərinin Ağdam yolundan istifadədən imtina etmələrinin onların siyasi spekulyasiyalarının və riyakarlıqlarının növbəti təzahürü olduğu bir daha öz təsdiqini tapır.

### "Dəmir yumruq" yerindədir

Göründüyü kimi, ölkəmiz Ermənistanın nümayiş etdirdiyi müxtəlif siyasi şıltaqlıqlara rəğmən Qarabağda yaşayan sadə erməni sakinlərin Laçın yolundan sərbəst keçidini təmin edir və onların humanitar yardımla təminatı üçün daşımaları daha rahat və sürətli həyata keçirməyə imkan verən Ağdam-Xankəndi yolundan istifadə etmək təklifini irəli sürür.

İrəvan isə bütün bunların fonunda hiyləgər davranışlar sərgiləməyə, hər vəchlə regionda sülhün bərpasına mane olmağa davam edir. Lakin Ermənistan unutmamalıdır ki, 44 günlük Vətən müharibəsində öz gücü ilə 30 illik işğala son qoyan, BMT-nin qətnamələrinin icrasına təkbaşına nail olan Azərbaycanın arxalandığı "dəmir yumruq" yerindədir.

Bu mənada Prezident İlham Əliyevin I Şuşa Qlobal Forumunda səsləndirdiyi fikirlər Ermənistanın siyasi rəhbərliyinə düzgün yolu və bu yolla getməyəcəkləri halda üzləşəcəkləri qaranlıq məqamları aydın göstərir: "Ermənistan son addımını atmalıdır. Onlar artıq müharibədən sonra bir sıra addımlar atıblar və mən deməzdim ki, bu addımlar könüllü olaraq atılıb. Son iki il yarım ərzində bir neçə məqam oldu və onlar birbaşa Ermənistana nümayiş etdirdi ki, bizim ərazi bütövlüyümüzü tanımasalar, biz onların ərazi bütövlüyünü tanımayacağıq. Bunun nə məna daşıdığı onlara kifayət qədər aydındır".

Yəni qalib Müzəffər Ali Baş Komandan kimi İlham Əliyev deyir ki, şərtləri yalnız Azərbaycan diqtə edir, məğlub ölkə, sadəcə, seçim edə bilər.

***Nəzrin QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Modern Azərbaycan energetikasının daha bir uğuru

## Prezident İlham ƏLİYEV: "Hər bir ölkənin energetika sistemi onun döyünən ürəyidir... Enerji olmayan yerdə inkişaf yoxdur"

*Əvvəli 1-ci səh.*

Suyun səviyyəsinin getdikcə aşağı düşməsi stansiyanın soyutma suyu ilə təchiz olunmasında ciddi problem yaradırdı. Odur ki, yaxın vaxtlarda "Şimal-1" və "Şimal-2" elektrik stansiyalarının fəaliyyəti tam dayandırıla bilərdi. Məhz bu təhlükədən qaçmaq üçün təcili olaraq "AzərEnerji" ASC tərəfindən Xəzər dənizinin içərisinə doğru soyuq suyun 8 metr dərinlikdən götürülməsinə imkan verən 540 metr uzunluğunda estakada və iki yerdə su nasos stansiyası tikilib. Estakadanın möhkəmliyini təmin etmək üçün isə hər birinin uzunluğu 30 metr olan 1000 dəmir boru svay 20 metr dənizin dibinə vurulub və betonlanıb.

Prezident İlham Əliyevin "AzərEnerji" ASC-nin "Şimal" Elektrik Stansiyasının yeni estakadasının, su nasos stansiyalarının və "Şimal" Kiçik Su-Elektrik Stansiyasının açılışında iştirak etməsi bu obyektlərin önəminə bir daha diqqət çəkir.



Hazırda burada hər birinin məhsuldarlığı 9 min kubmetr/saat olan 8 nasosdan 2-si ehtiyatda saxlanılmaqla 6-sı fasiləsiz işləyir. Həmin nasoslar dənizin 8,5 metr dərinliyindən götürülən aşağı temperaturda 54 min kubmetr suyu mövcud kanala vurur.

Stansiyalarda SCADA sistemi tətbiq edilir. Nasos və klapanların avtomatik idarə olunması və rəqəmsal mühafizəsi üçün nəzarət-ölçü cihazları, lokal idarəetmə panelləri, PLC idarəetmə sistemi quraşdırılıb. Bu idarəetmə sistemi mərkəzi idarəetmə otağındakı monitorlara inteqrasiya edilib. Bununla da nasosların məsafədən işə qoşulmasına və açılmasına, avadanlıqların iş rejimlərinin tənzimlənməsinə, kanalda suyun səviyyəsinə nəzarət edilməsinə, şandorun avtomatik açılıb-bağlanmasına şərait yaradılıb.

"Şimal"ın ərazisində "AzərEnerji" tərəfindən daha bir yenilik edilib. İstifadə olunub dənizə axıdılan soyutma suyunun üzərində 300 kVt-lıq kiçik su-elektrik stansiyası tikilib. Stansiya vasitəsilə il ərzində 2,5 milyon kilovat-saata yaxın elektrik enerjisi istehsal ediləcək. Bu enerji "Şimal-1" və "Şimal-2" elektrik stansiyalarının təsərrüfat ehtiyaclarını ödəməklə daxili tələbatına sərf olunacaq. Beləliklə, indiyədək "Şimal" Elektrik Stansiyasının daxili tələbatına sərf olunan elektrik enerjisi qənaət edilərək ümumi sistemə ötürüləcək.

Sözügedən bu kiçik su-elektrik stansiyasının tikintisi yerli mütəxəssislər tərəfindən aparılıb.

Xatırladaq ki, "Şimal-2" Elektrik Stansiyası Prezident İlham Əliyevin iştirakı ilə 2019-cu il sentyabrın 5-də istismara verilib. 1950-ci illərdə iki mərhələdə istifadəyə verilən "Şimal" Elektrik Stansiyasının 1988-ci ildə birinci, 1998-ci ildə ikinci növbəsi tam köhnəldiyindən istismardan çıxarılıb. 1998-ci ildə Ulu Öndər Heydər Əliyev Yaponiyaya səfəri zamanı 400 meqavatlıq "Şimal-1" Elektrik Stansiyasının tikintisi üçün ölkəmizə investisiya cəlb edilməsinə nail olub. Beləliklə, 2000-ci ildə əsası qoyulan "Şimal-1" stansiyası 2002-ci ildə istismara verilib. 2011-ci ildə isə Prezident İlham Əliyevin iştirakı ilə ərazisi 104,9 hektar, gücü 400 meqavatlıq "Şimal-2" Elektrik Stansiyasının təməli qoyulub. Stansiyanın tikinti və quraşdırma prosesləri 2019-cu ildə tamamlanıb. Azərbaycanda elektrik enerjisi obyektlərinin tikintisi davamlı xarakter daşıyır. Prezident İlham Əliyev bir neçə il əvvəl Mingəçevir şəhərində yenidən qurulmuş "Azərbaycan" İES-in açılış mərasimində demişdir: "Hər bir ölkənin energetika sistemi onun döyünən ürəyidir, əsas motorudur. Bu olmasa, heç nə olan deyil. Bu olmasa, heç bir inkişafdan, heç bir investisiya qoyuluşundan söhbət gedə bilməz. Ona görə də enerji olmayan yerdə inkişaf yoxdur".

Hazırda bütün dünyada bərpaolunan enerjiyə üstünlük verilsə də, ənənəvi enerji də öz əhəmiyyətini itirmir. O cümlədən ölkəmizdə uğurla "yaşıl enerji" layihələrinin həyata keçirilməsinə baxmayaraq, ayrı-ayrı bölgələrdə yeni elektrik enerjisi gücləri yaradılır. "Şimal" Elektrik Stansiyasında istifadəyə verilən yeni obyektlər bunun aydın təzahürüdür.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Qafqaz Müsəlmanları İdarəsində qanvermə aksiyası keçirilib





İyulun 28-də Qafqaz Müsəlmanları İdarəsində Aşura günü ilə əlaqədar qanvermə aksiyası keçirilib.



AZƏRTAC xəbər verir ki, tədbirdə Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə başda olmaqla idarə əməkdaşları, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Sahib Nağıyev, Almaniya Müsəlmanları Mərkəzi Şurasının sədri Ayman Mayzek, ölkəmizdə fəaliyyət göstərən konfessiyaların nümayəndələri iştirak ediblər.

# Xəstəyə ümid vermək böyük savabdır









Son illər məhərrəmlik dönəmində, xüsusilə Aşura günü Səhiyyə Nazirliyi və Qafqaz Müsəlmanları İdarəsinin birgə təşəbbüsü ilə Kərbəla şəhidlərinin xatirəsini qanvermə aksiyası keçirməklə yad etmək ənənə halını almışdır.

Dünən - Aşura günündə Qafqaz Müsəlmanları İdarəsinin yerləşdiyi binada qanvermə aksiyası keçirənlər üçün xüsusi şərait yaradılmışdır. Qanvermə aksiyasında iştirak edənləri Milli Hematologiya və Transfuziologiya Mərkəzinin əməkdaşları mehribanlıqla qarşılayıb müayinə edir, sonra qanvermə prosedurunu həyata keçirirdilər. Bizimlə söhbət zamanı həkim-hemotoloq Könül Muxtarlı bildirdi: "Aksiya Səhiyyə Nazirliyi Milli Hematologiya və Transfuziologiya Mərkəzinin Qan Bankının Bakı şəhəri və müxtəlif regionlarda yerləşən bölmələri tərəfindən keçirilir. Paytaxtın 8 məscid və ziyarətgahında, eyni zamanda respublikanın müxtəlif şəhər və rayonlarında, o cümlədən Gəncə, Lənkəran, Mingəçevir, Sumqayıt, Şəki, Şirvan, Bərdə və Qubada da qanvermə aksiyası keçirilib. Aksiyanın keçirilməsi üçün 160 tibb işçisi ayrılıb. Könül xanım əlavə etdi ki, bu il aksiya iştirakçılarının sayının əvvəlki illərlə müqayisədə artdığı müşahidə olunur.

## Savab iş görmək də ibadətdir

Ən böyük ibadət səxavətdir. Qanından, canından başqasına pay vermək, bir ümidsiz xəstəyə ümid olmaq savab işdir. Xalqımız, inanclı insanlarımız illərdir bu ənənəni davam etdirirlər. Aksiyaya qatılanlar tədarük olunan qan və qandan hazırlanan preparatlardan hemofiliyalı və talassemiyalı, həmçinin qana ehtiyacı olan digər xəstələrin müalicəsində istifadə olunacaqlarını bildikləri üçün daha çox fəallıq göstərirdilər.

Aksiya iştirakçısı, Bakı şəhər sakini Rövşən Baxışov dedi ki, inanclı insanam. İmam Hüseyn mənim üçün zalımın zülmünə qarşı mübarizənin simvoludur. 30 ildir ki, xalqımız uşaq qatillərinə, zalımlara qarşı mübarizə aparır. Düşünürəm ki, bu gün məsciddə zəncir vurmaqdan, baş yarıb qan tökməkdənsə qan vermək daha sivil əzadarlıqdır. Yeddi ildir Aşura günü qan verirəm. Verdiyim qan bir xəstənin sağlamlığına xidmət edəcəksə, nə xoş mənə.

Bizimlə söhbət edən başqa bir aksiya iştirakçısı Arif Əliyev isə fikirlərini belə ifadə etdi: "İllərdir qanvermə aksiyasında iştirak edirəm. Buradan çıxıb şəhidlərimizin ziyarətinə gedəcəyəm. Vətən uğrunda canlarını qurban verən şəhidlərimizi ziyarət də bir ibadətdir".

Söhbətimizi Lənkəran rayon sakini Elnur Abbasovla davam etdiririk: "Mən bu işin təşəbbüskarlarını alqışlayıram. Eləcə də aksiyanı belə mütəşəkkil təşkil edən təşkilatçılara minnətdarlığımı bildirirəm. Bir inanclı insan olaraq deyim ki, bu gün özümü mənəvi cəhətdən daha rahat hiss edirəm. Elə düşünürəm ki, bu işim illərin ibadətinə dəyər. Qan vermək qardaşlıq, dostluq nümunəsidir. Düşünəndə ki, tanımadığın biri damarlarında sənin qanını daşıyacaq, ürəyi sənin qanınla döyünəcək, adamın ruhu sakitləşir. Kaş qan verdiyimiz adamlar əməlisaleh insanlar olsunlar".

Xatırladaq ki, gün ərzində Mir Mövsüm Ağa ziyarətgahında, Əjdərbəy məscidində, "Sahib-əz-Zaman" məscidində, Bibiheybət məscid-ziyarətgahında, Qaraçuxur məscidində, Hacı Soltanəli məscidində, İmam Əli məscidində də qanvermə aksiyası keçirilib. Aksiyada ölkəmizdə yaşayan digər dini icmaların nümayəndələri də fəal iştirak etmişlər.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# İnsan qatillərinin yanında olmaq Hindistanın mövqeyinə xələl gətirir

Hazırda Azərbaycan Ermənistanla sülh sazişi üzrə danışıqlar aparır. Dövlətimizin məqsədi hər zaman ölkəmizdə, eləcə də bütün regionda sülhün və təhlükəsizliyin bərqərar olmasıdır. Azərbaycanın öz məqsədinə hər zaman sadiq qaldığını Prezident İlham Əliyev hər bir görüşündə, beynəlxalq səviyyəli tədbirlərdəki çıxışlarında bəyan edir, sülh müqaviləsinin imzalanması istiqamətində atılan addımlardan və onun nəticələrindən bəhs etməklə dövlətimizin mövqeyini bildirir.



Ermənistan sözdə Azərbaycanın ərazi bütövlüyünü, ölkəmizin təqdim etdiyi və beynəlxalq hüququn 5 əsas prinsipini özündə ehtiva edən sülh müqaviləsini artıq dəstəkləyir. Bununla belə, öz məkrli xislətindən, işğalçı mövqeyindən də əl çəkmir. Davamlı təxribatlar törətməklə açıq-aşkar sülhə maneələr, təhdidlər yaratmaqda davam edir.

Təəssüf doğuran məqamladan biri də budur ki, davamlı sülhün, sabitliyin yaradılmasına və möhkəmlənməsinə mane olan Ermənistana gizli və aşkar şəkildə dəstək verən, onu silahlandıran ölkələr də var. Bunlardan biri də Hindistandır. Son günlər KİV-lərdə Hindistan istehsalı olan silah sistemlərinin İran vasitəsilə Ermənistana daşınması barədə yayılan foto və videolar deyilənlərin təsdiqidir. Avtomobil karvanının Nurdüz (İran) sərhəd-buraxılış məntəqəsindən Ermənistana hərəkəti qeydə alınıb. Məlumatlara əsasən, İrandan Ermənistana daşınan hərbi təyinatlı yüklər İranın Bəndər-Abbas limanına çatdırılır. Son zamanlar Ermənistanla hərbi-texniki əməkdaşlığı sürətlə inkişaf etdirən Hindistan silahların tədarükçüsüdür. Ermənistan və Hindistanın 400 milyon dollarlıq hərbi müqavilə imzaladığı açıq mənbələrdən məlumdur. Bu iki ölkənin hərbçiləri arasında son vaxtlar tez-tez təmasların olması hərbi əməkdaşlığın gücləndiyini göstərir.

Ermənistanla Hindistan arasında hərbi əməkdaşlığın dərinləşməsi, əslində, yeni məsələ deyil. Hindistan əvvəllər də Ermənistana öldürücü silahlar tədarük edib.

Bütün dünyaya bəllidir ki, Ermənistan işğalçı ölkədir. İstər müharibə, istərsə də atəşkəs dövründə bu ölkə yalnız hərbi mövqelərimizi atəşə tutmayıb. Hətta Azərbaycanın cəbhə xəttindən uzaqda yerləşən yaşayış məntəqələrinə də ən dəhşətli silahlardan atəşlər yağdırıb, dinc insanları qətlə yetirib. Ermənistanın 30 illik işğalı dövründə xalqımızın humanitar fəlakətlə üzləşdiyini, bir milyon soydaşımızın evsiz-eşiksiz qaldığını, bu faktın Azərbaycanın inkişafı üçün böyük əngəllər törətdiyini bu il mayın 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Hindistan Respublikasının ölkəmizə təyin olunan fövqəladə və səlahiyyətli səfiri Sridharan Madhusudhananın etimadnaməsini qəbul edərkən vurğuladı. Torpaqlarımızın işğaldan azad edildiyi bir dövrdə ölkəmizin bütün sahələrdə böyük potensiala malik olduğunu, işğaldan azad edilmiş ərazilərimizdə genişmiqyaslı bərpa-quruculuq işlərinin həyata keçirildiyini vurğulayan dövlətimizin başçısı qeyd etdi ki, Vətən müharibəsində əldə olunan Qələbədən sonra Azərbaycan xalqı qürur hissi ilə yaşayır və bu, özünü bütün sahələrdə göstərir.

Dövlətimizin başçısı səfirlə görüşündə Ermənistanda revanşist qüvvələrin baş qaldırmaqda olduğunu, ölkəmizə qarşı ərazi iddialarının davam etdiyini bildirdi. Ermənistanın sürətlə silahlanmasının yeni təhlükələr yaratdığını vurğulayan Prezident İlham Əliyev qeyd etdi ki, əgər, doğrudan da, Ermənistan Azərbaycan ilə sülh istəyirsə, onda nə üçün 100 milyonlarla dollar dəyərində silah alır. Dövlətimizin başçısı bu siyasətin bölgə üçün yeni təhdidlərə gətirib çıxara biləcəyini də nəzərə çatdırdı.

Hansı fəlakətlərə səbəb ola biləcəyini anladığı halda Hindistan Ermənistana silah-sursat ötürməkdə davam edir. Bu ölkədən Ermənistana silah tədarükünə dair müqavilə imzalandığı barədə bir müddət əvvəl məlumatlar yayılıb. İrəvanla Dehli arasında ötən il sentyabrın əvvəllərində imzalanan müqavilənin bəzi detallarını Ermənistan mətbuatı Hindistanın "The Economic Times" nəşrinə əsaslanaraq açıqlayıb. Müqavilənin şərtlərinə görə, Hindistan Ermənistana təxminən 250 milyon dollarlıq silah tədarük edəcək. Məlumata əsasən, bunlar "Pinaka" raket sistemləri və onların sursatları, həmçinin tank əleyhinə digər silahlardır. Silahlar Hindistanın yerli istehsalıdır və onlardan daxili silahlanmada istifadə edilir.

Ermənistanla Hindistan arasında hərbi əməkdaşlığın dərinləşməsinin və bu xüsusda son günlər mediada bu ölkənin istehsalı olan silah sistemlərinin İran vasitəsilə Ermənistana daşınması barədə yayımlanan foto və videoların Azərbaycan tərəfində yaratdığı narahatlığı iyulun 26-da Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Hindistanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Sridharan Madhusudhanan ilə görüşündə diqqətə çatdırdı. Prezident Administrasiyasının rəsmisi Hindistanın bu hərəkətinin özünün bəyan etdiyi beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan xarici siyasəti, eləcə də bu ölkənin də təmsil olunduğu Qoşulmama Hərəkatının tarixi "Bandunq prinsipləri" ilə uyğun gəlmədiyini qeyd etdi. Hikmət Hacıyev Hindistan səfirinə Azərbaycan tərəfinin ciddi narahatlığını rəsmi Dehlinin diqqətinə çatdırmağa və Hindistanı Ermənistana öldürücü silahların tədarükü ilə bağlı qərarını bir daha nəzərdən keçirməyə çağırdı.

Şərin yanında olmaq, şərə xidmət etmək tarixboyu heç bir ölkəyə, xalqa fayda verməyib, başucalığı gətirməyib. Hindistan bilməlidir ki, başqa bir ölkənin, xalqın torpaqlarına göz dikən, günahsız insanları qətlə yetirən, soyqırımları törədən Ermənistana silah-sursat tədarük etmək onun mövqeyinə bütün dünyada xələl gətirir.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# MN: "Qanunsuz erməni silahlı dəstələri tərəfindən radiomaneələrin tətbiqi son günlər intensivləşib"

Azərbaycanın hava məkanından istifadə etməklə uçuşlar yerinə yetirən yerli və xarici aviaşirkətlərin sərnişin təyyarələrinin GPS peyk naviqasiya sistemlərinə qarşı Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi ərazilərimizdəki qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən radiomaneələrin tətbiqi son günlərdə intensivləşib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, iyulun 24-də Bakı-Füzuli marşrutu üzrə uçuş yerinə yetirən "Azərbaycan Hava Yolları"nın ATR-45 tipli sərnişin təyyarəsinə saat 10:49-dan 11:16-dək, iyulun 25-i Budapeşt-Bakı marşrutu üzrə uçuş yerinə yetirən Çexiya Hava Yollarının C-680 tipli sərnişin təyyarəsinə saat 14:48-dən 15:25-dək və iyulun 27-i Bakı-Qəbələ və əks-istiqamətdə uçuş yerinə yetirən "Azərbaycan Hava Yolları"nın ATR-45 tipli sərnişin təyyarəsinə saat 14:08-dən 14:30-dək və saat 15:04-dən 15:26-dək radiomaneələrin tətbiqi nəticəsində GPS peyk naviqasiya sistemlərində fasilə yaranıb.

Bu faktlar və əvvəllər baş vermiş eyni hadisələr barədə Rusiya sülhməramlı kontingentinin komandanlığı tərəfimizdən məlumatlandırılıb.

Hava məkanımızdan keçən uçuşların təhlükəsizliyinə ciddi təhdid yaradan bu təxribatlara qarşı Rusiya sülhməramlı kontingenti tərəfindən bu günədək heç bir tədbir görülməyib.

# Revanşistlərin "kitab"ı bağlanır

Hayastanda revanşist qüvvələr sülh müqaviləsinin imzalanması prosesinin baş tutmaması üçün məkrli niyyətlərini heç də gizlətmirlər. Amma buna əngəl olmaq üçün nə daxili, nə də xarici dəstəyə malik olmadıqlarını da çox yaxşı bilirlər. Elə buna görə də Hayastanın keçmiş xarici işlər naziri, revanşist Vardan Oskanyan baş nazir Nikol Paşinyandan susmağı və ya istefa verməsini istəyib. O bildirib ki, hakimiyyətin bu gün etdikləri gələcəkdə başqa müharibəyə səbəb ola bilər.

Belə ki, Hayastan təhlükəsizliyi üçün əhəmiyyət daşıyan anklavları təslim etmək istəyir. Bu ərazilərdə 85-100 min azərbaycanlı məskunlaşacaq və çox ciddi problem (Hayastan üçün-red.) yaradacaq.

Erməni konfliktoloq Artur Martirosyan isə bildirib ki, Hayastan hakimiyyəti Azərbaycanın Qarabağa humanitar yüklərin çatdırılmasına icazə verməyəcəyini gözləmirdisə, deməli, orada oturanlar çox pis analitikdirlər, ya da başqa oyun oynayırlar. Onun sözlərinə görə, baş verənlər hökumət üçün gözlənilən addımdır: "Əgər Nikol Paşinyan deyirsə ki, Ağdam yolu məsələsi Mişellə Əliyev arasında müzakirə olunanda Brüsseldə olub və müzakirədə iştirak etməyib, deməli, o, buna göz yumub. Azərbaycan tərəfi Mişel üçün məqbul olan hansısa variant təklif etdi. İndi siz başqa variantla problemi həll etməyə çalışırsınızsa, qarşı tərəf niyə o varianta razı olsun. Onlar artıq sərfəli variantı razılaşdırıblar və siz susmusunuz, avropalılar da "hə" deyiblər. Əgər mandatınız yoxdursa, ümumiyyətlə, Qarabağ üzrə niyə danışıqlar aparırsız?"

Artur Martirosyan hesab edir ki, xaricdən verilən bəyanatlarla heç nəyə nail ola bilməyəcəklər. Azərbaycana qarşı sanksiyaların olmaması Azərbaycanın Qərb üçün çox mühüm maraqlara xidmət etməsi, eyni zamanda erməni diplomatiyasının sıfıra bərabər olması deməkdir. Hayastan tərəfi Qərbə elə təsir göstərə bilməz ki, Azərbaycanla başqa cür davransınlar.

Azərbaycanşünas erməni ekspert Tatev Ayrapetyan isə deyib ki, Hayastan lideri beynəlxalq platformalarda üzrxah, verdiyi vədlərin heç birini tuta bilməyən, davamlı yalan danışan şəxs kimi qəbul edilir. Bu, xaricdə onun haqqında geniş yayılmış fikirdir. Artıq onun sözünə inanmırlar və bu, Hayastan üçün çox ciddi problemlər yaradır.

Bildirib ki, Nikol Paşinyan və "Vətəndaş müqaviləsi" partiyası hakimiyyətə gəldikləri gündən Hayastan vətəndaşlarına verdikləri vədi unudublar. Hazırda Paşinyan və onun komanda yoldaşlarının səsləndirdiyi tezislər onların hakimiyyətə gələrək ictimaiyyətə təqdim etdikləri partiyanın və həmçinin hökumətin proqramı ilə tamamilə ziddiyyət təşkil edir. "Vətəndaş müqaviləsi" partiyasının 2021-ci il seçkiqabağı proqramında Qarabağ münaqişəsinin həlli ilə bağlı aşağıdakılar deyilirdi: "Yaxın illərdə bizim əsas vəzifəmiz fəlakətli müharibənin nəticələrinin aradan qaldırılması, o cümlədən Qarabağ ermənilərinin təhlükəsizliyinin təmin edilməsi və Qarabağ münaqişəsinin öz müqəddəratını təyinetmə prinsipi əsasında sülh yolu ilə və hərtərəfli həlli olmalıdır".

İndi Paşinyan tamamilə yeni plan icad edib. Bu planla Hayastan təkcə Qarabağı deyil, Ayrapetyanın fikrincə, digər mühüm strateji əraziləri də Azərbaycana verməyə hazırdır və onun həyata keçirilməsi üçün mandatının olduğunu bildirir. Digər hal isə odur ki, Hayastan özünü danışıqlardan kənarda qoyub və belə görünür ki, yalnız Qarabağ məsələsində bu belədir. Əslində isə, Nikol Hayastanla bağlı danışıqlardan da kənarda qalıb. Azərbaycan mətbuatında çoxlu materiallar var ki, biz Hayastanla deyil, Brüssel, Vaşinqton və ya Moskva ilə müqavilə bağlayacağıq.

Hər iki ölkə arasında sülh müqaviləsinin imzalanmasının aktual olduğu bir dönəmdə hərbi xuntanın və ona bənzər digər araqızışdıranların bu cür sərsəm bəyanatlar verməsi erməni xalqını növbəti dəfə fəlakətə sürükləyir. Qeyd edək ki, Azərbaycanla müharibədəki məğlubiyyət Hayastanı elə bir uçuruma yuvarladıb ki, xilası mümkün deyil. Bütün bunlar, o cümlədən Koçaryan və Sarkisyan kimi müharibə cinayətkarlarının iqtidarı dövründən yığılıb qalmış ağır problemlər hazırkı hakimiyyəti çətin vəziyyətdə qoyub. Əslində, revanşist qüvvələr çox yaxşı başa düşürlər ki, böyük siyasətə qayıtmaq üçün heç bir şansları yoxdur - xalq hələ onların hakimiyyət dövrünü unutmayıb.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# Qarabağ və Şərqi Zəngəzur ərzaq təhlükəsizliyinə mühüm töhfələr verəcək

## Bu regionda ixracyönümlü məhsulların istehsalı üçün də böyük potensial var

İşğaldan azad olunan ərazilərin təbii ehtiyatları, xüsusilə kənd təsərrüfatı potensialı ölkəmizin iqtisadi inkişafı baxımından mühüm əhəmiyyət daşıyır. Bu torpaqlarda kənd təsərrüfatının inkişafı ilə bağlı işlərə xeyli vaxtdır başlanılıb. Hətta vaxtilə Qarabağda təsərrüfat sahibi olan, dolanışığı torpaqdan çıxan yerli sakinlər indidən doğma yuvalarına qayıtdıqdan sonra görəcəkləri işlərin planını da qurublar.

İşğaldan əvvəlki dövrdə Qarabağ və Şərqi Zəngəzur ərazisi yüksək kənd təsərrüfatı göstəriciləri ilə seçilirdi. Ölkədə taxıl, pambıq, üzüm, ət, süd, yun və barama istehsalının çox hissəsi həmin ərazilərin payına düşürdü. İndi regionun aqrar sahədə əvvəlki şöhrətini qaytarmaq üçün hazırlıq işləri görülür. Məskunlaşma prosesi başlayandan sonra kənd təsərrüfatı ilə məşğul olacaq sakinlərin aqrar texnika, toxum, gübrə və digər lazımi vasitələrlə təmin edilməsinə dair dövlət planı hazırlanıb. Onu da deyək ki, bu bölgədə ixracyönümlü kənd təsərrüfatı məhsullarının istehsalı üçün böyük potensial da var.

Prezident İlham Əliyev tərəfindən həyata keçirilən aqrar islahatlar kənd təsərrüfatının daha böyük inkişafına yol açıb. Bu barədə faktlar nə deyir? Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, 2023-cü ilin yanvar-iyun ayları üzrə kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 5865,2 milyon manat təşkil edib. Bu məbləğin 2897 milyon manatı heyvandarlıq, 2968,2 milyon manatı isə bitkiçilik məhsullarının payına düşür. Əvvəlki ilin eyni dövrü ilə müqayisədə kənd təsərrüfatının istehsalı 3,4, o cümlədən heyvandarlıq məhsulları üzrə 3,7, bitkiçilik məhsulları üzrə 3 faiz artıb. 2023-cü ilin 6 ayı üzrə ümumi məhsulun 49,4 faizi heyvandarlığın, 50,6 faizi bitkiçiliyin payına düşüb.

Ölkə üzrə bu inkişafın ləngiməməsi üçün Füzuli, Ağdam, Cəbrayıl, Qubadlı rayonlarında taxılçılıq, həmçinin üzümçülük, meyvəçilik, fındıqçılıq sahələri daha da genişləndirilməlidir. Şübhəsiz, dövlət bu işdə kənarda qalmayacaq, həm öz tövsiyələrini verəcək, fermerlərə, oraya qayıdacaq vətəndaşlara hərtərəfli dəstək göstərəcək, həm də onların yetişdirdikləri məhsulu bazarlara çıxarmaq üçün şərait yaradacaq. Bu da fermerə stimul verməklə yanaşı, məhsulların əkilməsinə, meyvə bağlarının salınmasına marağını artıracaq. Kənd təsərrüfatının bu cür dirçəldilməsi ölkəmizin ixrac potensialında yaşıl işıq rolunu oynayacaq.

Qarabağ və Şərqi Zəngəzurun böyük iqtisadi potensialı, təbii ehtiyatları var. Bu ərazilərə yerli və xarici investisiya qoymaqla əhalinin həm məşğulluğu təmin edilmiş olacaq, həm də bolluq yaranacaq. Qeyd edildiyi kimi, bu rayonlar işğaldan əvvəlki zamanlarda üzümçülük, pambıqçılıq, taxılçılıq və heyvandarlıqla məşğul olublar. Sadalanan sahələri bərpadan sonra davam etdirməklə istehsalı artırmaq və ixrac potensialını böyütmək mümkündür. Onu deyək ki, bölgə üçün ənənəvi hesab edilən heyvandarlıq və taxılçılıqla yanaşı, meyvəçilik və tərəvəzçiliyin də potensialı genişdir. Bu ərazilərdə kənd təsərrüfatının inkişafında xüsusilə nar, fındıq, çəyirdəkli meyvəçiliyin inkişafı üçün perspektivlər var. Ağdam, Füzuli, Cəbrayıl rayonlarında pambıqçılığın, Ağdam və Füzuli rayonlarında tərəvəzçiliyin, Ağdam, Füzuli, Cəbrayıl və Zəngilan rayonlarında milli üzüm sortları əsasında üzümçülük-şərabçılıq sahələrinin inkişafı baxımından əlverişli imkanlar mövcuddur. Kəlbəcər və Laçın rayonlarının zəngin otlaq və yaylaqları heyvandarlığın və arıçılığın inkişafında mühüm əhəmiyyət kəsb edir. Həmçinin bu bölgədə heyvandarlıq sahəsinin intensiv və yarımintensiv ferma modeli əsasında da inkişafı təmin ediləcək.

Erməni vandallarının viran qoyduğu kənd təsərrüfatını bərpa etmək xeyli vaxt aparsa da, nəticə yüksək olacaq. Müasir kənd təsərrüfatı avadanlıqlarının istifadəsi, innovativ texnologiyaların tətbiqi aqrar sahədə böyük sıçrayış etməyə imkan verir. Bu, dünyanın hər yerində belədir. Məsələn, ərazisi Azərbaycan ərazisinin yarısı qədər olan Niderlandın iqlim şəraiti kənd təsərrüfatının inkişafına illərlə mane olub. Lakin son innovativ texnologiyalar nəticəsində Niderland kənd təsərrüfatı məhsulları ixracında ABŞ-dən sonra dünyada ikinci yerdə qərar tutub. Ölkə bu uğura görə aqrar sənayedəki texnoloji inqilaba borcludur.

Qarabağ və Şərqi Zəngəzurda da qabaqcıl ölkələrin təcrübəsindən istifadə edərək aqrar sektorda böyük uğurlar əldə etmək olar. Bu uğurların mənbəyində təbii ki, bölgənin münbit torpağı, zəngin su ehtiyatları dayanır. Məhsuldarlığın artmasında çox mühüm rol oynayan bu amillər xarici investorların əraziyə cəlb olunmasına yol açacaq. Bu, həm də o deməkdir ki, həmin rayonlarda kənd təsərrüfatı ilə yanaşı, emal sənayesi də genişlənəcək. Buradakı sənaye parkları emal sənayesi üçün infrastrukturların yaradılmasına xidmət edəcək. Məhz bu səbəbdən bir çox xarici şirkətlər, o cümlədən İsrail, Belarus və Rusiya müəssisələri Azərbaycanın işğaldan azad edilmiş ərazilərində aqroşəhərlər və kənd kommunaları tikməyə hazır olduqlarını bəyan ediblər.

Prezident İlham Əliyev bu məsələ ilə bağlı fikirlərini Şuşada keçirilən Qlobal Media Forumunda xarici jurnalistlərin suallarını cavablandırarkən belə dedi: "Mən Amerika şirkətlərini kənd təsərrüfatı sahəsində də görmək istərdim. Biz, əlbəttə ki, kənd təsərrüfatı sahəsində, suvarmada Amerika şirkətlərinin aparıcı avadanlıqlarından istifadə edirik. Ancaq mən investor görmək istəyirəm, çünki Azərbaycanın kənd təsərrüfatı sahəsinin, xüsusilə azad olunmuş ərazilərin kənd təsərrüfatı potensialı olduqca böyükdür. Burada çox məhsuldar torpaqlar var və bizim su resurslarımızın 25 faizi məhz Qarabağdan qaynaqlanır. Təsəvvür edirsiniz? Biz 30 il bundan məhrum edilmişdik. Ermənilər platinaları və dambaları bağlayırdılar və bizim 100 minlərlə hektar torpağımız sudan məhrum edilirdi. Biz məcbur idik ki, artezian quyuları qazaq. Bu gün isə artıq həmin su Qarabağın həyat mənbəyidir, həmin su ehtiyatlarını Azərbaycanın mərkəzi rayonlarına da gətirəcəyik. Belə bir boru kəməri inşa ediləcəkdir".

Bu gün işğaldan azad edilmiş Kəlbəcər, Laçın və Zəngilan rayonlarındakı otlaq sahələrində çobanlar öz qoyun sürüləri ilə birlikdədir, həmçinin də arıçılar orada öz təsərrüfatlarını qurub məhsul istehsalı ilə məşğuldurlar. Prezidentin təbirincə desək, artıq biz bal ixracatçısına çevrilmişik. Hazırda Qarabağ və Şərqi Zəngəzur bölgəsinin faunasının bərpası üçün də mühüm tədbirlər həyata keçirilir.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

# Bu yol Zəngəzura gedir

## Tikintisi davam edən Horadiz-Zəngilan avtomobil yolu işğaldan azad edilmiş ərazilərimizin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq

Şanlı zəfərimizlə bitən Vətən müharibəsindən ötən 2 il yarım müddət ərzində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında böyük tikinti-quruculuq işləri həyata keçirilməkdədir. Əlbəttə ki, bu ərazilərdə hərəkətin tənzimlənməsi üçün ilk növbədə yolların yenidən qurulması, körpü və tunellərin tikintisi xüsusi əhəmiyyət kəsb edir. Həm bərpa-quruculuq işlərinin intensivləşdirilməsi, həm də tranzit-logistik baxımdan yolların inşası təxirə salınmadan həyata keçirilir.







Prezident İlham Əliyev işğaldan azad edilmiş şəhər və rayonlarımıza səfərləri zamanı yeni yolların açılışlarını edir, digər tikinti işlərinin sürətlə aparılması ilə bağlı ciddi tapşırıqlarını verir.

Qeyd edək ki, bu bölgədə 2026-cı ilədək 2300 kilometrə yaxın 20 avtomobil yolu layihəsinin icrası nəzərdə tutulub. Artıq İlham Əliyevin Zəfər yolu adlandırdığı avtomobil yolu, Tərtər-Çaylı-Suqovuşan-Talış yolu və Laçın şəhərinə daxil olmadan yeni alternativ yolun inşası başa çatdırılıb. Bu il daha 12 layihənin icrası tamamlanacaq.

İnşası davam etdirilən yollardan biri də Horadiz-Zəngilan avtomobil yoludur. Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunun ərazisində mövcud Horadiz-Zəngilan avtomobil yolunun əsaslı təmiri işlərinin həyata keçirilməsi ilə bağlı tədbirlər haqqında Azərbaycan Prezidentinin sərəncamına uyğun olaraq Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən yenidənqurma işlərinə start verilib.

Təmir-tikinti işləri M-6 Hacıqabul-Bəhrəmtəpə-Mincivan-Ermənistan Respublikası ilə dövlət sərhədi avtomobil yolunun (km 173+600 - km 235+000) 61,4 km-lik Horadiz-Zəngilan hissəsində həyata keçirilir. III texniki dərəcəyə uyğun olaraq əsaslı şəkildə yenidən qurulan yolun torpaq yatağının eni 12 metr təşkil edir. Layihə üzrə əsaslı təmir işləri 173,6-189, 189-205, 205-220 və 220-235-ci kilometrlər daxil olmaqla 4 hissədə aparılır.

Hazırda yolboyu mövcud asfalt-beton örtüyün kənarlaşdırılması, qazma, tökmə işləri, yol yatağının və yol əsasının tikintisi, suların ötürülməsini təmin etmək məqsədilə müxtəlif ölçülü suötürücü boruların inşası, körpülərin təmiri, həmçinin kommunikasiya xətlərinin köçürülməsi işləri aparılır.

"İnşaat Norma və Qaydaları"na uyğun, Avtomobil Yolları Dövlət Agentliyinin nəzarəti altında həyata keçirilən layihənin icrası tərtib olunmuş qrafikə uyğun və texnoloji ardıcıllığa riayət olunmaqla aparılır. Tikinti işlərinin vaxtında yekunlaşdırılması üçün əraziyə lazımi sayda işçi qüvvəsi və texnika cəlb olunub.

Horadiz-Zəngilan avtomobil yolu Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan və işğaldan azad edilmiş ərazilərin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastrukturu layihələrindən biri sayılır.

Qarabağ iqtisadi rayonunda da yolların tikintisi davam etdirilir. İyulun 20-də Prezident İlham Əliyev Füzuli rayonunda səfərdə olarkən 1-ci texniki dərəcəli Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun Füzuli Beynəlxalq Hava Limanına qədər olan 27 kilometrlik hissəsinin tikintisi ilə tanış olub.

Mövcud yolun uzunluğu 101, yeni yolun uzunluğu isə 81,7 kilometrdir. Yolun Tuğ dairəsinədək olan 48 kilometrlik hissəsi altı, 33,7 kilometrlik hissəsi isə dörd hərəkət zolağından ibarət olacaq. Yolun baxış keçirilən 27 kilometrlik hissəsində əsas infrastruktur işləri tam icra olunub. Ümumilikdə Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun tikintisinin 50 faizi tamamlanıb. Yolboyu müxtəlif diametrli 137 suötürücü boru, 30 yeraltı keçid, 8 körpü, 7 tunel və 9 viaduk inşa edilir. Körpülərin ümumi uzunluğu 984, viadukların uzunluğu isə 2090 metrdir.

Layihə üzrə tikintisi nəzərdə tutulmuş doqquz viadukun səkkizində hazırda inşaat işləri davam etdirilir. Viadukların üçünün tikintisi zamanı Azərbaycanda ilk dəfə olaraq aşırım qəliblərin üfüqi sürüşdürülməsi üsulu ilə betonlama işləri yerinə yetirilir. Bundan başqa, Zəfər yolunun Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yoluna birləşən hissəsində yol qovşağının tikintisi işləri də uğurla icra olunur.

Ümumiyyətlə, artıq demək olar ki, əksər yolların tikinti prosesinin böyük hissəsi yekunlaşıb. Əminliklə deyə bilərik ki, tezliklə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yol-nəqliyyat infrastrukturu tamamilə yenidən qurulub istifadəyə veriləcək.

Bir sözlə, İkinci Qarabağ müharibəsindəki şanlı qələbədən sonra yaranan yeni reallıq göz önündədir. Qarşıya qoyulan birnömrəli prioritet məsələ işğaldan azad olunmuş ərazilərdə bərpa və quruculuq işləri aparmaq, yeni infrastrukturların yaradılmasına, sərmayələrin cəlb edilməsinə nail olmaqdır. Tezliklə bu yollar Qarabağa və Şərqi Zəngəzura yeni həyat gətirəcək.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***









# Azərbaycan XİN Ermənistanın xarici işlər nazirinin müsahibəsində səsləndirdiyi əsassız iddialara cavab verdi

Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan iyulun 27-də mətbuata müsahibə zamanı Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı ərazi iddiaları irəli sürməklə yanaşı, danışıqlar prosesini və əldə edilmiş razılıqları, eləcə də tarixi faktları kobudcasına təhrif edən əsassız spekulyasiyalarla çıxış edib.



Ermənistan tərəfinin bu günədək müxtəlif beynəlxalq platformalarda verdiyi vədlərdən və üzərinə götürdüyü öhdəliklərdən boyun qaçıraraq həyata keçirdiyi anti-Azərbaycan kampaniyası, o cümlədən sülh sazişi üzrə danışıqları və beynəlxalq vasitəçilərin səylərini heçə endirən ritorikası Ermənistanın bölgədə sülh və sabitlikdə maraqlı olmadığını bir daha sübut edir.

AZƏRTAC xəbər verir ki, bu barədə A.Mirzoyanın müsahibə zamanı səsləndirdiyi əsassız fikirlərə dair Azərbaycan Xarici İşlər Nazirliyinin şərhində qeyd olunub.

Bildirilib ki, Azərbaycanın erməni sakinlərin reinteqrasiyası səylərinə dəstək vermək əvəzinə, bu istiqamətdə öz təhrikçi və heç bir məntiqə sığmayan arzularının siyahısını təqdim edən Ermənistanın xarici işlər nazirinin aqressiv ritorikasına beynəlxalq ictimaiyyət tərəfindən müvafiq qiymət verilməsi xüsusi əhəmiyyət kəsb edir.

Bununla yanaşı, keçmiş Ermənistan-Azərbaycan münaqişəsinin əsl səbəbləri və mahiyyətini təhrif edən, azərbaycanlıları Ermənistan ərazisində hədəf almaq, onları qətlə yetirmək, Azərbaycan ərazilərini işğal etmək, kütləvi qırğınlar törətməklə başlatdığı münaqişənin səbəbinin "Dağlıq Qarabağın əhalisinin hüquq və təhlükəsizliyi" məsələsi olduğunu iddia edən, "Dağlıq Qarabağ əhalisi və ərazisi" kimi qondarma məfhumları təkrarlayan Ermənistan xarici işlər nazirinin tarixi səhvlərdən dərs çıxarmaması ciddi təhdid və təhlükə mənbəyidir.

Xarici işlər naziri A.Mirzoyanın azərbaycanlıların indiki Ermənistan ərazisindəki torpaqlarından zor gücünə qovulması faktını inkar etməsi, Qərbi Azərbaycan İcmasının hüquqları ilə Qarabağ bölgəsində yaşayan erməni sakinlərin hüquqları arasında paralel yanaşma tətbiq olunmadığını iddia etməsi və bu barədə aparılmış danışıqları inkar etməsi, Ermənistanın aidiyyəti beynəlxalq öhdəliklərini, konvensiyalar çərçivəsində məsuliyyətini pozması, o cümlədən sistemli və məqsədyönlü şəkildə onilliklər ərzində həyata keçirdiyi etnik təmizləmə siyasətinə bəraət qazandırması niyyətindən xəbər verir.

Ermənistan ərazisində yaşayan dinc azərbaycanlıların fiziki məhvi, onlara qarşı qanlı qırğınlar törədilməsi, hədə-qorxu vasitəsilə əhalinin zorla köçürülməsi tarixi bir faktdır. Ermənistan tərəfinin təxribatçı iddialarına baxmayaraq, indiki Ermənistan ərazisində azərbaycanlı əhaliyə qarşı zorakılığın və deportasiyanın miqyasına dair tam təsəvvürə malik olmaq üçün xarici işlər naziri Ararat Mirzoyanın bölgədə azərbaycanlı və erməni əhalinin nisbətində hansı dəyişikliklər baş verdiyi ilə tanış olması kifayətdir. Yaxşı məlumdur ki, vaxtilə Ermənistanın indiki ərazisində faiz nisbətində say çoxluğuna malik olan azərbaycanlılardan heç bir əsər-əlamət qoyulmayıb, bu fəaliyyət mütəşəkkil və məqsədyönlü siyasətin tərkib hissəsi olub.

Ermənistan rəhbərliyinin azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə öz doğma torpaqlarına geri qayıtması hüququnu təkzib etməsi, yüz minlərlə azərbaycanlının daxil olduğu Qərbi Azərbaycan İcmasının Ermənistan rəhbərliyini bu istiqamətdə dialoqa çağırışına qarşı çıxması, bu hüquqların tələbinin "ərazi iddiası" kimi təqdim edilməsi Ermənistanın "insan hüquqlarına" heç bir dəyər verməyən və "etnik təmizləmə əsasında monoetnik dövlət titulunu" qorumaq üzrə məkrli siyasətinin bir göstəricisidir.

"Ermənistan xarici işlər naziri anlamalıdır ki, Qarabağ bölgəsinin erməni sakinlərinin hüquqları bölgənin azərbaycanlı əhalisinin hüquqlarından heç zaman üstün ola bilməz və Azərbaycan, ərazisində yaşayan müxtəlif etnik xalqlara münasibətdə yalnız bərabər yanaşma tətbiq edir və edəcək.

Ermənistandan azərbaycanlıların qovulması nəinki tarixi faktdır, eynilə, həm sovet Ermənistanı dövründə, həm də 1990-cı illərdən bəri Ermənistan ərazisindəki minlərlə Azərbaycan toponimlərini məqsədyönlü şəkildə dəyişən, Ermənistan ərazisindən Azərbaycan izlərini pozan, tarixi abidələri dağıdan, bununla Azərbaycanın tarixi torpaqlarını erməniləşdirməyə cəhd göstərən Ermənistan tərəfinin Azərbaycanın Qərbi Azərbaycan İcması ifadəsindən istifadə etməsini beynəlxalq hüquq pozuntusu kimi təqdim etməsi riyakarlıqdır.

İndiyə qədər heç bir razılaşmaya və öhdəliyə riayət etməyən Ermənistanın Azərbaycanı xəyali razılıqları inkar etməkdə təqsirləndirməsi öz mümkün təxribatlarını örtbasdır etməyə yönəlmiş bir addımdır. Ermənistanın bu destruktiv fəaliyyətləri beynəlxalq ictimaiyyət tərəfindən qınanmalı və onların qarşısı alınmalıdır", - deyə XİN-in şərhində vurğulanıb.

# *İcma:* "Ermənistana ünvanlanmış dialoq təklifinin ərazi iddiası kimi hesab olunması qəbuledilməzdir"

"Qərbi Azərbaycan İcması son günlər bir sıra Ermənistan rəsmiləri tərəfindən Qərbi Azərbaycana qayıdışa dair səsləndirilən bəyanatları qınayır. Bu, bir daha Ermənistanda azərbaycanofobiyanın hökm sürdüyünü bariz şəkildə sübut edir".

AZƏRTAC xəbər verir ki, bu fikirlər Qərbi Azərbaycan İcmasının məsələ ilə bağlı açıqlamasında yer alıb.

Açıqlamada, həmçinin deyilir: "Qərbi azərbaycanlıların guya deportasiyaya məruz qalmadıqları, evlərinin əvəzində kompensasiya alaraq öz əzəli torpaqlarını tərk etmələrinə dair iddialar isə, ümumiyyətlə, heç bir mənəvi-əxlaqi dəyərlərə sığmır.

Qərbi Azərbaycan İcmasının Ermənistana ünvanlanmış dialoq təklifinin ərazi iddiası kimi hesab edilməsi qəbuledilməzdir.

Ermənistan rəsmilərinin bəyanatları həm də onu göstərir ki, Ermənistan son vaxtlar Qərbi Azərbaycana qayıdış məsələsinin beynəlxalq müstəviyə çıxarılmasından olduqca narahatdır.

Bundan əlavə, Ermənistan rəsmilərinin Azərbaycanın Qarabağ bölgəsində yaşayan ermənilərin "müstəsnalığına" dair dedikləri insan hüquqlarına kökündən ziddir. Ermənistan hökumətinə bir elementar həqiqəti xatırlatmaq istərdik ki, Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 1-ci bəndinə əsasən, "Bütün insanlar öz ləyaqətləri və hüquqları etibarilə azad və bərabər doğulurlar".

Həmçinin həmin bəyannamənin 13-cü bəndinə əsasən, hər bir insan öz ölkəsinə qayıtmaq hüququna malikdir. Ermənistandan zorla qovulmuş azərbaycanlılar bu hüquqlarının təmin edilməsi üçün öz dinc mübarizələrini əzmlə davam etdirəcəklər".

# Qərbi Azərbaycan İcması Fransanı Azərbaycanın daxili işlərinə müdaxilə etməməyə çağırıb

Qərbi Azərbaycan İcması Fransa Xarici İşlər Nazirliyinin Laçın yolu ilə bağlı 2023-cü il 27 iyul tarixli qərəzli bəyanatını qınayır. Fransanı Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə hörmət etməyə, Azərbaycanın daxili işlərinə müdaxilə etməməyə çağırır.

AZƏRTAC xəbər verir ki, bu barədə icmanın açıqlamasında bildirilib.

Qeyd olunub ki, Qərbi Azərbaycan İcması Fransanı ikili standartlar siyasətinə son qoymağa, beynəlxalq hüququn norma və prinsiplərini selektiv şəkildə təfsir etməməyə, icma ilə dialoqun aparılması və qərbi azərbaycanlıların sülh və əmin-amanlıq şəraitində Ermənistanda öz dədə-baba yurdlarına qayıtması üçün Ermənistana çağırış etməyə dəvət edir.

# “Böyük qayıdış” proqramı sürətlə icra olunur

Bir köç karvanı düşünün...
Yükü xoşbəxtlik, bəzəyi ay-ulduzlu, üçrəngli bayraqlar...
Sarvanı yurd eşqi, yönü Vətən qibləsi...
Əhli bəxtəvər, yolu müqəddəs...
Elə bir karvan ki, üz tutub arzuların zirvəsinə doğru...
Bir qərinəlik torpaq nisgilindən qurtuluş ünvanına yetmək üçün ahəstə-ahəstə yol gedir...
Əsən yellərin, coşan sellərin pişvazına çıxaraq şərqilər söylədiyi bu xoşbəxtlik karvanını qarşılayan buludlar sevinc gözyaşları tökür, dağlar da, daşlar da dilə gəlib, "doğma elim, xoş gəldin, Qarabağına, Şərqi Zəngəzuruna" söyləyir...







## El yurda dönür

### Gülə-gülə qayıdan köç arzuların zirvəsinə doğru irəliləyir





#### Başa çatan yurd nisgili

Bəli, Azərbaycan xalqı olaraq Vətən həsrətimizin bitdiyi, yaralı torpaqlarımıza yenidən həyatın qaytarıldığının şahidliyini etdiyimiz qürurlu günlər yaşayırıq. Bir zamanlar ah-nalə, fəryadla öz doğma od-ocaqlarından didərgin düşərək onilliklər boyu min bir zillətlə, aclıqla, yoxluqla, ən dəhşətlisi də mənəvi məhrumiyyətlərlə, yurd nisgili ilə yaşamağa məcbur olan keçmiş məcburi köçkünlərimiz indi qayıdış köçləri ilə yurdlarına dönür, ana torpaqlarında əbədi və xoşbəxt yaşamağa başlayırlar.

Cəmi iki il yarım əvvələ qədər bir həyat nişanəsi belə tapılmayan Qarabağ və Şərqi Zəngəzura bu gün mindən çox sakini qaytarılıb. Bir zamanlar yalnız silah, top-tüfəng səsi gələn torpaqlarımızdan xoşbəxt gələcəyin nişanəsi olan körpə, uşaq sədaları yüksəlir...

Vətən müharibəsinin üzərindən ötən qısa müddət ərzində bu torpaqların sürətlə dirçəldilməsi və hər ötən gün bizə yurdlarımıza yeni qayıdışların xoş sorağını eşitmək nəsibi isə Azərbaycan dövlətinin qarşısına qoyduğu milli prioriteti - Böyük qayıdışı necə əzm və qətiyyətlə gerçəkləşdirməsindən xəbər verir.

Birbaşa Prezident İlham Əliyevin nəzarəti altında Qarabağ və Şərqi Zəngəzurda aparılan sürətli tikinti-quruculuq işləri, həyata keçirilən nəhəng infrastruktur layihələri, bərpa edilən yaşayış məntəqələri imkan verir ki, Böyük qayıdış da uğurla həyata keçirilsin.

Artıq ötən ildən etibarən qayıdış prosesinə start verilib və yüzlərlə ailə yenidən bərpa olunmuş yurdlarına dönüblər.

#### Qayıdışın qızıl səhifələri

Parlaq zəfərdən sonra Vətənə dönən ilk bəxtəvərlər Zəngilanın Ağalı kəndinin sakinləri oldular. 2022-ci il iyulun 19-dan Ağalı kəndinə əhalinin dörd mərhələdə köçürülməsinə start verildi. Qayıdışın qızıl səhifələrindən ilkini çevirdiyimiz həmin tarixi gündə Ağalıya dönən insanların timsalında "məcburi köçkünlük yükü"ndən azad olan insanların xoşbəxtliyinin şahidi olduq.



Ağalıda "ağıllı kənd" layihəsinin təməli 2021-ci ilin aprelində dövlət başçısı tərəfindən qoyulub və burada sakinlər üçün ən müasir həyat şəraiti yaradılıb. "Ağıllı kənd"də innovativ tikinti materiallarından istifadə olunmaqla tam izolyasiya olunmuş 200 fərdi ekoloji ev, ikimərtəbəli 4 qeyri-yaşayış binası, 360 şagird yerlik məktəb və 60 yerlik uşaq bağçası tikilib. Növbəti mərhələ çərçivəsində 150 evin tikilməsi nəzərdə tutulub.

Ağalıda ötən ilin yayından etibarən üç mərhələdə 86 ailə - 420 nəfər məskunlaşıb.

Qayıdışın növbəti ünvanı Tərtərin Talış kəndi oldu. Talışlılar 2023-cü il mart ayının 16-da yurdlarına dönərək Novruz bayramını öz evlərində qeyd etdilər. İlkin mərhələdə 20 məcburi köçkün ailəsi - 90 nəfər Talış kəndinə qaytarıldı.

#### Laçınlı günlər

Laçın şəhərinə qayıdış prosesinə isə mayın 27-də start verildi, həmin gün 20 ailə (97 nəfər) öz torpağına döndü.

28 May Müstəqillik Günündə laçınlılarla doğma yurdlarında görüşən və onlara evlərinin açarlarını təqdim edən xilaskar lider İlham Əliyev bu füsunkar şəhərdə əbədi yaşamın başladığının dosta fəxr, düşmənə qəhr olan rəmzi ismarıcını verdi.

Bu ikiqat bayram günündə laçınlıların qayıdış sevincini bölüşən dövlət başçısı qürurla söylədi ki, "Cənnətin əgər təsviri varsa, bu gün bax budur".

Qalib lider onu da fəxrlə əlavə etdi ki, füsunkar təbiət, əzəmətli dağlar, gözəl binalar, evlər - hər şey çox böyük zövqlə yaradılır ki, həm insanlar burada rahat yaşasınlar, həm də Laçın şəhərinin müasir siması Azərbaycanın əldə etdiyi uğurları ilə eyni səviyyədə olsun.

İyunun 14-də Laçın şəhərinə daha 22 ailə (72 nəfər), ayın 19-da 13 ailə (44 nəfər), 25-də isə 15 ailə (53 nəfər) köçürülüb.

İyul ayında da mərhələli şəkildə Laçın şəhərinə qayıdış həyata keçirilib. Belə ki, iyulun 13-də 23 ailə (85 nəfər), həmin ayın 18-də 18 ailə (73 nəfər), 22-də 22 ailə (79 nəfər), 25-də daha 19 ailə (89 nəfər) köçürülüb.

Laçına yol alan 16 ailə olmaqla 58 nəfərdən ibarət növbəti köç isə iyulun 28-də bu dağlar şəhərinə çatıb. İllərdən sonra ana torpağına əbədi yaşamaq üçün qədəm qoyan daha neçə-neçə laçınlı sakin əl açıb Tanrıya şükranlıq duaları edib, Müzəffər Ali Baş Komandan İlham Əliyevə, rəşadətli Azərbaycan Ordusunun hər bir üzvünə, torpaqlarımızın bütövlüyü uğrunda canlarını qurban verən uca şəhidlərimizə tükənməz minnətdarlıq hisslərini dilə gətirib.

Bununla da Laçın şəhərində 168 ailənin (647 nəfər) daimi məskunlaşması təmin edilib.

Lakin bu, Laçın şəhərinə sonuncu qayıdış köçü deyil. Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, Böyük qayıdış çərçivəsində keçmiş məcburi köçkünlərin bərpa edilən və yenidən qurulan Laçın şəhərinə qayıdışı davam edir.

Ümumilikdə Laçın şəhərinə 700, rayonun Zabux və Sus kəndlərinə isə 400 ailənin köçürülməsi nəzərdə tutulub.

#### Yolumuz Vətənə sarı

Dövlət başçısı İlham Əliyevin milli çağırışımız kimi xarakterizə etdiyi Böyük qayıdış sürətli və layiqli bir şəkildə həyata keçirilir.

Azərbaycan dövləti təxminən növbəti üç il ərzində Qarabağ və Şərqi Zəngəzur rayonları üzrə 150 mindən çox insanı doğma yurdlarına qaytarmağı planlaşdırır. Təkcə Qarabağ regionuna 2026-cı ilə qədər 140 min insanın dönməsi nəzərdə tutulub.

Göründüyü kimi, qarşıda da bizi zəfər coşqulu, vətən sevincli qayıdış köçləri gözləyir...

Azərbaycan xalqı olaraq hələ neçə-neçə qayıdış karvanlarıyla yurdlarına qovuşan insanlarımızın necə ilahi hisslər yaşadığının, bu torpaqlara yenidən həyatın qayıtmasının fəxarətli, qürurlu şahidliyini edəcəyik...

Biz də onlar kimi xoşbəxt olacağıq...

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***





## İşğaldan azad olunan ərazilərə köçürülən sakinlərin məşğulluğunun təminatı ilə bağlı işlər davam etdirilir

### Həftə ərzində daha 59 ailə ilə görüş keçirilib, onların məşğulluq imkanları qiymətləndirilib





Böyük qayıdış proqramına uyğun olaraq, işğaldan azad olunan ərazilərə köçürülən sakinlərin aktiv məşğulluq proqramları ilə əhatə olunması istiqamətində işlər davam etdirilir.



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən həmin sakinlərin məşğulluq imkanlarının qiymətləndirilməsi məqsədilə həftə ərzində Laçın rayonu və Ağalı kəndinə köçürüləcək daha 45 ailə ilə görüş keçirilib və onlarla məşğulluq imkanlarının müəyyənləşdirilməsi istiqamətində ilkin söhbətlər aparılıb.

Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, görülən işlərin davamı olaraq artıq Laçına köçürülmüş sakinlərlə də görüşlər davam etdirilib. Agentlik tərəfindən Laçına köçürülmüş daha 14 ailə ilə görüş keçirilib, onların hansı məşğulluq proqramına cəlb olunacaqları müəyyənləşdirilib. Doğma yurdlarına köçürülən sakinlərin münasib vakansiyalar üzrə işlə təminatı, özünüməşğulluq proqramına cəlbi, eləcə də sakinlərdən bir qisminin yeni peşələrə yiyələnmələri məqsədilə peşə hazırlığı kurslarının təşkili üzrə tədbirlər görülür.

## *Rəhilə KƏRİMOVA:* "Laçın mənim ana qucağım, ata nəfəsimdir"

"Laçına qayıtmaq hissini sözlə ifadə etmək çətindir. Hazırda hər şey mənə yuxu kimi gəlir, inana bilmirəm ki, artıq doğma yurduma qayıdıram. Laçın mənim ana qucağım, ata nəfəsimdir".



Bu sözləri AZƏRTAC-a Laçın sakini Rəhilə Kərimova deyib. R.Kərimova qeyd edib ki, yurda, elə, obaya qayıtmaqdan gözəl hiss ola bilməz: "Anamın 98 yaşı var. 31 il idi Laçın həsrəti ilə yaşayırdı və nəhayət, bu gün şükürlər olsun ki, doğma yurda qayıdır. Bizim orada yaşamağımız üçün gözəl şərait yaradılıb. Mənim ən böyük arzum evimizin eyvanından Laçına baxmaq idi. Artıq ölsəm də dərdim olmaz".

## *Laçın sakini:* "Biz doğma yerləri əvvəlkindən də gözəl edəcəyik"

"Bugünkü gündən xoşbəxt gün ola bilməz. Həyatımda sonuncu dəfə bu qədər xoşbəxt olduğumu xatırlamıram. 34 yaşımda Laçını tərk etmişdim. Nə yarımçıq qalmışdısa, elə oradan da davam edəcəyəm".



Bu sözləri AZƏRTAC-a Laçın rayon sakini Rəhilə Qurbanova deyib.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuzun tarixi qələbə qazandığını diqqətə çatdıran R.Qurbanova onların sayəsində doğma Laçına qayıtdıqlarını deyib: "Mən elimdən, obamdan ayrı düşsəm də, 31 il Laçın həsrəti ilə yaşayırdım. Bir ana kimi şəhidlərimizin ruhu qarşısında baş əyirəm. Arzum budur ki, bayrağımız hər bir yerdə dalğalansın və düşmən baxdıqca xar olsun. Biz yurdumuzu yenidən qurmağa gedirik. Biz doğma yerləri əvvəlkindən daha gözəl edəcəyik".

## *Töhrit NOVRUZOV:* "Çox şükür, indi vətənimizə, el-obamıza qayıdırıq"

"Çox şükür indi vətənimizə, el-obamıza qayıdırıq. Çox sevincliyik. Laçın azad olunduqdan sonra bu qədər tez oraya köçəcəyimizə inanmırdıq".



Bu sözləri AZƏRTAC-a Laçın rayon sakini Töhrit Novruzov deyib.

Müsahib qeyd edib ki, şəhidlərimizin, qazilərimizin sayəsində vətənimizin bütövlüyü bərpa edilib: "İllər sonra yenidən Laçınımı gəzə biləcəyəm. Yaşıl meşələri, uca dağları üçün çox darıxmışam. Cavan yaşlarımda o gözəl diyarı tərk etməyə məcbur qalmışdım. İndi ailəmlə oraya çatmaq üçün səbirsizlənirik. Laçında təsərrüfatla məşğul olmaq, onu inkişaf etdirmək niyyətindəyik".

## *Famil İSAYEV:* "Laçında ilk olaraq şəhid dostlarımın məzarını ziyarət edəcəyəm"

"Hisslərimi sözlə ifadə edə bilmirəm. Nəhayət, 31 ildən sonra dədə-baba yurduma qayıdıram. Şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə cansağlığı arzu edirəm".



AZƏRTAC xəbər verir ki, bu sözləri Laçına yola salınan rayon sakini Famil İsayev deyib.

O qeyd edib ki, hazırda ölkəmiz güclü orduya malikdir və bunun sayəsində doğma Qarabağımız düşmən tapdağından azad edilib: "Birinci Qarabağ müharibəsində təchizatın zəif olması, vahid komandanlığın olmaması bizim məğlub olmamıza səbəb olmuşdu. İkinci Qarabağ müharibəsində isə Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz zəfər qazandı. Bu zəfər sayəsində bu gün doğma torpaqlara qayıdırıq. Mən Laçında ilk olaraq torpaqlarımızın bütövlüyü uğrunda şəhid olmuş dostlarımın məzarını ziyarət edəcəyəm".

# İki şəhid anası evində ziyarət edilmişdir





Zeynəb Bayramova Qarabağ müharibəsinin hər üzünü görmüş qəhrəman qadınlarımızdandır. 1991-ci ildən bəri cəbhənin Goranboy istiqamətində vuruşan əsgərlərin anası olub, qayğılarına qalıb, onlara yardım aparıb. Torpaqlarımızın yağı düşməndən azad olunması üçün cəbhəyə iki övlad verib və hər ikisi qəhrəmancasına şəhid olub.

Sinəsinə iki övlad dağı çəkilən Zeynəb ana söz düşəndə qürurla deyib ki, oğlanları Mehman və Bayram da Vətənin dar günündə sinələrini düşmən gülləsinə sipər etdilər və o, bununla fəxr edir.

Zeynəb Bayramovanın evi Naftalanın Şəhidlər xiyabanı ilə üzbəüzdür. 1966-cı ildən burada yaşayır. Evinin divarından iki şəhid oğlunun böyüdülmüş şəkli asılıb. Saçları bəmbəyaz olan ananın sifətində illərdən və kökündən gələn xanımlıq, müdriklik iz salıb. Demək olar ki, bütün naftalanlılar, o cümlədən şəhər icra hakimiyyətinin rəhbərləri ona el anası kimi baxır və tez-tez ziyarət edirlər.

Bu günlərdə yenə də Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov Qarabağ müharibəsində iki oğlunu şəhid vermiş Zeynəb Bayramovanı evində ziyarət etmişdir. Ziyarət zamanı şəhər rəhbəri torpaqlarımızın azadlığı uğrunda şəhid olmuş Vətən oğullarından söz açmış, şəhid anasının qayğıları ilə maraqlanmışdır.

Zeynab Bayramova icra başçısı ilə övladları haqqında xatirələrini bölüşmüş, hər zaman dövlət tərəfindən ona diqqət və qayğı göstərildiyini qeyd edərək buna görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya dərin minnətdarlığını bildirmiş, şəhər rəhbərinə tez-tez onu ziyarət etdiyi üçün təşəkkür etmişdir.

Qeyd edək ki, Mehman Bayramov Birinci Qarabağ müharibəsində, mayor Vaqif Bayramov isə Aprel döyüşləri zamanı qəhrəmancasına şəhid olmuşdur.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# QDF-in donorları və ictimaiyyətin nümayəndələri ilə görüş

İyulun 27-də Qarabağ Dirçəliş Fondunun (QDF) təşkilatçılığı və Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olunmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynovun iştirakı ilə QDF-in donor və tərəfdaşları olan ölkənin aparıcı şirkətlərinin və ictimaiyyətin nümayəndələri arasında görüş keçirilib.

AZƏRTAC xəbər verir ki, "Qarabağ Dirçəliş Fondunun Dostları" işgüzar platforması çərçivəsində təşkil olunan və "Yüksəliş" müsabiqəsinin qaliblərinin də iştirak etdikləri görüşdə Qarabağda həyata keçirilən bərpa və quruculuq prosesi, bu sahədə biznes, cəmiyyət və dövlət strukturları arasında əməkdaşlığın inkişafı, keçmiş məcburi köçkünlərin Qarabağa qayıdışı və digər mövzular ətrafında fikir mübadiləsi aparılıb.

Prezidentin xüsusi nümayəndəsi Emin Hüseynov "Qarabağ: Yenidənqurma və inkişaf, regionun investisiya imkanları" mövzusunda təqdimatla çıxış edərək işğaldan azad olunan ərazilərdə aparılan bərpa və quruculuq işləri ilə bağlı geniş məlumat verib.

Bərpa və yenidənqurma prosesinin çox sürətlə getdiyini deyən Emin Hüseynov işğaldan azad olunan ərazilərin bərpası üçün ilin sonunadək sərf ediləcək vəsaitin həcminin 12 milyard manata çatacağını diqqətə çatdırmaqla yanaşı, bu vəsaitin ildən-ilə artacağını vurğulayıb.

İşğaldan azad olunan ərazilərdə yaradılan infrastruktur layihələri ilə bağlı məlumat verən Emin Hüseynov həmin ərazilərin böyük kənd təsərrüfatı, iqtisadi və turizm potensialının olduğunu, bərpa prosesi başa çatdıqdan sonra bu potensiallardan geniş istifadə ediləcəyini bildirib.

Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyev çıxışında işğaldan azad olunan ərazilərdə aparılan bərpa və yenidənqurma işlərinin sürətlə davam etməsi ilə bağlı fikirlərini bölüşüb, QDF-in donorlarının iştirakı ilə keçirilən görüşlərin bu prosesə öz töhfəsini verdiyini söyləyib. O deyib: "Daha əvvəl keçirilən görüşlərimiz zamanı ən çox düşmənin torpaqlarımızda törətdiyi dağıntılardan, zərərdən danışırdıq. Bu gün isə daha çox bərpa və quruculuq işlərindən danışırıq. Bu, çox sevindirici haldır".

Zərərin miqyasının olduqca böyük olduğunu deyən İdarə Heyətinin sədri hər kəsi bərpa prosesində fəal olmağa çağırıb. "Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə bərpa işlərini öz imkanları, öz resursları hesabına edir. Kimdənsə kömək gözləməməliyik. Müharibə dövründə olduğu kimi həmrəylik nümayiş etdirməli, öz torpaqlarımızı özümüz bərpa etməliyik. Birgə atacağımız addımlar həm dövlətin bərpa prosesində yükünü azalda, həm də bərpa və yenidənqurma istiqamətində görülən işləri sürətləndirə bilər", - deyə o vurğulayıb.

Sonra görüş müzakirələrlə davam edib. Bir saata yaxın davam edən müzakirələr zamanı tədbir iştirakçılarının çoxsaylı sualları cavablandırılıb, Qarabağın bərpa və quruculuq prosesində şirkətlərin rolu, işğaldan azad edilən ərazilərdə gənclərin işlə təmin olunması, Böyük Qayıdış prosesi və digər mövzular ətrafında fikir mübadiləsi aparılıb.

# Sakinlərlə səyyar görüş keçirilib





Şirvan şəhərinin Hacıqəhrəmanlı qəsəbəsində sakinlərlə növbəti görüş keçirilib. Görüşdə Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov, şəhər icra hakimiyyəti başçısı Aparatının məsul əməkdaşları, əlaqədar təşkilat və xidmət sahələrinin rəhbərləri iştirak ediblər.

Öncə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, görkəmli oftalmoloq-alim Zərifə xanım Əliyevanın və ölkəmizin ərazi bütövlüyü, suverenliyi və tarixi torpaqlarımızın azad edilməsi uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olan şəhidlərin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Sonra respublikada əhalinin rifah halının yüksəldilməsi istiqamətində həyata keçirilən sosial-iqtisadi islahatlar, eyni zamanda Şirvan şəhərində aparılan abadlıq-quruculuq işləri, sakinlərin rahatlığının təmin olunması, vətəndaş məmnunluğunun artırılması istiqamətində görülən işlər barədə məlumat verilib. Şirvan şəhərinin növbəti 5 il (2024-2028-ci illər) üçün nəzərdə tutulmuş "Yeniləşən Şirvan" sosial-iqtisadi inkişaf konsepsiyasında nəzərdə tutulmuş tədbirlərdən danışılıb, Hacıqəhrəmanlı qəsəbəsində İDEA İctimai Birliyinin "Bizim həyət" xüsusi layihəsinə uyğun olaraq yeni, müasir abad məhəllənin salınacağının nəzərdə tutulduğu qeyd edilib.

Daha sonra sakinlərin müraciətləri dinlənilib və onları narahat edən müxtəlif məsələlər aidiyyəti məsul şəxslərin iştirakı ilə müzakirə edilib, qanunamüvafiq izahatlar verilərək həlli nəzarətə götürülüb.

Görüşdə iştirak edən sakinlər müraciətlərinə həssaslıqla yanaşılmasından məmnunluqlarını bildirərək, yaradılan şəraitə görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını ifadə ediblər.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

# Bakıda II Milli Qurama Festivalı başlayıb

İçərişəhər ərazisində II Milli Qurama Festivalı başlayıb. AZƏRTAC xəbər verir ki, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin, Mədəniyyət, Elm və Təhsil nazirliklərinin təşkilatçılığı ilə keçirilən festivala yürüş ilə start verilib.

Yürüşdə təcrübəli quramaçıların müşahidəsi ilə İçərişəhər və Qala qoruqlarının bir neçə məkanında paytaxt sakinləri, turistlər və idarənin əməkdaşları tərəfindən tikilən qədim tikmə növü olan qurama nümayiş etdirilib.

Festivalın açılışında unudulmaq təhlükəsini yaşayan milli sənət nümunəmizə həsr edilən Milli Qurama Festivalının müxtəlif tədbirlərlə davam edəcəyi vurğulanıb.

Qeyd olunub ki, II Milli Qurama Festivalı İçərişəhərdən başlayaraq Bakı və bölgələri əhatə edəcək. Festival proqramına "Ənənəvi Qurama" sərgisinin nümayişi, ustad dərslərinin keçirilməsi, quramaçı sənətkarların əl işlərindən ibarət satış yarmarkalarının təşkili, fond kolleksiyalarından ibarət quramaların nümayişi, habelə qurama sənətkarları ilə yanaşı, həvəskar kolleksioner quramaçıların əl işlərinin nümayişi daxildir.

# 4 günlük iş rejimi nə vəd edir?

## Həftəlik iş gününü qısaldan ölkələrin sayı artır

Son illər müxtəlif ölkələrdə həftədə 4 günlük iş rejiminə keçilməsi ilə bağlı müzakirələr aparılır. Araşdırmalardan və müzakirələrdən sonra bəzi ölkələr 2022-ci ilin əvvəlindən 4 günlük iş rejiminə keçiblər. Birləşmiş Ərəb Əmirlikləri, İrlandiya, İslandiya, İsveç, Finlandiya, Niderland, Kanada, Belçika və digər dövlətlərdə bu məsələ əmək qanunvericiliyi ilə təsbit edilib. Gürcüstan, Rusiya və qardaş Türkiyədə də aktual müzakirə mövzusu olan bu iş rejimi artıq Qazaxıstanda da reallaşıb. Ölkə parlamentinin qərarı ilə 4 günlük iş həftəsinə keçidlə bağlı qanun qəbul edilib və iyulun 1-dən tətbiqinə başlanılıb.



### Pandemiya məsafədən işləməyin mümkünlüyünü sübut etdi

Bəzi ekspertlər həftəlik iş rejiminin azaldılmasının hələ mümkün olmadığını qeyd etsələr də, digərləri bunun görülən işin keyfiyyətinə müsbət təsir etdiyini, məhsuldarlığı artıracağını bildirirlər. Həmin ekspertlərin fikrincə, 4 günlük iş rejimi insanlarda məsuliyyət hissini artırır və onlar işlərini bu müddətə sığdırmağı bacarırlar. Həm də digər günlərdə istirahət edəcəklərini düşünərək daha rahat və aydın beyinlə çalışa bilirlər.

Xüsusən dünyanın son üç ildə qarşılaşdığı COVID-19 pandemiyası iş rejiminin azaldılmasının, hətta bəzi hallarda onlayn rejimdə, evdən çalışmağın mümkünlüyünü sübut etdi. Əvvəllərdə insanlar müəyyən çətinliklərlə qarşılaşsa da, qısa zamanda bu iş rejiminə alışdılar və yollarda saatlarla itirilən vaxtdan, gərginlikdənsə, stressiz şəkildə evdə çalışmağın daha səmərəli yol olduğunu qəbul etdilər. Elə buna görədir ki, pandemiya ilə bağlı vəziyyət sabitləşsə də, karantin qaydaları yumşaldılsa da, əksər insanlar artıq səmərəli işləməyin evdən mümkünlüyünü anlayaraq onlayn rejimdə çalışmağa üstünlük verirlər. Xüsusən xarici şirkətlər nümunəsində belə iş şəraitinin mümkün olduğu və effektivliyi göz qabağındadır. Elə məsələnin aktuallığı nəzərə alınaraq ötən ilin iyun ayında Böyük Britaniyada həftədə 4 günlük iş rejiminə keçilməsi istiqamətində pilot layihəyə başlanıldı. 70-dən çox şirkətin 3300-dən artıq işçisinin iştirakı ilə baş tutan layihə 6 ay davam etdi. Layihə çərçivəsində 4 günlük çalışanların əməkhaqqısında heç bir azalma olmayıb. Tədqiqatda əsasən məsləhət, təhsil, qida və içki, kosmetika, tikinti, mənzil və rəqəmsal marketinq sahələrində fəaliyyət göstərən şirkətlər iştirak edib. Araşdırmada iştirak edən şirkətlərin müxtəlif kateqoriyadan olan işçiləri 4 günlük iş rejiminin insanların ailələri ilə daha çox vaxt keçirməsinə imkan verdiyini, onların daha xoşbəxt olduğunu, yuxu rejimlərinin daha yaxşı olduğundan iş keyfiyyətini artırdığını qeyd ediblər.

6 aylıq araşdırmanın nəticəsi olaraq Böyük Britaniyada 100-dən çox şirkət 4 günlük iş rejiminə keçmək qərarına gəliblər. Həmin şirkətlər iş gününün azaldılması zamanı məhsuldarlığın ya eyni səviyyədə qaldığını, ya da artdığını bildiriblər.

Belçika hökuməti tərəfindən iyun ayında qəbul edilən həftədə 4 günlük iş rejimi barədə qərar da ötən il noyabrın 20-dən qüvvəyə minib. Bununla işçilər həftədə 4, ya 5 gün işləyəcəklərinə özləri qərar verəcəklər. Bu iş saatlarını azaltmayacaq, yəni əməkdaşlar işlərini 4 günə sığdırmalı olacaqlar. Şotlandiyada, İslandiyada da 4 günlük iş rejimi ilə bağlı aparılan sınaqlar uğurla nəticələnib.

Qonşu Türkiyədə də bəzi şirkətlər həftədə 4 günlük iş rejimini tətbiq ediblər. Bu rejim çalışmaq istəyənlərin müraciəti əsasında həyata keçirilib.

Ümumilikdə bir çox ölkə məhsuldarlıq səviyyəsini saxlamaqla, iş vaxtını azaltmaq haqqında sınaqlar həyata keçirir. İstər 4, istərsə də 5 günlük iş həftəsində bazar istirahət günü hesab olunur. Beşgünlük və altıgünlük iş həftəsində ikinci və üçüncü istirahət günləri kollektiv müqaviləyə və ya əmək intizamı qaydalarına əsasən müəyyən olunur.

Dördgünlük, beşgünlük və altıgünlük iş həftələrində əlavə iş müddəti ayda 12 saatdan çox, iş vaxtının məcmu uçotu müəyyən edilən hallarda isə ildə 120 saatdan çox olmamalıdır.

Yeni qanun istehsalın dayandırılması mümkün olmayan müəssisələrə şamil edilmir.

### Azərbaycanda 2023-cü il üçün iş vaxtı norması

Azərbaycanda 2023-cü il üçün iş vaxtı norması və istehsalat təqviminə əsasən gündəlik normal iş vaxtının müddəti 8 saatdan, gündəlik normal iş vaxtına uyğun olan həftəlik normal iş vaxtının müddəti 40 saatdan artıq ola bilməz. Bir qayda olaraq, iki istirahət günü olan beşgünlük iş həftəsi müəyyən edilir.

Altıgünlük iş həftəsi tətbiq edilərkən həftəlik norma 40 saat olduqda gündəlik iş vaxtının müddəti 7 saatdan və bilavasitə səhərisi gün istirahət günü olan iş gününün müddəti isə 6 saatdan çox ola bilməz. Mövcud aylıq iş saatından əlavə iş vaxtı yarandıqda Əmək Məcəlləsinə əsasən, işçiyə həmin saatlara görə əlavə əməkhaqqı ödənilməlidir.

Ölkəmizdə 4 günlük iş rejiminə keçidlə bağlı iqtisadiyyat nazirinin müavini Elnur Əliyev bildirib ki, bəzi Avropa ölkələri 4 günlük iş rejiminə keçsə də, Azərbaycan üçün bu, hələ ki araşdırılmalı mövzudur. O qeyd edib ki, 4 günlük iş rejiminin tətbiqi ilə bağlı səslənən və real niyyət fərqlidir. "Səslənən niyyət insanların asudə vaxtının çox olmasıdırsa, real və alt niyyət sahibkarların maliyyə vəsaitlərinə qənaət etməsidir. Yəni bu məsələ ikitərəflidir. Bəzi ölkələr bunu pilot layihə olaraq həyata keçirir. 4 günlük iş rejimi araşdırılmalıdır. Bu məsələ ölkədən ölkəyə fərqlənə bilər", - deyə nazir müavini əlavə edib.

### İşçilərin sosial hüquqlarının qorunması gücləndirilməlidir

Milli Məclisin deputatı, Əmək və sosial siyasət komitəsinin üzvü Vüqar Bayramov qəzetimizə açıqlamasında bildirib ki, 4 günlük iş rejiminə keçid inkişaf etmiş ölkələrdə müzakirə edilən məsələlərdəndir. Onun sözlərinə görə, Böyük Britaniya artıq bu istiqamətdə daha real addımlar atmağa çalışır. Azərbaycan üçün indiki halda əmək bazarının leqallaşdırılması ilə bağlı fəaliyyətlərin davam etdirilməsi, eyni zamanda işçilərin sosial hüquqlarının qorunmasının gücləndirilməsi daha prioritetdir, çünki bu gün aparılan monitorinqlər bir sıra hallarda işçilərin əmək müqaviləsi olmadan işə cəlb olunduğunu göstərir. Bu da onların sonradan pensiya hüququnun yaradılmasında, həmçinin əmək hüquqlarının qorunmasında çətinlik yaradır.

Deputat deyir ki, ilk növbədə işçilərin əmək hüquqlarının qorunması üçün bir tərəfdən əmək bazarının leqallaşdırılması, digər tərəfdən isə bu istiqamətdə fəaliyyətin gücləndirilməsi çox vacibdir. İndiki halda əmək bazarı üçün çağırışlar fərqlidir. Məhz bu çağırışları reallaşdırdıqdan, bu istiqamətdə islahatları dərinləşdirdikdən, xüsusən əmək hüquqlarının qorunması ilə bağlı nəzarət mexanizmini gücləndirdikdən sonra iş vaxtı və saatları ilə bağlı məsələni müzakirə etmək mümkündür. Prioritet məsələ əmək bazarında leqallaşma, işçilərin əmək hüquqlarının qorunması ilə bağlı sistemli və ünvanlı tədbirlərin genişləndirilməsindən ibarət olmalıdır.

### İşəgötürənin qazancı

Vətəndaşların Əmək Hüquqları Liqasının sədri Sahib Məmmədov açıqlamasında qeyd edib ki, pandemiya məsafədən işləmə təcrübəsi yaradıb və bununla bağlı Əmək Məcəlləsinə müvafiq dəyişikliklərin edilməsi barədə söhbətlər gedir. Hazırda Əmək Məcəlləsinə heç bir dəyişiklik etmədən də özəl qurumlarda işin məsafədən təşkil edilməsinə heç bir məhdudiyyət yoxdur. Burada yeganə problem əməyin mühafizəsi ilə bağlı məsələ ortaya çıxa bilər, çünki işçi iş şəraitində olanda istehsalatda bədbəxt hadisə və peşə xəstəlikləri hallarından sığortalanır. Evdə bədbəxt hadisə baş verərsə, bu kimi açıq qalan kiçik məsələlər sonra ciddi problemə çevrilə bilər.

Sahib Məmmədov deyir ki, xarici ölkələrdə həftədə 4 günlük iş rejiminə keçid yalnız işçilərin istirahət hüququnu daha da genişləndirmək məqsədi daşımır. 4 günlük və ya qısaldılmış iş gününə keçən biznes ilk növbədə öz mənafeyini düşünür, amma iş gününün və ya iş saatının qısaldılması halında əməkhaqqının azaldılmasına qanun yol vermir. Bir işçi 8 saata hasil etdiyini 4 saata edə bilirsə, belə halda işəgötürən təbii ki, udur. Birincisi, müəssisədə enerjiyə, resurslara qənaət edilir və işə götürən çox şeydə irəli düşür. Biri də var ki, müəssisə 5-6 gün işləyir və hər gün enerji sərf olunur. Əlbəttə ki, əlavə enerji xərci müəssisəyə sərf etməz. Bu, hazırda enerji daşıyıcılarının qiymətlərinə görə Avropa üçün xüsusən aktualdır. 8 saata görüləcək işi 4 saata görmək mümkün olan müəssisələrdə belə təcrübələrə gedilir.

Ekspert bildirir ki, Azərbaycanda da Dördüncü Sənaye İnqilabına prosesin başlanması belə iş rejiminə imkan verir. Xüsusən İT kompaniyalarında məsafədən işləmək, yaxud qısaldılmış iş həftəsində çalışmaq adi haldır. Azərbaycanda qeyri-formal iş bazarı böyükdür, bəzi sahələrdə işçiləri 10-12 saat işlədirlər. Xüsusən tikinti sektorunda, infrastruktur layihələrində işçilər 8 saatdan artıq çalışırlar. Deməli, bu, Azərbaycan üçün hələ real görünmür. Amma ölkədə 4 günlük iş rejiminə keçmək istəyən kommersiya qurumları, əməkhaqqını azaltmamaq şərtilə bunu tətbiq edə bilərlər. Buna bir maneə yoxdur.

O vurğulayır ki, hasilat rejimi ilə işləyənlər günə 8, həftəyə 40 detal istehsal etməlidirlərsə, bunu 4 günə edirlərsə, o zaman 5-ci gün işə çıxmaya bilərlər. Amma elə müəssisələr var ki, məhsul istehsal etmir, işçi isə işdə olmalıdır.

### Yaradıcı, elmi işlərdə qısaldılmış iş rejimi tətbiq etmək mümkündür

Sahib Məmmədov hesab edir ki, 4 günlük iş rejiminə keçid işin xarakterindən asılı olaraq məhsuldarlığa müxtəlif cür təsir edə bilər: "İntellektual işlərdə işləyən şəxslərin hasilat qabiliyyəti 8 saatın hamısında eyni dərəcədə olmur, günün birinci hissəsi müəyyən saatlarını işlədikdən sonra artıq onun effektivliyi düşür. Yaradıcı, elmi işlərin hamısında belədir. Bu sahələrdə qısaldılmış iş rejimi tətbiq etmək olar".

Ekspert qeyd edir ki, xidməti işdə isə bunu yalnız texnologiyanın hesabına tətbiq etmək mümkündür. Məsələn, bir şəxs detalı hasil edərkən əməyin mühafizəsi qaydalarına, texniki təhlükəsizlik qaydalarına əməl etməlidir. Onu pozaraq sürətlə işləyə bilər, amma bu zaman istehsalatda bədbəxt hadisə baş verər. Bütün bunları ölçüb-biçmədən kor-koranə tətbiq etmək mümkün deyil.

Onun sözlərinə görə, müəyyən sahələrdə iş rejiminin qısaldılması təkcə müəssisənin xeyrinə deyil, həm cəmiyyət, həm də dövlətin xeyrinədir. Belə halda həmin gün şəxsi avtomobillərdən istifadə tıxaclar, ətraf mühitə atılan karbon qazının miqdarı azala bilər. Bunlar hamısı elmi əsaslarla olmalıdır.

### Motivasiya, keyfiyyətli iş, məhsuldarlıq...

Deyilənlər göstərir ki, hazırda Azərbaycanda 4 günlük iş rejiminə keçid o qədər də mümkün görünmür. Dövlət müəssisələrində bu rejimin tətbiqi üçün Əmək Məcəlləsində dəyişikliyə ehtiyac var, özəl şirkətlər isə bunu rahatlıqla tətbiq edə bilərlər. Ölkədəki bəzi xarici şirkətlərin iş rejimində müəyyən qədər "rahatlıq" təmin olunsa da, digər özəl müəssisələrdə qısaldılmış iş həftəsinə rast gəlinmir. Təbii ki, heç bir pilot layihə həyata keçirilmədən birbaşa 4 günlük iş rejiminə keçid insanlarda da çaşqınlıq yarada bilər. Amma təcrübədən keçirilən və yaxşı nəticələr verən, xüsusən insan beyninin daha çox yükləndiyi elmi, yaradıcı işlərdə daha keyfiyyətli iş naminə iş günlərinin azaldılması işçilərə motivasiya verməklə yanaşı, məhsuldarlığı artıra, şirkətləri isə müəyyən resurs, enerji sərfiyyatında irəli sala bilər.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Qəbələdə "Gənclərə dəstək" layihəsi çərçivəsində növbəti konsert proqramı təqdim olunub




XIII Qəbələ Musiqi Festivalının proqramına uyğun olaraq, iyulun 28-də Heydər Əliyev Konqres Mərkəzində M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının "Gənclərə dəstək" layihəsi çərçivəsində gənc ifaçıların iştirakı ilə növbəti konsert proqramı təqdim olunub.

AZƏRTAC xəbər verir ki, festivalın təşkilatçı qurumlarının təmsilçilərinin, yerli musiqisevərlərin və şəhərin qonaqlarının iştirakı ilə keçən konsertdə respublika və beynəlxalq müsabiqələr laureatları çıxış ediblər.

Tamilla Əhədova (piano), Nərminə İsmayılova (piano), Camalə Abdinzadə (piano), Çinarə Əzimova (soprano), Surə Rüfət (violin), Humay Hacızadə (viola), Aytən Rüstəmli (kamança), Mirxalid Məmmədzadə (fleyta), Cəlil Bəşirli (tar) və Vaqif Qurbanovun (cello) ifaları tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb. İfaçıları pianoda Svetlana Əhmədova, Rəfiqə Quluzadə və Nuridə Novruzova müşayiət ediblər.

Konsertdə Fikrət Əmirovun, Firəngiz Əlizadənin, həmçinin P.Çaykovskiy, H.Vieuxtemps, G.Bizet, V.Horovits, V.Monti, R.Şuman, Ch.Gounod, L.Əhmədova, T.Əhədova, R.Əhmədzadə və digər bəstəkarların əsərləri səsləndirilib.

Qeyd edək ki, "Gənclərə dəstək" layihəsinin məqsədi gənc və istedadlı ifaçıların, bəstəkarların gələcək böyük sənət həyatına vəsiqə verməkdir. Layihə çərçivəsində gənclərin ilk konserti 2016-cı il noyabrın 15-də olub. Həmin vaxtdan onlar mütəmadi olaraq hər ay bir neçə dəfə silsilə konsertlər verərək, öz dinləyici kütləsini yaradıb, geniş auditoriyanın rəğbətini qazanıblar. "Gənclərə dəstək" layihəsi cəmi yeddi ildir yaranmasına baxmayaraq, artıq ölkəmizin hüdudlarından kənarda da tanınır.


# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

*abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |


RƏSMİ DÖVLƏT QƏZETİ
AZƏRBAYCAN
AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI
İlham Əliyevdən ədalət çağırışı
EXCLUSIVE WITH AZERBAIJANI PRESIDENT
Aliyev: Pursuing independent policy based on nat'l interest
Azərbaycan Prezidenti bir daha Ermənistanı sülhə, dünya dövlətlərini isə qlobal problemlərin həllində həmrəyliyə dəvət edib
Ermənistan beynəlxalq ictimaiyyəti çaşdırmağa yönəlik manipulyasiya ilə məşğuldur
"Minsk qrupu artıq "pensiya"ya çıxıb"
Ermənistanın son məzhəkəsi
Ermənistanı silahlandıran Hindistan öz prinsiplərinə sadiq deyil
Qarabağın tibbi ehtiyacları olan erməni sakinlərinin Laçın sərhəd-buraxılış məntəqəsindən Ermənistana buraxılışı həyata keçirilib

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# "Çendu-2021" 31-ci Dünya Yay Universiadasının açılış mərasimi keçirilib




Çində Çendu şəhərində 31-ci Dünya Yay Universiadasının rəsmi açılış mərasimi keçirilib.

Donqan gölü idman parkının stadionunda keçirilən açılış mərasimində Çin Xalq Respublikasının Sədri Si Cinpin ilə yanaşı, bir neçə xarici ölkənin dövlət və hökumət başçıları, yüksəkvəzifəli qonaqlar iştirak ediblər.

Avqustun 8-dək davam edəcək tələbələrin Yay universiadasında 113 ölkədən 6500 tələbə idmanın 18 növü üzrə 269 medal dəsti uğrunda mübarizə aparacaq. Yarışların təşkili üçün 49 arena ayrılıb ki, onlardan 13-ü yeni inşa olunub. Təxminən 11 min idmançı və heyət üzvünün yaşadığı "Atletlər kəndi" Çendu Universitetinin kampusunda yerləşir. Universiadalar tarixində ilk dəfədir ki, "Atletlər kəndi" ali təhsil ocağının kampusunda yaradılıb.

Çendu Pekin və Şencendən sonra Çində Yay universiadasının təşkil olunduğu üçüncü şəhərdir.

Qeyd edək ki, cədvəl üzrə 2021-ci ildə keçirilməli olan 31-ci Yay Universiadasının vaxtı pandemiya səbəbindən "Tokio-2020" Yay Olimpiya Oyunlarının 2021-ci ilə keçirilməsi ilə əlaqədar 2022-ci ilin iyununa təxirə salınmışdı. Amma ötən ilin mayında FISU "Çendu-2021" Universiadasını daha bir il təxirə salmaq barədə qərar qəbul edib.

Azərbaycanı "Çendu-2021" Universiadasında 20 ali təhsil müəssisəsindən 18-27 yaş aralığında 88 atlet 16 idman növündə təmsil edəcək. Azərbaycan komandasının bayraqdarı kişilərdə atlet Nazim Babayev, qadınlarda cüdoçu Gültac Məmmədəliyevadır. Ölkəmiz universiadalar tarixində ilk dəfə ən böyük heyətlə təmsil olunur.

# Daşkəsən və Göygöl rayonlarında aqrar inkişafa dəstək layihəsinin icrasına başlanılıb

"AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) təşəbbüsü, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyinin (Agentlik) dəstəyi ilə Daşkəsən və Göygöl rayonlarında aqrar inkişafa dəstək layihəsinin icrasına başlanılıb.



Layihə çərçivəsində 24-27 iyulda "AzerGold" QSC-nin əməkdaşlarının iştirakı ilə Aqrar Xidmətlər Agentliyinin mütəxəssisləri tərəfindən Daşkəsən rayonunun Çovdar, Çaykənd, Quşçu ("Şadax" ərazisi daxil olmaqla), Bayan kəndləri, eləcə də Göygöl rayonunun Tülallar kəndində kənd təsərrüfatı ilə bağlı monitorinq həyata keçirilib.

"AzerGold" QSC-nin Mətbuat xidmətindən verilən məlumata görə, monitorinqlər zamanı agentliyin Heyvan Sağlamlığı və Baytarlıq Xidmətləri Mərkəzi tərəfindən hazırlanmış sorğu anketi vasitəsilə cari ildə heyvanların baş sayı, onlarda aparılmış profilaktiki tədbirlər araşdırılıb, eləcə də kəndlərdə heyvanlara kliniki baxış keçirilərək, mövsümi xəstəliklərə görə qan nümunələri alınaraq Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun (AQTİ) Göygöl regional sınaq laboratoriyasına və Baytarlıq Elmi-Tədqiqat İnstitutuna (BETİ) göndərilib. Həmçinin bitki mühafizəsi və heyvan sağlamlıq tədbirlərinin həyata keçirilməsi üçün prosesə müxtəlif növ texnika və avadanlıqlar cəlb olunub, heyvan saxlanılan ərazilər dezinfeksiya edilib.

Bundan başqa, agentliyin Bitki Mühafizə və Fumiqasiya Mərkəzinin əməkdaşları tərəfindən ev təsərrüfatlarına baxış keçirilib, zərərli orqanizmlərin təsirinə məruz qalmış bitkilərin fitosanitar monitorinqi aparılıb və meyvə, tərəvəz bitkilərindən nümunələr götürülərək, AQTİ-nin laboratoriyasına göndərilib.

Monitorinq çərçivəsində agentliyin Laboratoriya, Ekspertiza və Sertifikatlaşdırma Mərkəzinin mütəxəssisləri tərəfindən qeyd olunan kəndlər üzrə əkin və örüş-otlaq yerlərindən torpaq və su nümunələri də götürülərək, mərkəzi laboratoriyaya analiz üçün təqdim olunub.

Eyni zamanda agentliyin Aqrar Təlim Mərkəzi tərəfindən ümumilikdə 596 ev təsərrüfatından 480-də sorğu aparılıb, sakinlərin gündəlik fəaliyyəti, kənd təsərrüfatının hansı növü ilə məşğul olmaları, məhsuldarlıq göstəriciləri, satış və sosial-iqtisadi məsələlər araşdırılıb, təlim-ehtiyac meyarları müəyyənləşdirilib. Həmçinin əhalinin maarifləndirilməsi məqsədilə kənd təsərrüfatının müxtəlif sahələri üzrə buklet və broşürlar paylanılıb. Bütün bunlarla yanaşı, kənd təsərrüfatı texnikalarının mövcud vəziyyəti və texnikalara olan tələbat araşdırılıb.

Monitorinqlərin nəticələri ətraflı təhlil edildikdən sonra ailə kəndli-fermer təsərrüfatlarının inkişaf etdirilməsi məqsədilə müvafiq sahələri əhatə edən tədbirlər planının hazırlanması və icrası nəzərdə tutulur. Belə ki, sorğu əsasında müəyyən edilmiş meyarlar üzrə əhaliyə təlimlərin keçirilməsi, onlara mütəxəssislər tərəfindən müvafiq məsləhət-informasiya xidmətlərinin göstərilməsi nəzərdə tutulub.

Qeyd edək ki, "AzerGold" QSC-nin agentliyə müraciəti əsasında icra edilən layihədə əsas məqsəd QSC-nin hasilat və istehsalat fəaliyyəti həyata keçirdiyi bölgələrdə dayanıqlı inkişaf məqsədlərinə nail olunması, o cümlədən yerli icmalarla işin gücləndirilməsi, ətraf mühitin mühafizəsi, bölgə əhalisinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması, onların aqrar təsərrüfat fəaliyyətlərinin inkişafına dəstək göstərilməsidir.

Bu məqsədlə sözügedən ərazilərdə aqrar sahədə monitorinq işlərinin mütəmadi olaraq təşkil edilməsi, layihənin davamlılığının təmin edilməsi nəzərdə tutulub.

# Azərbaycan cüdoçuları Olimpiya Festivalını qələbə ilə başa vurublar





Sloveniyanın Maribor şəhərində Avropa Yeniyetmələrinin XVII Olimpiya Festivalının altıncı günündə Azərbaycan idmançıları 2 idman növündə mübarizə aparıblar. Tennis yarışlarında 3, cüdoda isə 2 idmançımız qüvvəsini sınayıb.

Tennisçilərimizin nəticələri uğurlu alınmasa da, əvəzində cüdoçularımız əvvəlki günlərdə olduğu kimi, bu dəfə də parlaq çıxış edərək daha 2 medal qazanıblar.

Belə ki, təmsilçilərimizdən Aslan Kotsoyev (90 kq) 1/8 finalda Bilin Kukaya (Kosovo), növbəti mərhələdə isə Nikita Afanasyevə (Latviya) qalib gələrək yarımfinala yüksəlib. İdmançımız finala vəsiqə uğrunda görüşdə xorvatiyalı Marko Boziçi mübarizədən kənarlaşdırıb. Həlledici qarşılaşmada gürcüstanlı Saba Qveleşianini məğlub edən Aslan Kotsoyev Avropa Yeniyetmələrinin XVII Olimpiya Festivalının qızıl medalına layiq görülüb.

Komandamızın digər üzvü, "Maribor-2023"dəki bayraqdarımız Ramazan Əhmədovun (+90 kq) da çıxışı uğurlu alınıb. 1/8 finalda almaniyalı Kristian Vilhelmə qalib gələn Avropa çempionu növbəti mərhələdə yunanıstanlı İoannis Kostelidisdən üstün olub. Cüdoçumuz yarımfinalda Stefan Koviniçi (Monteneqro) də məğlub edərək həlledici görüşə vəsiqə əldə edib. Qızıl medal uğrunda final görüşündə türkiyəli İbrahim Tataroğluna uduzan Ramazan Əhmədov gümüş medala sahiblənib.

Beləliklə, Azərbaycan cüdoçuları "Maribor-2023"də 9 medal qazanıblar. Bunlardan 3-ü qızıl, 2-si gümüş, 4-ü bürüncdür.

Komandamız bu nəticə ilə Gürcüstan və Ruminiyanı qabaqlayaraq Olimpiya Festivalının qalibi olub.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi tərəfindən məktəbəqədər təhsil müəssisələrinə yumşaq inventar, yataq ləvazimatları və xüsusi geyimlərin satın alınması məqsədilə 16.06.2023-cü ildə keçirilmiş açıq tender prosedurunun nəticəsinə əsasən, "TİKİNTİ-TƏMİR-TƏCHİZAT-BƏRPA" QSC qalib elan edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***


«AZƏRBAYCAN»
qəzetinin reklam xidməti


***"XXI Əsr Beynəlxalq Təhsil və İnnovasiya Mərkəzi" MMC-yə (VÖEN: 1300220291) məxsus ümumi təhsil müəssisələrinin (liseylər və gimnaziyalar daxil olmaqla) fəaliyyətinə dair İSN/L-224/2016 qeydiyyat nömrəli 03.02.2016-cı il tarixli lisenziya itdiyi üçün etibarsız sayılır.***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Texniki Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsi universitetin İnformasiya və telekommunikasiya texnologiyaları fakültəsinin dekanı Taleh Şirinova atası

**VORAŞİL ŞİRİNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman | |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| | | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru



www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 5220**
**Sifariş 1848**

**Qiyməti 40 qəpik**